Xalqın qəzeti!

# Xalq qəzeti

№ 163 (30279) 4 avqust 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Bütün dünya Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. Hətta Ermənistanın baş naziri dəfələrlə "Qarabağ Azərbaycandır" söyləyib. Bəs nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir? Bu, bizim legitim tələbimizdir.**

## Azərbaycan sülh prosesindən ədalətli nəticə gözləyir

### Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.**

Dövlətimizin başçısı bu yaxınlarda ABŞ Dövlət katibi Antoni Blinkenlə keçirdiyi telefon söhbəti zamanı qaldırılmış məsələlər ətrafında fikir mübadiləsini davam etdirdi. Prezident İlham Əliyev Azərbaycan tərəfinin sülh prosesini davam etdirmək əzmini bir daha təsdiqlədi və tezliklə danışıqlar çərçivəsində müzakirə olunan əsas istiqamətlər üzrə nəticələrin əldə ediləcəyinə ümidvar olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Diplomatik və psixoloji savaşın müzəffər sərkərdəsi



**Azərbaycan Prezidenti İlham Əliyevin nüfuzlu "Euronews" telekanalına müsahibəsindəki ayrı-ayrı məqamları təhlil edərkən, gözlərimiz önündə nəinki bu gün Azərbaycan–Ermənistan münasibətləri, Cənubi Qafqazda sülh gündəliyi ilə, o cümlədən, ölkəmizlə bağlı beynəlxalq miqyaslı anti-təbliğatın ayrı-ayrı məqamları canlanır. O təbliğatın ki, müstəqillik qazandığımız ilk günlərdən başlamış və özünün kulminasiya anına 44 günlük müharibə dönəmində çatmışdı.**

***

Vətən müharibəsindən, daha doğrusu, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra, Azərbaycan ictimaiyyətində belə fikir var idi – savaşın psixoloji və daha çətin mənzərəsi başlanacaq. Gözləntilərin özünü doğrultması üçün zamana ehtiyac qalmadı. Tezliklə Ermənistan rəhbərliyinin, erməni lobbi və diaspor təşkilatlarının, o cümlədən, xaricdəki ermənipərəstlərin "hərəkətə keçdiklərini" və ölkəmizə qarşı total antipatiya yaratmağa start verdiklərini gördük. Məqsədləri müharibə nəticəsində yaranmış reallıqları dəyişmək, itkilərini minimuma endirmək, onların yerini doldurmaq, bir sözlə, Azərbaycanın savaş meydanında qazandığı qələbəni informasiya müstəvisində onun əlindən almaq idi. Görünür, tarixdən belə bir şeyin mümkünlüyünü görmüşdülər. Yada salaq ki, Napoleon Fransası ağır məğlubiyyətə uğradıqdan sonra ölkə o zaman imperiyanın xarici işlər naziri olmuş Taleyranın bacarığı sayəsində heç nə itirməmişdi. Ermənistan hakimiyyətində də Taleyranlıq etmək eşqinə düşənlər tapıldı. Bu "işə" xaricdəki "taleyranlar" da qoşuldular.

*(ardı 3-cü səhifədə)*

## Moskva sərhəd məsələsinə hansı meyarla yanaşır?



**"Ərazi mübahisələri Ermənistan–Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası prosesi zamanı həll edilməlidir". Rusiya XİN-in rəsmisi bununla haqqında danışdığı problemin məhz Moskvanın təqdim edəcəyi xəritə(lər) əsasında həll edilməli olduğuna işarə vurur. Yəni, Kreml bu açıqlaması ilə sərhədlərin müəyyənləşdirilməsi məsələsini bir növ münaqişə tərəflərinin öz öhdəsinə buraxmağa çalışır. Deyəsən, rəsmi Moskva tərəflər arasında sülh danışıqlarının bu seqmenti üzrə vasitəçiliyini zəiflətməyə qərar verib. Onun diplomatiya idarəsinin nümayəndəsinin açıqlamasından bu qənaətə gəlmək mümkündür.**

Bakı Azərbaycanın bolşeviklər tərəfindən işğalından, burada Sovet hakimiyyəti qurulandan sonrakı yetmiş il ərzində Moskvada hazırlanmış hərbi, mülki xarakterli xəritələr üzrə İrəvanla sərhədin delimitasiya və demarkasiyasına başlamağa hazır olduğunu bildirib. Baxmayaraq ki, barəsində daha çox danışılan, SSRİ Silahlı Qüvvələrinin 1975-ci ildə hazlırladığı hərbi xəritə anklavlar məsələsinin həllini çətinləşdirə biləcəyindən Bakıya sərf eləmirdi. Amma elə həmin xəritə ilə bağlı seçimdə daha çox çətinlik yaşayan biz yox, Ermənistan iqtidarıdır.

*(ardı 4-cü səhifədə)*

## Separatçılara qucaq açan, kataloniyalılara düşmən kəsilən sinyor Borrell



**Qərbin bəzi siyasətçiləri müəmmalı maraqları naminə erməni şovinizminə, qəsbkarlığına dəstək verməkdən vaz keçmirlər. Bələlərinin sırasında özlərini müstəqil insan haqları müdafiəçiləri adlandıranlar, sabiq səlahiyyət sahibləri ilə yanaşı, hazırda "Qoca qitə"nin nüfuzlu təşkilatlarında, institutlarında yüksək vəzifələr tutan məmurlar da yer alır. Onlar Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi prosesində, yaxud sülh danışıqlarının müəyyən raundunda, ələlxüsus da, bölgədə baş verən hərbi-siyasi xarakterli insidentlər zamanı bir mərkəzdən əmr alıbmış kimi, xorla hayların "alovlu müdafiəçiləri" rolunda çıxış etməyə başlayırlar. Son vaxtlar həmin xorda "əzabkeş hayların müdafiəsi" üçün bariton səslə oxuyanlardan biri də Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, kataloniya əsilli Cozep Borrelldir.**

*(ardı 4-cü səhifədə)*

## Ölkənin valyuta vəsaitləri davamlı olaraq artır



Səhifə ⇨ 7

## "Müstəntiqlər Xaçatryanı dindirlər, ona əlavə ittihamlar irəli sürülə bilər"



Səhifə ⇨ 9

## Virtuozların Qəbələ performansı



Səhifə ⇨ 10

## "Gələcəyin yanacağı" – hidrogen




Səhifə ⇨ 7

## Su qıtlığından çıxış yolu ehtiyatları qorumaq və qənaətdir



Səhifə ⇨ 8

## Ukrayna: hər gün uşaqlar öldürülür



Səhifə ⇨ 11

# Azərbaycan – İtaliya tərəfdaşlığı səmərəli layihələr müstəvisində

## Prezident İlham Əliyev İtaliyanın “Leonardo” şirkətinin direktorlar şurasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də İtaliyanın “Leonardo” şirkətinin direktorlar şurasının sədri Stefano Pontekorvonu qəbul edib.**

Stefano Pontekorvo İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloni və müdafiə naziri Quido Krosettonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Nazirlər Şurasının Sədrinə və müdafiə nazirinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla İtaliya arasında səmərəli tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, hərbi və mülki sahələrdə dünyanın ən qabaqcıl şirkətlərindən biri olan “Leonardo” şirkəti ilə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, İtaliyanın müdafiə məhsulları istehsal edən ən böyük şirkəti olan “Leonardo”nun mülki sektorda da maraqlı texnologiyaları, o cümlədən “Smart city” texnologiyası, süni peyk istehsalı və aerokosmik xidmətlər, böyük şəhərlərin nəqliyyat sistemlərinin idarəedilməsi də var. Şirkətin rəhbər şəxsləri bu sahələrdə də ölkəmizə faydalı ola biləcək əməkdaşlıqla bağlı təşəbbüslərini ifadə etdilər.

***AZƏRTAC***

# Təxribatçı himayədar

**Yaxın gələcəkdə Avropa İttifaqının Ermənistan üzrə missiyasının genişlənməsi nəzərdə tutulur. Bu bəyanatla missiyanın rəhbəri Markus Ritter çıxış edib. Markus qeyd edib ki, Qafanda missiyanın funksional mərkəzi artıq fəaliyyətə başlayıb. Bütövlükdə, missiyanın Ermənistan ərazisində 6 əməliyyat bazasını yaratmaq niyyətində olduğunu bildirən Markus bu prosesin bölgədə sülh və təhlükəsizliyə töhfə verəcəyini vurğulayıb.**



Avropa İttifaqı missiyasının genişlənəcəyi xəbəri Ermənistanda böyük sevinclə qarşılanıb. Gözlənilən yeniliklə bağlı mətbuata açıqlama verən Sünik vilayətinin qubernatoru Robert Qukasyan missiyadan gözləntilərinin böyük olduğunu bildirib. Qukasyan ümid etdiyini bildirib ki, Avropa İttifaqı missiyasının genişlənməsi Azərbaycan üçün çəkindirici təsirə malik olacaq, sərhəd bölgələrinə sülh və sabitlik gətirəcək.

Robert Qukasyanın açıqlamasından göründüyü kimi, ermənilər Avropa İttifaqı missiyasının Ermənistan ərazisində genişlənməsini Azərbaycana qarşı ciddi mübarizə vasitəsi – keçilməz sipər hesab edirlər. Ermənilərin fikrincə, Avropa İttifaqı missiyasının bölgədə mövcudluğu onlara Azərbaycana qarşı terror və təxribat siyasətini daha rahat ortamda davam etdirmək imkanı verəcək.

Doğrudanmı, Avropa İttifaqının bölgəyə gəlişində əsas məqsəd Ermənistanı müdafiə etməkdir? Ermənistanın Avropa İttifaqı missiyasının çətiri altında Azərbaycana qarşı rahat şəkildə təxribatlar həyata keçirməsi, cəzasız qalması mümkündürmü?

### Yalan deməyə nə var?

Ermənistan hakimiyyətinin özünə və sadə ermənilərə dediyi ən böyük yalan Avropa İttifaqının bölgəyə erməniləri müdafiə etmək məqsədi ilə gəlməsi ilə bağlıdır. İrəvan həm özünü, həm də erməni toplumunu inandırmağa çalışır ki, Avropa İttifaqı missiyasının bölgəyə gəlməkdə yeganə məqsədi erməniləri himayə etmək, onların terror və təxribatına bəraət qazandırmaqdır.

Halbuki, missiyanın bölgəyə Ermənistan üçün deyil, Avropa İttifaqının öz maraqları konteksində gəldiyi kimsəyə sirr deyil. Avropa İttifaqı onu bölgəyə dəvət edən Ermənistanın çağırışına Rusiyanı Cənubi Qafqazdan çıxarmaq, bu ərazidə Qərbin maraqlarını etibarlı şəkildə müdafiə etmək baxımından fürsət kimi qiymətləndirməkdədir. Missiyanın Ermənistandakı mövcudluğu Cənubi Qafqazdan Rusiyanın sıxışdırılıb çıxarılması, Qərbin bölgəyə gəlişi ilə yanaşı, İran və digər region dövlətləri ilə münasibətlər baxımından da mühüm önəm kəsb edir. Avropa İttifaqı missiyası bölgədə Rusiya ilə yanaşı, həm də İranın təsirinin maksimum zəiflədilməsinə çalışacaq ki, bu da Qərbin ənənəvi maraqlarına uyğundur. Ən əsası, missiyanın bölgəyə gəlişi Ermənistanın tarixi və ənənəvi himayədarı olan Rusiyanın təsir dairəsindən qeyd-şərtsiz çıxairlması, İrəvanın siyasi baxımdan müstəqilləşməsi demək deyil. Bu, sadəcə olaraq, Ermənistanın sahibini dəyişməsi deməkdir. Başqa sözlə desək, Ermənistan bundan sonra da nökər funksiyasını yerinə yetirməkdə davam edəcək. Sadəcə, bundan sonra, o, bu xidməti Rusiyaya deyil, Avropa İttifaqına göstərəcək.

Rusiyanın bölgədən asanlıqla getməyəcəyi, lazım gələrsə, öz mövcudluğunu qorumaq üçün hərbi vasitələrə əl ata biləcəyini nəzərə alsaq, Ermənistan üçün vəziyyətin yaxın gələcəkdə ikiqat mürəkkəbləşəcəyi istisna deyil. Rusiya hansısa şəkildə bölgədəki mövcudluğunu davam etdirəcəyi təqdirdə Ermənistanın bir deyil, iki sahibi olacaq ki, bu da İrəvanın iki fərqli ağaya eyni vaxtda nökərçilik etmək zorunda qalacağı deməkdir.

### Təxribatlara sərt cavab veriləcək

Ermənistan siyasi rəhbərliyinin açıqlamalarından bəlli olur ki, rəsmi İrəvan Avropa İttifaqı missiyasını Azərbaycana qarşı əsas sipər hesab edir. İrəvanın qənaətincə, missiyanın bölgədə mövcudluğu fonunda Ermənistanın Azərbaycana qarşı cəsarətlə militarist siyasət yürütməsi mümkündür. Ancaq İrəvan bütün digər məsələlərdə olduğu kimi, bu məsələdə də yanılır. Azərbaycan Avropa İttifaqı missiyasının bölgədə mövcudluğu fonunda belə erməni təxribatlarına sərt reaksiyalar verib ki, bu da rəsmi Bakının kimsədən çəkinmədiyini, öz təhlükəsizliyni təmin etmək üçün lazımi qətiyyəti sərgiləməyə qadir olduğunu göstərir. Bu baxımdan, bölgədə Rusiya sülhməramlılarının, yaxud Avropa İttifaqı missiyasının mövcudluğundan asılı olmayaraq, Azərbaycanın bundan sonra da erməni təxribatlarının qarşısını əzmlə alacağı birmənalıdır. Nə ermənipərəst dairələrin verdiyi bəyanatlar, nə də İrəvan və havadarlarının təhdid dolu mesajları Azərbaycan üçün əngəl sayıla bilməz. Azərbaycan terror və separatizmə qarşı mübarizədə sona qədər prinsipiallıq sərgiləməkdə israrlıdır və bütün dünya bundan sonra da bunun şahidi olacaq.

***Seymur ƏLİYEV***

# Fransa portalında Şuşadan reportaj

**Fransanın “Musulmans en France” portalı Azərbaycanın Qarabağ bölgəsi, o cümlədən Şuşa ilə bağlı reportaj yayımlayıb.**

Azərbaycanın Rus İcması sədrinin birinci müavini, siyasi icmalçı, CBC telekanalının müxbiri Anastasiya Lavrina tərəfindən dünyaşöhrətli fotojurnalist Rza Deqati ilə birlikdə hazırlanan reportajda birinci müharibədən sonra Azərbaycanın Qarabağ bölgəsində, o cümlədən Şuşada ermənilər tərəfindən törədilmiş kütləvi dağıntılar və talanlar barədə danışılır, şahid ifadələrinə geniş yer verilir.

Reportajda 2020-ci ildə 44 günlük müharibədə azad edilən Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı olduğu bildirilir. Qeyd olunur ki, Şuşanın azad edilməsi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun keçirdiyi uğurlu döyüşlərin nəticəsidir. Şuşa şəhərinin azad olunması ilə Azərbaycanın ərazi bütövlüyü bərpa edilib.

Süjetdə, həmçinin Şuşanın tarixi haqqında məlumat verilir.

Anastasiya Lavrina və Rza Deqati Birinci Qarabağ müharibəsinin iştirakçısı, Azərbaycanın Milli Qəhrəmanı, 1992-ci ildə Şuşa özünümüdafiə batalyonunun yaradıcısı Ramiz Qəmbərovun ailəsində olub. Milli Qəhrəmanın qardaşı Hafiz Qəmbərov və digər yaxınları onunla bağlı xatirələrini bölüşüblər. Bildirilib ki, R.Qəmbərov Şuşanı bütün qəlbi ilə sevirdi və doğma şəhəri uğrunda son nəfəsinə qədər döyüşdü. Hafiz Qəmbərov Şuşada olan evlərinin dağıntıları qarşısında göz yaşlarını saxlaya bilmir, başlarına gələnləri nəql edir. Bildirir ki, 1992-ci ildə şəhər işğal olunanda bütün əhali mal-mülkünü qoyaraq şəhəri tərk edib.

Reportajda Rza Deqati də şəxsən tanıdığı Ramiz Qəmbərovla son görüşü barədə xatirələrindən danışır. Qeyd edir ki, 1992-ci ilin aprelində Şuşa mühasirəyə alınanda o, Ramiz Qəmbərovla çay süfrəsində bir şəkil çəkib və onu “Şuşada sonuncu çay” adlandırıb. Sonradan bu şəkil nəinki Azərbaycanda, bütün dünyada ən məşhur fotolardan birinə çevrilib.

Rza Deqati Ramiz Qəmbərovun qəhrəmanlığından da danışıb. Bildirib ki, o, Şuşadan çıxmayacağını, şəhəri müdafiə edəcəyini və son damla qanına qədər döyüşəcəyini deyib, həyatda olduğu müddətdə buradan heç bir düşmənin keçə bilməyəcəyini qeyd edib. R.Deqati Ramiz Qəmbərovun çox zarafatcıl biri olduğunu, yoldaşları ilə daim deyib-güldüyünü bildirib.

Süjetdə, həmçinin diqqətə çatdırılıb ki, işğal illərində Şuşadakı məscidlər, tarixi və mədəniyyət abidələri dağıdılıb, tanınmış şəxsiyyətlərin, o cümlədən Natəvanın, Üzeyir Hacıbəyli və Bülbülün büstləri vandalizmə məruz qalıb və satılıb. Yalnız Şuşa azad edildikdən sonra həmin heykəllər əvvəlki yerinə qaytarılıb.

Sonda vurğulanıb ki, Şuşa uğrunda canlarını qurban verən şəhidlərin ruhu bu gün şaddır. Çünki onların uğrunda canlarından keçdiyi Şuşa bu gün azaddır.

***“Xalq qəzeti”***

# FHN-in Akademiyasının məzunları vəzifələrə təyin olundu



**Avqustun 3-də Fövqəladə Hallar Nazirliyində FHN-in Akademiyasını bitirən məzunların Nazirlik sistemində mövcud müvafiq vakant vəzifələrə püşkatma yolu ilə təyinatı olub.**

Nazir Kəmaləddin Heydərov zabit rütbəsinə layiq görülərək püşkatma yolu ilə vəzifələrə təyin olunan gəncləri təbrik edib, onlara peşəkar fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra 2023-cü ildə Fövqəladə Hallar Nazirliyinin Akademiyasında əyani təhsili bakalavriat səviyyəsində başa vuran 100 məzun və magistratura səviyyəsində başa vuran 15 məzun vakant vəzifələrin yer aldığı qapalı zərfləri çəkməklə püşkatma yolu ilə FHN sistemində müxtəlif vəzifələrə təyin ediliblər.

***“Xalq qəzeti”***

# MEDIA Şuşa Forumu ilə bağlı kampaniyanı pisləyib

**Medianın İnkişafı Agentliyi Şuşada keçirilmiş “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Qlobal Media Forumunun iştirakçılarına qarşı sosial şəbəkələrdə aparılan təhdid kampaniyası ilə bağlı bəyanat yayıb.**




Bildirilib ki, Forumun keçirilməsində məqsəd, az qala, işıq sürəti ilə yeniləşən, texnoloji innovasiyalara şahidlik edən dünyamızda insanlara ictimai əhəmiyyətli xəbərlər verən jurnalistikanın gələcək inkişaf istiqamətlərini müzakirə etmək olub. Lakin təəssüflər olsun ki, onun mahiyyətini bilərəkdən siyasiləşdirməyə çalışan Ermənistan hökuməti və ona yaxın dairələr öz məhdud merkantil maraqlarından çıxış edərək bu mötəbər tədbirdə iştirak etmiş yüksək səviyyəli ekspertlər, beynəlxalq ictimai rəydə nüfuza malik olan jurnalistlər haqqında sosial şəbəkələrdə qarayaxma və nifrət kampaniyası aparır, onların reputasiyasına kölgə salmağa cəhd edərək media etikası ilə heç bir halda uyuşmayan mövqe sərgiləyirlər.

“Biz Medianın İnkişafı Agentliyi olaraq Azərbaycan jurnalistləri adından belə qarayaxma kampaniyasını pisləyir, bunu azad sözə və jurnalistikaya qarşı terror kimi qiymətləndirir, peşəkar prinsipləri rəhbər tutaraq keçirilmiş və yalnız müasir medianın problemlərinə, inkişaf perspektivlərinə həsr olunmuş Forumun nifrət nitqinə alət edilməsinin yolverilməz olduğunu bəyan edirik”, – deyə bəyanatda qeyd olunur.

***“Xalq qəzeti”***

# Amerikalı jurnalistlər Quba Soyqırımı Kompleksində



Azərbaycanda səfərdə olan bir qrup amerikalı jurnalist və media eksperti avqustun 3-də Qubada dağ yəhudilərinin yığcam şəkildə məskunlaşdığı Qırmızı Qəsəbə və Quba Soyqırımı Memorial Kompleksində olublar.

Diasporla İş üzrə Dövlət Komitəsinin xətti ilə ölkəmizə gələn amerikalı jurnalistlər Qırmızı Qəsəbədəki sinaqoqlar və Ümumdünya Dağ Yəhudilərinin Tarix-Etnoqrafiya Muzeyi ilə tanış olublar. Qonaqların diqqətinə çatdırılıb ki, Qırmızı Qəsəbə dünyada İsraildən sonra yəhudilərin ən yığcam yaşadıqları nadir məkandır. “Qafqazın Yerusəlimi” adlandırılan qəsəbədə məskunlaşan yəhudilər uzun illərdir öz adət-ənənələrini yaşadırlar.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı isə amerikalı jurnalist və media ekspertləri ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıb. Bildirilib ki, kütləvi məzarlıq 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı nəticəsində yaranıb və uzun illərdən sonra ərazidə baş vermiş uçqun zamanı aşkar edilib.

***“Xalq qəzeti”***

# Dövlət informasiya sistemində təhlükəsizlik nöqsanları

**Bu ilin 1-ci yarımilində Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən dövlət qurumlarında aparılan audit yoxlamaları və monitorinq nəticəsində 373 dövlət informasiya sistemində təhlükəsizlik boşluqları və nöqsanları aşkar edilib, audit hesabatları hazırlanıb, tövsiyələrlə bərabər aradan qaldırılması üçün müvafiq qurumlara təqdim edilib.**




Qeyd edilib ki, 2022-ci ilin eyni dövrü ərzində dövlət qurumlarında aparılan audit/pentest yoxlamaları və monitorinqlər nəticəsində 221 dövlət informasiya sistemində təhlükəsizlik boşluqları və nöqsanları aşkar edilərək müvafiq qurumlara xəbərdarlıqlar edilib.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin CERT Mərkəzi tərəfindən 2014-cü ildən istifadəyə verilmiş “elektron sorğu sistemi” vasitəsilə dövlət qurumlarından 1-ci yarımil ərzində 3650 sorğu qəbul edilərək zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib.

***“Xalq qəzeti”***

# Diplomatik və psixoloji savaşın müzəffər sərkərdəsi

## Dövlətimizin başçısının dünya birliyi ilə birbaşa dialoqu: dünəndən bu günə

*(əvvəli 1-ci səhifədə)*

Müharibədən ötən iki il yarımdan da artıq bir müddətdə Ermənistan hakimiyyəti və ermənipərəstlər, ilk növbədə, media amilindən faydalanaraq, beynəlxalq ictimaiyyətə Azərbaycanın mənfi imicini aşılamağa başladılar. “Prosesə” dünyanın aparıcı kütləvi informasiya vasitələrini qoşdular. Çalışdılar ki, media Azərbaycan əleyhinə qəbul olunması planlaşdırılan hüquqi sənədlər üçün mənəvi mühit formalaşdırsın. Beləcə, beynəlxalq hüququn norma və prinsiplərinin interpretasiyasına girişildi. İndi də eyni “kurs” davam etdirilməkdədir və yenə də media amilindən istifadə olunmaqdadır.

***

44 günlük müharibənin ilk günlərini xatırlayaq. O vaxt beynəlxalq ictimai rəyə təsir göstərən kütləvi informasiya vasitələri, ayrı-ayrı jurnalistlər elə təəssürat formalaşdırırdılar ki, sanki Azərbaycan işğalçıdır. Qanlı qarşıdurmanın ölkəmizin ərazisində getdiyinin fərqinə varan, demək olar ki, yox idi. Saxta sentimentallıq havasına köklənmiş bəyanatlar Bakını humanist dəyərlərə hörmətlə yanaşmağa çağırırdı. Beləliklə, beynəlxalq ictimai rəy yanlış yönləndirilirdi.

Lakin günlər keçdikcə biz bu mənfi tendensiyada tədrici dəyişikliklərin yarandığına şahidlik etdik. Azərbaycanın dirənişi fonunda ölkəmizə qarşı köklənmiş qüvvələr sanki yoruldular, emosiyaları bir kənara qoyaraq düşünməyə başladılar. Gördülər ki, əslində işğalçılıq edən Ermənistanın özüdür. Ancaq, demək olmaz ki, bu düşüncə heç də yalnız kimlərinsə Bakının dirənişi və qətiyyəti sayəsində yorğun, çarəsiz duruma düşməsinin məhsulu kimi meydana çıxdı.

Bəli, 44 günlük müharibə dönəmində Azərbaycan cəmiyyəti kimi, media orqanları da mütəşəkkillik nümayiş etdirdilər. Qarabağ həqiqətlərini, işğal reallıqlarını dünyaya daha sistemli və ardıcıl şəkildə çatdırdılar. Ancaq bu məqamı xüsusi vurğulamağa ehtiyac var – Vətən müharibəsi günlərində Azərbaycanın informasiya blokadasının aradan qaldırılmasında başlıca rolu o oynadı – Azərbaycan Prezidenti cənab İlham Əliyev.

***

Dövlətimizin başçısı müharibə müddətində dünyanın 30-dan artıq media orqanına müsahibələr verdi. Bu müsahibələr ölkəmizin liderinin beynəlxalq aləmlə birbaşa kommunikasiyası idi. Prezidentə ünvanlanmış bəzi suallar bu kommunikasiyanın nə qədər çətin və ağır proses olduğunu da sübuta yetirdi. Bəzən suallar bütün jurnalistika prinsiplərinə meydan oxuyacaq tərzdə verilsə də, ölkəmizin lideri təmkinini pozmadı, böyük ustalıqla onları cavablandırdı.

Cənab İlham Əliyev özünün ritorik yanaşmaları, faktoloji arqumentləri ilə həmin müsahibələrin məzmununa təsir göstərdi, nəticədə Azərbaycan əleyhinə formalaşdırılmalı olan anti-təbliğat həqiqətlərimizin təşviqi vasitəsinə çevrildi. Məsələyə bu baxımdan yanaşsaq, 44 gün müddətində 30-dan artıq müsahibənin necə böyük təsir qüvvəsinin olduğunun əlavə isbata ehtiyacı yoxdur. Mövcud səbəblərdən də qətiyyətlə söyləmək olar ki, Prezident İlham Əliyev müharibənin informasiya cəbhəsində təkbaşına döyüşdü.

***

Bu gün də əminliklə söyləyə bilərik ki, dövlətimizin başçısı 44 günlük müharibədən sonra, bütövlükdə, Cənubi Qafqaz coğrafiyası müstəvisində yaşanmaqda olan diplomatik və psixoloji savaşın müstəsna informatoru rolunda çıxış etməkdədir. Bu missiya isə obrazlı desək, cənab İlham Əliyevin erudik dünyagörüşünün siyasi çalarlarına tam şəkildə işıq salmaqdadır. O işıqda canlanan mənzərənin adı isə güclü və qüdrətli Azərbaycandır.

Bəli, yalnız cəmiyyətimiz deyil, bütövlükdə dünya ictimaiyyəti Prezident İlham Əliyevin müsahibələrində, ayrı-ayrı media orqanlarının nümayəndələri ilə təmaslarında qüdrətli, güclə düşüncə arasında düzgün balansı götürməyi bacaran Azərbaycanın əsl böyüklük obrazına şahidlik edir. Bu şahidlik ölkəmiz əleyhinə olan fikirləri dəyişdirir, onları obyektiv məcraya salır. Nəticə etibarilə, dürüst beynəlxalq rəy formalaşır. Daha doğrusu, beynəlxalq ictimai rəy Ermənistanın və ermənipərəstlərin monopolisiyasından çıxaraq, bir növ, cilalanır, obyektivliyə, həqiqətlərə köklənmə imkanı qazanır.

***

Xarici media orqanları ilə təmaslardan söz düşmüşkən, yada salaq ki, Azərbaycan Prezidenti 44 günlük müharibədən sonra ölkəmizdə düzənlənmiş müxtəlif mövzulu beynəlxalq miqyaslı toplantılarda dünyanın nüfuzlu ekspertləri ilə yanaşı, tanınmış kütləvi informasiya vasitələrinin təmsilçilərinin də suallarını ətraflı cavablandırması ilə yadda qalıb. Bəzən sual-cavabların saatlarla çəkdiyini də görmüşük. Onu da görmüşük ki, iştirakçılar toplantıların bitməsini istəmir, Azərbaycan Prezidenti ilə mükalimələrdən zövq alırlar. Nəzərə alaq ki, onlar üçün cənab İlham Əliyevlə ünsiyyət bir tərəfdən Azərbaycan və Cənubi Qafqaz reallıqları ilə bağlı geniş məlumatlanmaq fürsətidirsə, digər yandan bu təmas, bütövlükdə, müasir dünya düzəninin,



qlobal transformasiyaların xüsusiyyətləri barədə bilgilər qazanmaq şansıdır.

Bəli, Azərbaycan Prezidentinin dünyanın aparıcı media və ekspert cameəsi ilə müsahibələri, görüşləri yekun nəticədə ölkəmizin dünya birliyi ilə birbaşa kommunikasiyası, mükalimənin açıqlığı və sərbəstliyi baxımından son dərəcə müstəsna amildir. Mövcud kontekstdən yanaşsaq, ən azı “Euronews” telekanalına müsahibə qədər mühüm əhəmiyyət daşıyan Şuşa Qlobal Media Forumunu da vurğulamalıyıq. Nəzərə alaq ki, iyulun 21-23-də keçirilmiş forumda dünyanın yüzdən artıq jurnalisti iştirak edirdi. Onu da nəzərə alaq ki, belə bir toplantının təşkili ideyasının müəllifi də dövlətimizin başçısının özüdür. Prezident İlham Əliyevin tapşırığına əsasən “Heydər Əliyev İli” çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilmiş tədbir media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlərin əsl müzakirə meydanına çevrildi. Dünyanın tanınmış və nüfuzlu media rəhbərləri, ekspertləri rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri nəzərdən keçirdilər. Yeri gəlmişkən, bütün bunlar ölkəmizin liderinin Azərbaycan həqiqətlərinin xarici aləmdə təbliği məqsədilə prioritet seçdiyi istiqamətlərin nəzəri və praktik tərəfləri kimi diqqət çəkməkdədir.

***

Bəli, Azərbaycan Prezidenti həmişəki kimi, birbaşa kommunikasiyaya getməkdə, bütün məsələlər üzrə ölkəmizin mövqeyini açıq şəkildə bəyan etməkdə təşəbbüskardır. Bu təşəbbüskarlıq isə heç şübhəsiz, haqqın göstəricisidir. Azərbaycan haqlı olduğu üçün heç nədən, heç bir diskussiyadan və müzakirədən çəkinmir.

Əlbəttə, diskussiyalara və müzakirələrə ehtiyac duyduğumuzu da vurğulamalıyıq. Mövcud anlamda cənab İlham Əliyevin Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlərə diqqət yetirək: “Bu gün isə biz yenə də öz həqiqətlərimizi sübut etməyə məhkumuq. Çünki bizə qarşı bu gün yenə də kampaniya davam edir. Bizim Qələbəmizi həzm edə bilməyən, uğurlarımıza qısqanclıqla yanaşan, bizə qarşı açıq informasiya savaşına çıxanlara biz tutarlı, real arqumentlərlə cavab verməliyik və veririk. Məhz bunun nəticəsidir ki, bu gün bütün bu iftiralara, böhtanlara, yalanlara baxmayaraq, Azərbaycanın sözü, Azərbaycan xalqının, dövlətinin haqlı səsi eşidilir və bunun əsas aləti bizim media resurslarımızdır”.

***

Belə bir deyim də var ki, informasiya müharibəsi doğruya bürünmüş yalanın, yalana bürünmüş doğrunun qarşıdurmasıdır. Bu, həmin müharibənin sərt təbiətinə verilmiş təriflərdən biridir. Nəzərə alsaq ki, mövcud trayektoriyada insan, daha doğrusu, şəxsiyyət amili əsas rol oynayır, o zaman həmin şəxsiyyətin özünə əminliyi də başlıca şərtdir. Hər halda əbəs yerə bildirilmir ki, başqalarını inandırmaq üçün ilk növbədə özün-özünə inanmalısan.

Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrində, media təmsilçiləri ilə təmaslarında informasiya müharibəsinin sərt xarakterinə adekvat olaraq doğru, dürüst baxışlarını konseptual əsaslarla çatdırır və faktiki olaraq info-savaşın klassik deyimlərdəki mahiyyətinə alternativ qismində özünün şəxsi keyfiyyətlərindəki səmimiyyəti, prinsipiallığı, iradəni və əzmi ortaya qoyur. Bütün bunlar Ermənistan rəhbərliyinin anti-Azərbaycan təbliğatına, ümumən Cənubi Qafqazda sülh və əminamanlığın qərarlaşmasını istəməyən qüvvələrə qarşı mübarizənin mühüm əhəmiyyət daşıyan ideoloji bazasıdır. Əminliklə söyləyə bilərik ki, bu bazanı formalaşdıran və təkmilləşdirən də məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevdir.

***Əvəz RÜSTƏMOV,***
***“Xalq qəzeti”***

---

# Paşinyanın növbəti “münəccim”liyi

**Ermənistan baş naziri Nikol Paşinyan, necə deyərlər, ağzını açıb, gözünü yummaqla məşğuldur. O, ölkə hökumətinin dünən keçirilmiş iclasındakı çıxışında bildirib ki, Azərbaycan Ermənistana qarşı ərazi iddiası irəli sürməyə cəhd göstərir.**

Paşinyanın belə “münəccim”liyinin, əslində, nə ilə bağlı olduğunu müəyyənləşdirmək o qədər də çətin deyil. Məsələ burasındadır ki, erməni baş nazir ölkəsinin, eləcə də dünya erməniliyinin və ermənipərəst qüvvələrin anti-Azərbaycan ritorikasını körükləmək istəyir. Ancaq məsələ yalnız bunda da deyil...

Qeyd edək ki, Paşinyanın Azərbaycanın Ermənistana ərazi iddiası irəli sürmək istədiyini bildirməsi heç də indinin söhbəti deyil. Görünür, baş nazir ölkəmizin bütün davranışlarını mövcud xüsusda izah etmək potensialını özündə, kifayət qədər, ciddi bəsləyib. Ona görə hər fürsətdə belə sarsaq fikirləri səsləndirməyə öyrəncəlidir.

***

Sarsaqlıqdan söz düşmüşkən, Nikol təbiətinə hakim kəsilmiş bu xüsusiyyətini daha qabarıq şəkildə Ali Avrasiya İqtisadi Şurasının bu il mayın 25-də Moskvada keçirilmiş geniş tərkibdəki iclasında ortaya qoymuş və gülünc vəziyyətə düşmüşdü. Paşinyan toplantıya qonaq qismində qatılmış Prezident İlham Əliyevin söylədiklərinə münasibət bildirərkən, demişdi ki, Azərbaycanın dövlət başçısı çıxışında son illər Ermənistana qarşı ərazi iddialarının irəli sürülməsinə əsas verən ifadədən istifadə edib.

Məlum olduğu kimi, ölkəmizin lideri sözügedən tədbirdə Zəngəzur dəhlizinin perspektiv iqtisadi faydalarından söz açmışdı. Əlbəttə, cənab İlham Əliyevin Nikola cavabı da tutarlı olmuşdu: “Mən, əlbəttə, diskussiya açmaq istəmirəm. Lakin Ermənistana qarşı ərazi iddialarımızın olması barədə ittihamlar səsləndiriyinə görə demək istəyirəm ki, bizim belə iddialarımız yoxdur. Mənim sözlərimdə ərazi iddialarının olmasını görmək üçün xüsusi canfəşanlıq etmək və ya güclü fantaziyaya malik olmaq lazımdır. Mənim istifadə etdiyim “dəhliz” sözünə gəldikdə, o zaman mən bu kəlməni dəqiq olaraq “Şimal–Cənub” dəhlizinə münasibətdə də işlətmişəm, bu söz elə həmin dəqiqliklə “Şərq–Qərb” dəhlizinə münasibətdə də istifadə olunur. “Dəhliz” sözü heç də kiminsə ərazisinə göz dikmək demək deyil. Bu, beynəlxalq termindir və düşünürəm, beynəlxalq terminologiya ilə tanış olan insanlar, yəqin ki, ona bu gün Ermənistanın baş naziri kimi məna verməzdilər”.

***

Bəli, Azərbaycan Prezidentinin təbirincə desək, Nikol Paşinyan yenə fantaziyasını işə salaraq, “canfəşanlıq” etməkdədir. O, fikrini Laçın yolunun bloklanması və Qarabağda humanitar böhran kimi qondarma məsələlərə yönəldərək bildirib ki, ölkəsinin “tır”ları yollarda qalmaqdadır. Daha doğrusu, Laçın–Xankəndi yolunun başlanğıcındakı şərti sərhəddə – Həkəri çayı üzərində qurduğumuz nəzarət-buraxılış məntəqəsinə yaxın zonada.

Əlbəttə, nəzərə alsaq ki, Nikol fantaziyasını işə salaraq, Azərbaycan əleyhinə təbliğat aparmaqda püxtələşib, onun həmin “tır”lardakı yüklərin artıq iyləndiyini və kif atdığını söyləməsi də tam mümkündür. Görünür, baş nazir bunu başqa çıxışlarına saxlayıb. Hələlik isə o deyib ki, rəsmi Bakı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın (Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları – red.) şərtlərini kobud şəkildə pozaraq, yük avtomobillərinin Qarabağa doğru hərəkətini əngəlləyir.

Əlbəttə, Nikola və ya onun komandasındakı kiməsə Ermənistanın sözügedən bəyanatın müddəalarını pozub, qeyri-qanuni hərbi birləşmələri Qarabağdan çıxarmadığını xatırlatmağın heç bir faydası yoxdur. Çünki onlar üçün üçtərəfli razılaşma manipulyasiya vasitəsindən başqa bir şey deyil.

Məsələn, həmin sənəddə Qarabağ ermənilərinin Azərbaycanla təmasında hüquqi mexanizmlərin mövcudluğu barədə heç nə olmadığı halda, hazırda erməni iqtidarı məsələni beynəlxalq müstəviyə çıxarmaq yolunu tutur. Bəyanatda Azərbaycanın digər əraziləri ilə Naxçıvan arasında quru yolunun təmin edilməsi öhdəliyi İrəvan üzərinə qoyulsa da, Ermənistan bundan yayınır. Deməli, Paşinyanın Azərbaycan Prezidentinin fikirlərinə qarşı öz aləmində, guya, arqument qoymaq üçün Zəngəzur dəhlizinə “ilişməsi”, elə üçtərəfli bəyanata qarşı çıxmaq idi. Qayıdaq günümüzə.

***

Paşinyanın Ermənistan hökumətinin iclasında səsləndirdiyi ikinci absurd fikrə diqqət yetirək. Nikol deyir ki, bəs, iyunun 15-də Laçın dəhlizi müstəvisində yaranmış insident zamanı, guya, Azərbaycan Ermənistan ərazisinə bayraq asmağa cəhd göstərib və qarşı tərəf buna imkan verməyib.

Maraqlıdır, Azərbaycanla Ermənistan arasında sərhəd xətti müəyyən olunub ki? Nikol və onun komandası iki ildən də artıq bir müddətdə sərhədlərin delimitasiyası və demarkasiyana mane olursa, erməni baş nazir bu fikri hansı haqla dilinə gətirir? Üstəlik, Azərbaycan ərazisində – Qarabağda qondarma erməni rejiminin bayrağının dalğalandığı yerlər var. Nikolun məntiqi ilə yanaşsaq, ölkəmizin hərbçiləri həmin bayraqların asıldığı əraziləri atəşə tutmalıdırlar. Həm də ona görə ki, baş nazir Qarabağ daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib...

Bəli, hərbi təxribata, yəni Azərbaycan hərbçilərinə açılan atəşə görə Laçın yolu bağlanmalı idi, bu öz yerində. Əgər Nikol bayraq və ərazi məsələsinə belə ciddi önəm verirsə, o zaman gərək, Azərbaycanın Qarabağ ərazisində anti-terror əməliyyatı aparmasına da dözümlü yanaşsın. Axı, yuxarıda vurğuladığımız kimi, bölgədə erməni hərbi birləşmələri qalmaqdadır. Bakı düşünə bilər və düşünür ki, həmin birləşmələr təhlükə mənbəyidir.

***

Maraqlıdır ki, Azərbaycan hərbçilərinin bayraq sancmaq üçün Ermənistan ərazisinə daxil olduğunu iddia edən və buna görə onlara atəş açıldığını deyən Nikol Paşinyan sərhədlərin delimitasiya və demarkasiyasının aparılmadığını vurğulayacaq qədər həyasızlığa da yol verməkdədir. Onun həyasızlığındakı daha bir motiv isə Prezident İlham Əliyevin “Euronews” telekanalına müsahibəsində bildirdiyi fikirlərə reaksiya zəminindədir.

Nikol deyir ki, cənab İlham Əliyev həmin müsahibədə Azərbaycanın Ermənistana qarşı heç bir ərazi iddiasının olmadığını bəyan etməklə yanaşı, Ermənistanla Azərbaycan arasında sərhədlərin müəyyənləşmədiyini diqqətə çatdırıb. Sən demə, Paşinyan bu fikri də ərazi iddiası kimi görməkdədir. Yenə də fantaziya. Həqiqətən, erməni baş nazirin təfəkkürünün mücərrəd güşəsində bəslədiyi səfeh fikirlər bitib-tükənmək bilmir.

***

Digər tərəfdən, Ermənistan baş naziri, deyəsən, sərhədlərin delimitasiyası və demorkasiyasının, bütövlükdə Bakı–İrəvan sülh prosesinin tərkib hissəsi olduğunu unudub. O prosesin ki, İrəvan ondan yayınır. Belədə Azərbaycan lideri nə deməli idi ki? Əslində məsələ heç bunda da deyil. Prezident İlham Əliyev fikirlərində həmişəki kimi, tam haqlıdır. Dövlətimizin başçısının söylədikləri reallıqla səsləşir və beynəlxalq hüquqa uyğundur.

Paşinyan isə, görünür, jurnalist işlədiyi dövrü yada salıb, saxta gündəm yaratmaq təcrübəsindən faydalanmaq qərarına gəlib. Çünki o, dövlətimizin başçısının fikirlərini kontekstdən çıxararaq, təqdim etmək yolu tutmaqdadır. Yəni, aydındır ki, Azərbaycanın Ermənistana ərazi iddiasının olmadığını bildirməklə, Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyasının və demarkasiyasının aparılmadığını vurğulamaq, tamamilə ayrı-ayrı şeydlərdir və bu fikirləri birləşdirib Bakının ərazi iddiasında olduğunu demək üçün nəinki güclü fantaziya qabiliyyətinə maliklik, eyni zamanda, bitib-tükənməyən sarsaqlıq da lazımdır.

***

Baş nazir Paşinyanın sözlərinə görə, Ermənistan və Azərbaycan arasında sərhədlər 1991-ci il Alma-Ata Bəyannaməsi ilə müəyyən edilib və 2022-ci il oktyabrın 6-da Praqada dördtərəfli görüşdə təsdiqlənib: “Görünür, Bakının planı Alma-Ata Bəyannaməsində təsbit olunmuş Ermənistanla Azərbaycan arasında sərhədə etiraz etmək üçün yer buraxan müddəalarla sülh müqaviləsi imzalamaq və sonra demarkasiya və delimitasiya prosesində Ermənistana ərazi iddiaları irəli sürməkdir”.

N.Paşinyan diqqətə çatdırdığımız iqtibasda yer alan fikirləri ilə tipik erməni xislətinə xas xarakterini ortaya qoyur. Söhbət kələkbazlıqdan, fürsətcillikdən gedir. Nəzərə alaq ki, 44 günlük müharibədən sonra, bütövlükdə, Ermənistan diplomatiyasının fəaliyyəti məhz bu iki element üzərində qurulub. Bu gün rəsmi İrəvan cidd– cəhd göstərir ki, Bakı ilə imzalanacaq sülh müqaviləsində Qarabağ erməniləri ilə bağlı ayrıca müddəa yer alsın. Belə bir bəndin mövcudluğu, heç şübhəsiz, həmin ermənilərin Ermənistanla bağının rəsmiləşməsi anlamına gələcəkdir. Bu isə perspektivdə Ermənistana Qarabağ müstəvisində iddia irəli sürmək üçün hüquqi rıçaq verəcəkdir. Deməli, Ermənistan baş naziri öz iqtidarına xas mənfur xarakteri Azərbaycan hakimiyyəti üzərinə transformasiya etmək kimi uşaqsayağı varianta əl atır.

***

Bəli, göründüyü kimi, Nikol Paşinyan və Ermənistan rəhbərliyi, demək olar, hər gün Azərbaycanla sülhdən yayınmaq üçün müxtəlif bəhanələr qondarmaqdadır. Belə yanaşma, əlbəttə, olduqca ziyanlıdır. Həm də ona görə ziyanlıdır ki, ortada qeyri-səmimi mühit formalaşdırır. Əminliklə söyləmək mümkündür ki, Paşinyan ölkə hökumətinin dünən keçirilmiş iclasındakı fikirləri ilə səmimiyyətsizliyinə yeni “motivlər” qazandırmış oldu.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# Moskva sərhəd məsələsinə hansı meyarla yanaşır?

## Kremlin İrəvana və Bakıya ünvanladığı çağırış onun vasitəçilik missiyasına uyğun gəlmir

*(əvvəli 1-ci səhifədə)*

Bəli, sərhəd xətti müəyyənləşmədən münaqişə tərəfləri arasında sülh sazişinin imzalanması qeyri-real görünür. Əslində, istər şərti sərhəd zolağı boyu, istərsə də, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi rayonumuzda separatçı-revanşist dəstənak quldurlarının törətdiyi silahlı təxribatların əsas səbəbi sərhədin delimitasiya edilməməsidir.

### Altıncı görüşün vaxtı bilinmir

Kremlin təşəbbüsü ilə yaradılmış, nəqliyyat kommunikasiyalarının açılması üzrə Azərbaycan, Rusiya və Ermənistan birgə işçi qrupunun bu günədək dörd görüşü reallaşıb. Rusiya Baş nazirinin müavini Aleksey Overçuk Ermənistan tərəfdən Mqer Qriqoryanın, Azərbaycan tərəfdən isə Şahin Mustafayevin iştirakı ilə işçi qrupunun Moskvada gerçəkləşən dörd görüşündə problemin həlli istiqamətində müəyyən irəliləyişin əldə edildiyini açıqlasa da, müzakirələrdə konsensusa gəlmək mümkün olmayıb. Aydın məsələdir ki, iki respublika arasında kommunikasiya xətlərinin açılması birbaşa sərhədin delimitasiyası mərhələsindən keçir. Ötən ay Qazaxdakı şərti sərhəd zolağında görüşən işçi qrupunun üzvlərinin demarkasiya ilə bağlı təmaslarından konkret nəticə hasil olmayıb. Moskvada sonuncu 12 iyul müzakirələrindən sonra üçtərəfli işçi qrupunun altıncı görüşünün nə vaxt və harada keçiriləcəyi hələlik məlum deyil.

Siyasi ekspertlərin bir qismi belə hesab edir ki, növbəti danışıqlarda xəritə məsələsi mühüm rol oynamayacaq. Yəni demarkasiya və delimitasiya prosesi indiki situasiyaya uyğun olaraq həyata keçiriləcək, amma 1975-ci il xəritələrinin əsas götürülməsi Azərbaycanın maraqlarına cavab vermir. Onlar hesab edirlər ki, bu halda rəsmi Bakı hazırda yerləşdiyi ərazilərdən geri çəkilməyə məcbur ola bilər. Azərbaycan heç vaxt buna getməyəcək, çünki o, qalib tərəfdir.

### Əgər hər şey edilsəydi...

Qayıdaq Rusiya XİN-in sözçüsü Mariya Zaxarovanın iki gün bundan əvvəl düzənlədiyi brifinqə. Daha doğrusu, onun həmin brifinqdə "Rusiya regionda Azərbaycan və Ermənistan arasında dayanıqlı sülhə və razılaşmaya nail olunması üçün hər şey edir" – açıqlamasına. Moskva, Zaxarovanın dediyi kimi, doğrudanmı, Bakı və İrəvan arasında dayanıqlı sülhün əldə edilməsi, bölgədə sabitliyin bərqərar olması üçün əlindən gələn hər şeyi edir? Əgər Rusiya XİN-in təşəbbüsü, eləcə də sonuncu dəfə rəsmi dəvəti ilə Moskvada keçirilən zirvə görüşlərində sülh sazişinə doğru hansısa müsbət addım atılsaydı, bu halda suala müsbət cavab vermək mümkün olardı. Düzdür, bu kontekstdə danışarkən M.Zaxarova Rusiyanın iştirakı ilə yüksək səviyyələrdə silsilə görüşlərin keçirildiyini və sülhə nailolma prosesində Moskvanın fəallığının azalmasından söhbətin belə getmədiyini vurğulayıb. Amma, təəssüf ki, hələlik bu istiqamətdə hissediləcək bir irəliləyiş müşahidə etmirik.

"Biz Cənubi Qafqazla bağlıyıq və digər öhdəliklərimizi də yerinə yetiririk", – deyə Kremlin mövqeyini bir daha həm İrəvan və Bakının, həm də kənar aktorların nəzərinə çatdıran XİN rəsmisinin sözlərinə görə, "Rusiya bütün məsələlərin, hətta ən çətin problemlərin həllində tərəflərə konsultativ, ekspert və sənədli yardım göstərməyə hazırdır". Sözdə hər şey qaydasındadır, əməl, konkret işə gəldikdə isə...

### Bakı–Xankəndi dialoquna kim mane olur?

Görünən odur ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiya sülhməramlılarının Qarabağdan getmə müddəti ilə bağlı açıqlaması, eləcə də Ermənistan rəhbərliyinin Qarabağı Azərbaycan ərazisi kimi tanıması Kremlin divarları arasında heç də xoş qarşılanmayıb. Elə sülh danışıqlarının indiki mərhələsində Moskvanın qərbli vasitəçilərlə müqayisədə kifayət qədər səy göstərməməsi müəyyən mülahizələrə yol açır. Xanım Zaxarova Rusiya tərəfindən duyulan bu zəifləməni digər amilləri önə çəkməklə malalamağa çalışır: "Bizim sülhməramlılarımız



mühüm funksiyaları yerinə yetirirlər. Buraya əsirlərin mübadiləsi, minaların təmizlənməsi, insidentlərin tənzimlənməsi və humanitar yardımın göstərilməsi daxildir". Hayastan rəhbərliyinin bir sıra əsas məsələlərdə qeyri-müəyyən mövqe tutduğuna diqqəti yönəldən Rusiya XİN-in rəsmisi İrəvanın siyasi ritorikasının yolverilməzliyi barədə də fikirlərini açıqlayıb: "Sözlərlə hoqqabazlıq yaxşılığa aparmır. Rusiya sülhməramlı kontingentinin yerləşdiyi zonada təhlükəsizliyin ən yüksək səviyyədə təmin edilməsinə töhfə verməsi dəfələrlə qeyd edilib. Bütün bunları şübhə altına almaq cəhdləri yalnız suallar doğurur".

Rusiyanın Xankəndi ilə Bakı arasında dialoqun başlanmasına tərəfdar olduğunu deyən Mariya Zaxarova bu mövzunun tərəflərlə təmaslarda gündəlikdə saxlandığını qeyd edib. Onun sözlərinə görə, Rusiya heç bir ilkin şərt irəli sürmür və o, Qarabağda artan gərginlik fonunda tərəflərin yanaşmalarını bir-birinə yaxınlaşdırmaq üçün ciddi şəkildə çalışır.

Oxuculara xatırladaq ki, martın 1-də Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi, Milli Məclisin deputatı Ramin Məmmədov Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar üzrə məsul şəxs qismində Xocalı şəhərində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin qərargahında Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüşüb. Bu, hələlik, birinci və sonuncu görüşdür. Ardınca Azərbaycan hakimiyyəti erməni icmasını dialoq üçün Bakıya dəvət etdi, amma qarşı tərəf bu təklifdən imtina elədi. Bakının təkrar təklifinə də mənfi cavab verildən sonra təşəbbüslər də kəsildi, dialoq da. Bu "kəsilmə"də əsas maraqlı tərəf kimdir görəsən? Mariya Zaxarova günün ən böyük sualını cavablandırmağa, nədənsə, tələsmir...

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**Yeganə HACIYEVA, politoloq**

– Rusiyanın Azərbaycan və Ermənistan arasında sərhədin delimitasiyası məsələsində spekulyasiyası 44 günlük Vətən müharibəsindən sonra ən çox istifadə etməyə çalışdığı mövzudur. Bəli, delimitasiya və demarkasiya həyata keçirilmədən sülh sazişinin dayanıqlı olması mümkün deyil. Amma, bu, heç bir halda tərəflərin sülh müaqaviləsini imzalaya bilməz anlamına gəlmir. İndi hər şey siyasi iradədən asılıdır və biz bu gün Ermənistan iqtidarında bunu görmürük. Bu fakt hamıdan yaxşı Moskvanın özünə məlumdur.

Ümumilikdə, üçtərəfli bəyanatın şərtlərinin icrasının təşkili və ona nəzarət edilməsi Rusiyanın boynundadır. Həmçinin, üç ölkənin baş nazir müavinləri səviyyəsində fəaliyyət göstərən işçi qrupu 2020-ci il 10 noyabr tarixli Bəyanatın reallaşması istiqamətində yerində sayan, ən az payı olan mexanizmdir. Bu qrupun digər treklərdə də fəaliyyəti qənaətbəxş deyil. Buna görə də Rusiya XİN-in nümayəndəsi Mariya Zaxarovanın iki ölkə arasında sərhədin delimitasiya və demarkasiyası ilə bağlı söylədikləri ilə razılaşmaq olar.

Fəqət, yenə deyirik, bu məsələdə Kremlin spekulyasiya taktikasını da qeyd etmək vacibdir. Çünki xəritələrlə bağlı İrəvandan verilən açıqlamaların birbaşa Moskvanın özündən qaynaqlandığını deyə bilərik. Rusiyanın istər xəritələr, istər sülh danışıqları, istərsə də sülhməramlı kontingentin Qarabağda qalma müddəti yönündə spekulyasiyalarının şahidi olmuşuq. Ermənistanın son aylar şərti sərhəddə törətdiyi sobatajları da Şimal qonşumuzun arxada çevirdiyi oyunların nəticəsi hesab etmək olar.

Əslində, bu, son illər Rusiyanın xarici siyasətində yürütdüyü taktiki gedişlərindən biri kimi də qəbul edilməlidir. Bəli, Kreml üçün Ermənistan-Azərbaycan münasibətlərində müsbətə doğru irəliləyiş maraqlı deyil.

# Ombudsman Vaqif Xaçatryana baş çəkib

**Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Ombudsmanın İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Qrupunun üzvləri sərhədinin Laçın sərhəd-keçid məntəqəsində saxlanılan Vaqif Xaçatryana baş çəkiblər.**

İxtisasca həkim və psixoloq ekspertlərinin də iştirak etdiyi başçəkmə zamanı V.Xaçatryanın müraciəti dinlənilib. O, ilkin tutulma anından ona göstərilən humanist münasibətdən, keyfiyyətli tibbi xidmətdən razılığını bildirib və səhhətində müsbət dəyişikliklər olduğunu qeyd edib. V.Xaçatryan bütün bunlara, eyni zamanda, onunla rəftara, saxlanma şəraitinə, ailəsi ilə əlaqə imkanı yaradıldığına görə Azərbaycan dövlətinə minnətdarlığını bildirib.

Qəbul edilmiş şəxsə hüquqları üzrə müraciət mexanizmləri ilə bağlı öz dilində qanunvericilik aktları və beynəlxalq sənədlər, Ombudsmana və 916 Çağrı Mərkəzinə müraciət imkanlarına dair məlumatlandırıcı nəşrlər təqdim olunub.

# Qərbi Azərbaycan İcmasının BMT Baş katibinə məktubu

**Qərbi Azərbaycan İcması BMT-nin Baş katibi Antonio Quterreşə məktub göndərib.**

Bildirilib ki, İcma A.Quterreşə Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmasını təmin etmək barədə İcmanın dialoq təklifindən Ermənistanın yayınması, qayıdış hüququnu inkar etməsi, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin reinteqrasiyasına mane olan təxribatlar törətməsi barədə məlumat verib və Ermənistan tərəfinin öz öhdəliyini yerinə yetirməsi üçün bu ölkəyə təsir göstərməyə, qayıdış prosesinə yardım etmək üçün Ermənistana BMT-nin xüsusi missiyasını göndərməyə çağırıb.

**Məktubun sonunda deyilir:**

"Zati-alinizdən xahiş edirik ki, BMT-nin Azərbaycandakı nümayəndəsinə sülh və insan hüquqları gündəmimizə aid məsələlərlə bağlı İcmamızla dialoqa başlamaq barədə göstəriş verəsiniz. Biz Ermənistandan zorla qovulmuş azərbaycanlıların iztirablarının və onların geri qayıtmaq hüququnun həllində Sizin həmrəyliyinizə və məsələyə dərin anlayışınıza bel bağlayırıq. Ümid edirik ki, Sizin rəhbərliyiniz altında Birləşmiş Millətlər Təşkilatı Qərbi Azərbaycan İcmasının haqq işinə kömək edəcək və uzun müddətdir davam edən bu problemin həllində bizim dinc dialoq təşəbbüsümüzün tərəfdarı olacaq".

# Separatçılara qucaq açan, kataloniyalılara düşmən kəsilən sinyor Borrell

## Söhbət Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsinin qərəzli fəaliyyətindən gedir

*(əvvəli 1-ci səhifədə)*

Avropanın təhlükəsizlik məsələlərini "kökündən həll edən" sinyor Borrell indi də Azərbaycanın Qarabağ iqtisadi zonasının bir hissəsində məskunlaşan erməni icmasının "humanitar böhran"la üzləşdiyi barədə ənənəvi erməni təbliğatına "züy tutmaqla" məşğuldur. Ona bu barədə "səhih və müfəssəl" məlumatı telefonla Hayastanın xarici işlər naziri Ararat Mirzoyan verib. Erməni təəssübkeşi olan həmsöhbətilə telefon danışığında Mirzoyan onunla regional təhlükəsizlik məsələlərlə bağlı fikir mübadiləsi aparıb. O, Borrellə Meşəli qətliamının günahkarlarından olan Vaqif Xaçatryanın Azərbaycan sərhədçiləri tərəfindən həbs edilməsini "humanitar hüququn kobud şəkildə pozulması" kimi qələmə verib. Bu "hüquq pozuntusuna" qarşı mübarizələrində beynəlxalq birliyin yardıma çağırılmasının vacibliyini qeyd edən Mirzoyan burada sinyor dostunun xidmətindən yararlanmağı da unutmayıb. Ermənistanın baş diplomatı bir az da irəli gedərək, "Dağlıq Qarabağ (?) xalqının hüquq və təhlükəsizliyi məsələlərinin beynəlxalq mexanizm çərçivəsində həllinin vacibliyini" də ispan siyasətçinin diqqətinə çatdırıb. Cavabında Cozep Borrell hay həmkarını "Azərbaycanın Dağlıq Qarabağda (?) etnik təmizləmə aparmağa yönəlmiş hərəkətlərinin qarşısını almaqdan ötrü beynəlxalq arenadakı tərəfdaşları tərəfindən "kəskin" addımların atılacağına" əmin edib.

* * *



Qarabağın erməni əhalisinin Ermənistana gedib-gəlməkdən ötrü təhlükəsiz və rahat Ağdam yolundan deyil, məhz "Laçın dəhlizindən" istifadədə inad göstərmələrinə də məhz bu kontekstdən yanaşmaq lazımdır. Yəni, suveren Azərbaycanın Konstitusiyasına açıq-aşkar zidd hərəkətlərə yol verən ermənilər özlərinə beynəlxalq arenada "müdafiəçilər" axtarışına çıxıblar. Bəs bunu sivil dünyanın hansı dövləti qəbul edər? Bu məsələdə sülhün təəssübkeşi, Aİ Şurasının sədri Şarl Mişelin ofisinin tutduğu mövqe kifayət qədər konstruktivdir. Açıq deyə bilərik ki, məhz onun sayəsində Bakı Qarabağ erməniləri üçün alternativ Ağdam yolu variantının münasib olduğunu beynəlxalq səviyyədə qəbul etdirməyi bacardı. Düzdür, bu variant hələlik İrəvan iqtidarı və Xankəndidəki qondarma rejim tərəfindən qəbul olunmayıb, amma məsələyə Vaşintonun da loyal münasibəti siyasi müstəvidə Azərbaycanın mövqeyini gücləndirən amil sayılmalıdır. Amma həmin Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti adlanan idarəsinin müdiri qurumun ali rəhbərindən fərqli mövqe nümayiş etdirməklə bu qitə təşkilatının nüfuzuna xələl gətirir. Özü Kataloniyadan olsa da, müstəqillik eşqi ilə yaşayan həmvətənlilərinə nifrəti ilə seçilən Borrell indi də, hər şeydən göründüyü kimi, ixtiyar çağında şəxsi marağını güdməklə məşğuldur.

ARAYIŞ: 76 yaşlı Cozep Barrell-Fontelyes Kataloniyada (İspaniya) doğulub. İspaniya Sosialist Partiyasının üzvüdür. 20 iyul 2004-cü ildən 16 yanvar 2007-ci ilədək Avropa Parlamentinin sədri olub. 2019-cu il dekabrın 1-dən Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsidir. 2018-ci il iyunun 7-dən 2019-cu il noyabrın 30-dək İspaniyada Pedro Sançes hökumətində Xarici işlər naziri işləyib.

* * *

Bölgədə cərəyan edən son hadisələrə hüquqi prizmadan yanaşan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri Fərid Şəfiyev Avropanın Qarabağ məsələsində tərəflərə bu gün də ikili standartlarla yanaşmasına diqqəti çəkdi. Beynəlxalq məsələlər üzrə tanınmış eksper hesab edir ki, Qərbin bir çox dairələri işğalçı Ermənistana dəstək nümayiş etdirsə də, Azərbaycan özünün suveren hüquqlarından heç vaxt imtina etməyəcək: "İrəvan üç ildir ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndini yerinə yetirməkdən imtina edir. Bu bəyanat restoranda verilən menyu deyil ki, müştəri ürəyi istədiyi təamı seçsin, istəmədiyindən vaz keçsin. Bu, dəqiq və məqsədyönlü bəyanatdır və onun doqq-



uzuncu bəndində maneəsiz keçiddən danışılır. Ermənilər bu ifadə altında özlərinin pasport rejimli gömrük nəzarətini anladıqlarını bildirirlər. Hətta Laçını da özlərinin suveren ərazisi hesab edirlər. Amma, əslində, tamamilə əksinədir. Məhz Azərbaycanın özünün suveren ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsini yaratmasına beynəlxalq hüquq da mane ola bilməz. İndi avropalı siyasətçilər, o cümlədən rusiyalı ekspertlər də bu məsələdə erməni tərəfinin versiyasını qəbul etməyə üstünlük verirlər. Amma bu, heç nəyi dəyişmir".

Beləliklə, qeyri-rəsmi antrakt elan edilmiş Ermənistan-Azərbaycan sülh danışıqlarının növbəti raundundan əvvəl tərəflərdən biri xarici təsirlərin effekti altında dialoq prosesinə ziyan verə biləcək hərəkət və davranışlar sərgiləyir. Bu zaman İrəvan siyasi şantaj hesab olunan "humanitar böhran", "karvan şou", "etnik təmizləmə" kimi feyk-diplomatiyadan yararlanmağa və bununla da nəyəsə nail olmağa çalışır. Əlbəttə, başlanğıcdan uğursuzluğa düçar olacağı şübhə doğurmayan belə faydasız səylər vaxt itkisindən qeyri bir şey deyil. Hansı siyasi texnologiyaları tətbiq edirlərsə-etsinlər. Bakı hayların və onlara züy tutanların separat fəaliyyətinin qarşısını qətiyyətlə almağa hər an hazırdır.

*İ.HƏSƏNQALA,*
*"Xalq qəzeti"*



# Dövlət əhəmiyyətli xüsusi tapşırıq

*(əvvəli qəzetin 2, 3 avqust 2023-cü il tarixli saylarında)*

Ermənilər bütün cəbhə boyu sakitliyi pozmuşdular. Şahbuz rayonuna edilən hücum nəticəsində Həsən Nağıyevlə, Telman Sadıxov yaralanmışdı. Həsən milis əməkdaşı, Telman müəllim isə könüllü idi. Heydər Əliyev Muxtar Respublika uzrə ən ağır yaralıları müalicə üçün Türkiyəyə göndərdi. Onların arasında Həsən də var idi. Həkimlər onu həyata qaytara bilsələr də, ayağa qaldıra bilmədilər.

Naxçıvan özünün ən ağır günlərini yaşayırdı. İqtisadi böhran bütün sahələrdə hiss olunurdu. Əhali isə Heydər Əliyevin ətrafında sıx birləşmişdi.

Daha acı bir xəbər Qarabağdan gəldi. Bir qəhrəman şəhidimizin cənazəsi Naxçıvana gətirilirdi. Naxçıvan öz şəhidini son mənzilə yola salmağa hazırlaşırdı, böyük bir izdiham var idi. O, Qarabağdan Naxçıvana gələn ilk şəhid idi.

Naxçıvanda elektrik enerjisi fasilələrlə – iki saatdan bir verilirdi. Elektrik enerjisi gələn kimi hamı televizorları açıb, cəbhə xəbərləri ilə maraqlanırdı. Azər İsmət oğlu Tarıverdiyev də televizoru açmışdı. Ekranda Xocalıda baş vermiş, dünyada heç bir yerdə rast gəlinməyən vəhşiliklərin acı səhnələri nümayiş olunurdu. 25 yaşlı gəncin gözlərində yaş qurumurdu. “Kişi olan kəs evdə oturmaz” – deyib, heç kimlə görüşmədən Bakıya, oradan da döyüş bölgəsinə getmişdi. Ana isə “iş qurmaq” adı ilə yola çıxan oğlunu səbirsizliklə gözləyirdi. O vaxtlar məşhur ”Qurtuluş” taborunun tərkibində qısa, lakin şərəfli döyüş yolu keçmiş, şəhidlik zirvəsinə yüksəlmişdi.

Üç il öncə Azərin atası İsmət müəllim rəhmətə getmişdi. Nəinki inşaatçılar, hətta bütün əhali İsmət müəllimi bacarıqlı, işgüzar bir rəhbər, həm də xeyirxah, vətənpərvər bir insan kimi tanıyırdı. Azər evin böyük oğlu idi. Ata əvəzi üç bacıya və bir qardaşa xeyir-dua verib, toylarını edəcəkdi. Lakin Vətən məhəbbəti üstün gəldi, onu şəhidlik zirvəsinə yüksəltdi. Ulu öndər Heydər Əliyev də şəhidin doğmalarına başsağlığı verməyə gəlmişdi.

Heydər Əliyev çox narahat idi. O, “sabaha un ehtiyatımız tükənir, xalqımız çörək problemilə üzləşəcək”, – dedi. Hələ də respublika rəhbərliyi Naxçıvana ögey münasibət bəsləyir, Ayaz Mütəllibov isə “Naxçıvan Azərbaycanın kor bağırsağıdır, onu kəsib atmaq lazımdır” – deyirdi.

İki saatdan sonra Gəncədə Çingiz Sadıxovun yanında idim. Vəziyyəti ona bildirdim. Hökumət telefonu ilə nazir Zakir Abdullayevə zəng edib, Gəncənin fondundan 60 ton unu Naxçıvana verilməsini xahiş etdi. Axşam saat 18.00 radələrində Bakıda olmalı idim. Çingiz müəllimə Mahmud Nəbiyevin vasitəsilə Sumqayıtdan 2000 metr borunun Gəncəyə gətirildiyini bildirdim. Gəncədə maşınqayırma zavodu fəaliyyət göstərirdi. Gingiz müəllim zavodun direktoru Eldar Qarayevə zəng etdi. Ona dedi ki, Naxçıvana təxirə salınmadan 6 ədəd “QRAD” qurğusu hazırlanmalıdır. Sonra isə üzünü mənə tutub dedi ki, əlavə 2 ədəd qurğu da dostum Namiq Həsənova məndən hədiyyədir. Elə həmin gün Maşınqayırma zavodunun direktoru ilə görüşüm oldu. Söhbətimiz iki saata qədər çəkdi. Göndərilmiş borular artıq müvafiq texnoloji ardıcıllıqla emala daxil edilmişdi.

Üç saat ərzində unun daşınması, təyyarəyə yüklənməsi məsələlərini həll etdik. TU-154 tipli sərnişin təyyarəsi ilə üç reysə unu Naxçıvana çatdırdıq. Gecə saat üçdə axırıncı 20 ton unu boşaldıb, Bakıya qayıtdıq.

Saat 04.00 radələrində Eldənizlə Bakı Hava Limanından ayrıldım. Gəncə Aeroportuna çatanda saat 9 idi. Köməkçim Süleyman və əsgərlərimiz Yak-40 təyyarəsinin yanında məndən təlimat gözləyirdilər. Uçmağa hazırlaşırdıq ki, mühafizə xidmətinin rəisi bir nəfər könüllü əsgərin mənimlə görüşmək istədiyini bildirdi. Əsgər özünü təqdim etdi: Akif Səfərov. Atası milis podpolkovniki Mirzəmməd müəllim Naxçıvan Daxili İşlər Nazirliyində atamla bərabər işləmişdi, dost idilər. Akif Qarabağda döyüşlərdə iştirak etmiş, ağır yaralanmışdı. Müalicəsi başa çatmamışdı. Bədəni sarğılı idi. Sonralar Akif bir neçə dəfə əməliyyat olundu. Mən, döyüş və sinif yoldaşları – İbrahim Əliyev, Canpolad Səfərov, Əli Bağırov, Hikmət Əliyev Akifi heç bir zaman tək buraxmadıq. Keçdiyi döyüş yolu bir kitabın mövzusudur. Onu orada tək buraxa bilməzdik. Təyyarədə mərmilərin üzərində Akifi Naxçıvana gətirdik.

Naxçıvandan Gəncəyə gələn sərnişinlər də bizə təmənnasız kömək göstərirdilər. Onların arasında elə vətənpərvərlər var idi ki, günlərlə könüllü surətdə aeroporta gələrək təyyarələrin yüklənməsində yaxından iştirak edirdilər. Həmin şəxslərdən Emin Tağızadənin, Ceyhun Abdullayevin, Niyazi Cəfərovun, İlqar Sadiqovun, Abidinin adlarını xüsusilə qeyd etmək istəyirəm. Gəncəyə qayıdanda şəhər nəqliyyat prokuroru Əli Ömərovla akademik Məmmədtağı Cəfərov onları Naxçıvana aparmağımı xahiş etdilər. Əli Ömərov Azərbaycanın xalq deputatı, eyni zamanda, parlamentdə Xocalı istintaq komissiyasının sədri idi. Heydər Əliyevlə görüşmək istəyirdilər. Görüşü təşkil etdim. Akademik Məmmədtağı Cəfərovun evini bir həftə sonra avtomat silahdan atəşə tutmuşdular. Evinə gedib kömək üçün yardımımı təklif etdim, lakin imtina etdi. Heydər Əliyev prezident seçiləndən sonra Əli Ömərov Azərbaycanın baş prokuroru oldu.

Rusların arasında apardığımız işlər nəticə vermişdi. Bizimlə dost olub, yardımımızdan istifadə etmək istəyirdilər. Təbii ki, müraciət edənləri əliboş buraxmırdıq. Gəncədə müvəqqəti olacaqlarını artıq yəqin etmişdilər. İllər boyu topladıqları şəxsi ev əşyalarını Rusiyaya aparmaq istəyirdilər, ancaq bacarmırdılar. Onlara Dərbəndə qədər ev əşyalarını çatdırmaqda yardım edəcəyimizi bildirdik. Bir polkovnikin əşyaları Dərbəndə çatanda sevincindən bilmirdi ki, necə təşəkkür etsin. Hər cür əməkdaşlığa hazır idi. Yaxın dostları da ona güvənib ev əşyalarını bizə həvalə etmişdilər. Bu tədbirin həyata keçirilməsində Gəncə AXC şəhər şöbəsinin rəhbərliyinin imkanlarından istifadə edirdim. Gecə “Kəpəz” mehmanxanasına gələndə bir nəfərin mənimlə görüşmək istədiyini bildirdilər. Həmin şəxs Surət Hüseynov idi. Yevlaxda yun fabrikinin direktoru, Azərbaycanın xalq deputatı idi.

Təyyarə Naxçıvana rahat eniş etdi. Həmişə olduğu kimi, “Yükü” sənədləşdirib aktla DMMK-nin nümayəndəsinə təhvil verib, komitəyə getdim. Komitənin sədri Elman Abbasovla görüşdük. Ona dedim ki, Gəncədə bir nəfər mənimlə görüşmək istəyir, sizin də o görüşdə iştirakınız məqsədəuyğundur. Surət Hüseynovu qiyabi tanıyırdım, onunla maraqlanmışdım, ancaq görüşməmişdim. Ertəsi gün Elman bəylə Gəncəyə uçduq, Hüseyn Əlizadə ilə görüşüb, Surət Hüseynovun evinə getdik. Bizi səmimi qarşıladı. Evdə təmir işləri gedirdi. Həyətdə divara yaxın təxminən yüz yeşik 7.62 patronları və 20 ədəd zirehli jilet gözümdən yayınmadı. Surət Hüseynov bizi həyətdəki çardağa dəvət etdi. Qonaqları ona təqdim etdim. Mənim haqqımda məlumatı var idi. Ümumi tanışlıqdan, söhbətdən sonra əsas mətləbə keçdik. Ona Naxçıvandakı ağır hərbi, iqtisadi vəziyyətdən, Heydər Əliyevin gördüyü əsas işlərdən danışdım, ermənilərin növbəti hədəfinin Naxçıvan olduğunu bildirdim. Eyni zamanda, respublika rəhbərliyi tərəfindən heç bir köməklik, yardım almadığımızı bildirdim.

Söhbətimiz qarşılıqlı anlaşma şəraitində keçdi. İstədiyimizə nail olmuşduq. Surət Hüseynov Heydər Əliyevə böyük hörmətinin olduğunu, salamlarını ona çatdırmağı xahiş etdi.

Bizi yola salarkən 5.45 və 7.62 patronlarına, zirehli gödəkçələrə ehtiyacımız olduğunu dedim. Həyətdə olan yeşikləri və zirehli gödəkçələri maşına yüklədib aeroporta yola saldıq. Ayrılarkən ona sual verdim ki, Heydər Əliyevi necə tanıyırsınız? Bir anlığa duruxdu. Ondan “Vremya” (Zaman) xəbərlər proqramına baxıb-baxmadığını soruşdum. Dedi ki, baxıram. Ona dedim ki, “Zaman” xəbərlər proqramını beş gün sonra diqqətlə izləsin, verilişdə bir xəbər eşidəcək, onda Heydər Əliyevi, Naxçıvanın əsgərlərini daha yaxından tanıyacaq. “Zaman” (Vremya) xəbərlər proqramı Sovetlər Birliyinin paytaxtı Moskvadan yayımlanan ölkənin birinci kanalının verilişi idi.

Bir həftə sonra Gəncədə Surət Hüseynovla görüşdüm. Əlimi sıxaraq “təbrik edirəm”, – dedi. Soruşdum ki, nə olub? “Vremya” proqramında İrəvanın yaxınlığında bir hərbi bazanın partlamasından məlumat verildiyini dedi. İki gün idi ki, ermənilər yanğını söndürə bilmirdilər...

Surət bəylə isti münasibətlər yaranmışdı. Hətta, Zazalıda ruslara məxsus bir hərbi hissədə də birlikdə olmuşduq. Bir şəhidin ailəsinə birlikdə başsağlığı vermişdik. Beş dəfə bizə kömək üçün müraciətimi yerinə yetirmişdi. Bu münasibət iki aydan çox çəkmədi. Köməkçim Süleymanın dostu Oqtay Baxşəliyevlə xidməti maşınımla Yevlaxa getmişdik. Yun fabrikində gözətçiyə mənim gəldiyimi Surət bəyə çatdırmasını xahiş etdim. Həmişə məni gözlətmədən qəbul edirdi Surət bəy. Bu dəfə yarım saatdan çox gözlədim. Nəhayət, 6 nəfər silahlı mənə yaxınlaşdı, Surət bəyin yaxın qohumu Kəramət məni qəbul etməyəcəyini söylədi. Səbəbini soruşdum, içəri keçmək istədim. Silahlılar qarşımı kəsib imkan vermədilər. Arxamda bir şaqqıltı eşitdim. Avtomobilə əyləşəndə Süleymanla, Oqtay mənim kürəyimdən vurulacağımdan qorxduqlarını dedilər. Kəramət avtomatı kürəyimə tuşlayıb, atəş üçün hazır vəziyyətə gətirmişdi. Aslanlı tayfasından heç kimə kürəyindən güllə dəyməmişdi. Allah məni saxladı. Nə baş verdiyini heç cür anlaya bilmirdim.

Gəncəyə qayıtdım. Ramiz Cahangirovla görüşüm olacaqdı. Bir əməliyyat həyata keçirəcəkdik. Gecə cənub bölgəsinə – Prişibə yola çıxmalı idim. Mənimlə bərabər bir rus polkovniki və podpolkovniki də getməliydi. Onların köməyi ilə bir ədəd tank və bir ədəd BTR-i Gəncəyə gətirmək məqsədimiz vardı. Texnikaları traylerdə gətirəcəkdim. Hər şey hazır idi. Cəlilabaddan Vaqif adlı tanışım bizi QAZ-24 “Volqa” avtomobilində aparacaqdı. Mehmanxanaya təzə gəlmişdim, saat 23.30 idi. Bir az istirahət etmək istəyirdim ki, qapı döyüldü. Təxminən, on nəfər idilər. Başlarında da Kəramət. Yüksək səslə sabahdan Gəncəni tərk etməyimi tələb etdi, sonra dedi ki, bəs sən bilmirsən burada adamları necə yandırıb yox edirlər. Onun sözlərini ciddi şəkildə qəbul etmədim. Mənim vəzifəm vardı. Naxçıvan təhlükə içərisində qalmışdı. Mən Heydər Əliyevin tapşırıqlarını yerinə yetirməli idim. Ölümdən qorxmurdum, dəfələrlə arxamca atəş açaraq, məni minaya salmaq istəmişdilər. Yəni belə hədə-qorxular birinci dəfə deyildi.

“Volqa” maşınımız mehmanxananın dayanacağında dayanmışdı. Saat 03.00-da rus zabitlərini evlərindən götürüb yola çıxdıq. Şəhərin çıxışında trayler bizi müşayiət etməyə başladı. Sürücünün yanında mən, arxada ruslar əyləşmişdilər. Saatda 60-80 km sürətlə gedirdik. Cəlilabada yaxınlaşırdıq, çiskin yağış yağırdı. Sübh açılmışdı. Ruslar mürgüləyirdilər. Yolumuz uzun olduğu üçün Vaqifi söhbətə tutmuşdum ki, yuxulamasın. Birdən mənim önümdəki təkər yerindən çıxdı. Qarşıdan ara-sıra avtomobillər keçirdi. “Volqa” sürüklənməyə başladı, arxamızca gələn trayler bizə yaxınlaşırdı. Avtomobil yolun əks-tərəfinə sürüklənirdi. Vaqif əyləci sıxmışdı. Xoşbəxtlikdən qarşıda avtomobil yox idi, yoxsa birinci məni vuracaqdı. Rusların qorxudan rəngləri ağarmışdı. Mən də qorxmuşdum, namərdcəsinə qurulmuş belə tələdə ölmək istəmirdim. Trayler bizə beş-on metr məsafədə dayandı. “Volqa”ya baxış keçirdik. Vaqif maşının yeni təmirdən çıxdığını dedi. Bütün şübhələr təkərin boltlarının boşaldılması üzərində dayandı. Bunun kimin tərəfindən edildiyi mənə artıq məlum idi. Əməliyyatı başa çatdırıb, rusları sağ-salamat geri qaytarmalı idim. Onlarla görəcək işlərimiz çox idi. Sağ-salamat Gəncəyə qayıtdıq. Səhərisi gün Hüseyn Əlizadəgilə getdim. Saat 20.30-da Heydər Əliyevlə telefonla danışmalı idim. Hüseyn müəllimdən respublikadakı vəziyyətlə bağlı soruşanda o, parlamentdə Azərbaycan xalqının mənafeyinə zidd bir qərarın qəbul edildiyini bildirdi. Ölkəmiz prezident seçkilərinə hazırlaşırdı. Seçkilərdə Heydər Əliyev iştirak etməsin deyə namizədlərə yaş məhdudiyyəti qoymuşdular. 70 yaşdan yuxarı namizədin seçkilərdə iştirakının qarşısı alınmışdı. Parlament Azərbaycan xalqının əleyhinə qərar qəbul etmişdi. Surət Hüseynovun nəyə görə məni qəbul etməməsini, qohumu Kəramətin düşmən münasibətinin səbəbləri artıq mənə məlum oldu. Surət Hüseynovla bir daha görüşmədim.

Təyin olunmuş vaxtda telefona zəng gəldi. Mən telefonun dəstəyini qaldıranda Hüseyn müəllim televizorun səsini kəsdi. Salamlaşandan sonra Heydər Əliyev işlərin gedişi ilə maraqlandı. Hər şeyin qrafik üzrə getdiyini bildirdim. Sabah Naxçıvana gələcəyimi dedim. İki dəfə “gəl, gəl” dedi. Sonra sabaha qədər səngərlərdə döyüşən əsgərlərimizin patronlarının bitəcəyini söylədi. “Avtomobillər saat 10.00-da aeroportda olsun” deyib sağollaşaraq dəstəyi yerinə qoydum. Tükəzban xanım mətbəxə keçmişdi. Süfrəni hazırlamaq istəyirdi. Hüseyn müəllim narahatlığımı hiss etmişdi. “Nə olub?” – deyə soruşdu. Ona “təcili getməliyəm” – deyib evdən çıxdım. Eldəniz qarşı tində məni gözləyirdi. “Polkovnikin evinə sür” – dedim. Ürəyimdə bü gün sarıqulağı öldürəcəyəm düşüncələri ilə polkovniki eşiyə dəvət etdim. İstəyimi ona bildirdim, dedi səhərə qalsın. Hirslə “bu saat istəyirəm” deyəndə, “yük maşının varmı?” deyə soruşdu. “Var” dedim. Gecə yarısı görüş yerini təyin etdik. Oradan ayrılıb Elşənin atası Şubay kişinin evinə getdik. Yatmamışdı. “Heydər Əliyevlə görüşmək istəyirmisən?” – deyə soruşdum. “Əlbəttə” – dedi. Həyat yoldaşı Kifayət xanım “mən də gedəcəyəm” deyə səsləndi. Şubay kişiyə “yük maşınını hazırla və iki nəfər yanına al, bir saat sonra dediyim ünvana gəl” deyib evdən çıxdım. Görüş yerinə 200 metr qalmış Eldənizə “avtomobili saxla” dedim. Ətrafı diqqətlə nəzərdən keçirdim, sakitlik idi. Bir azdan Şubay gəldi. “Motoru söndür “ dedim. Sakitliyi Zil -131 yük maşınının səsi pozdu. Polkovnik maşından enəndə ona yaxınlaşdım. “Yük maşınınız haradadır?”, – deyə soruşanda işarəmlə Şubay yaxınlaşdı. Saat yarım ərzində iki dəfə Şubayın yük maşını dolub, aeroportda boşaldı.

Səhər açılmışdı. Saat 09.00 radələrində Şubay kişi həyat yoldaşı Kifayət xanımla əllərində 2 səbət təyyarəyə mindilər. Səbətlərdə Heydər Əliyevə Gəncə sovqatı aparırdılar. Mənim sovqatım isə səngərlərdə döyüşən qəhrəman əsgərlərimizə 600000 (altı yüz min) ədəd 5.45 və 7.62 çaplı avtomat patronları idi.

Naxçıvan hava limanında bizi səbirsizliklə gözləyirdilər. Əsgərlərimiz təyyarəyə yaxınlaşan böyüklü-kiçikli avtomobilləri yükləyib, cəbhəyə döyüş bölgəsinə yola salırdılar. Adətən, yüklər anbara göndərilirdi. İndi isə vəziyyət belə tələb edirdi. Altı dəfə belə hal baş verdi. Naxçıvan belə qorunurdu, təpədən dırnağadək silahlanmış düşmənin qarşısında əliyalın olsa da, geri çəkilmək, düşmənin qabağından qaçmaq yox idi. Qanları, canları bahasına əsgərlərimiz, polislərimiz, könüllülərimiz, yerli əhali Naxçıvanı qəhrəmancasına qoruyurdular. Onların qarşısında baş əyməmək mümkün deyildi.

Naxçıvan MR Ali Məclisinin mühafizə xidmətinin rəisi İsrafil Əsgərovla görüşüb, ikinci mərtəbəyə qalxdım. Dəhlizdə Heydər Əliyevin köməkçisi ilə görüşdüm. Qoluma girib kabinetinə dəvət etdi. İlk sualı o oldu ki, belə getsə düşmənin qarşısında dayana biləcəyikmi? Ona yaxın zamanda çox ciddi dəyişikliklər olacağını söylədim. Qarabağda gedən şiddətli döyüşlər barədə məlumat verdim.

Söhbətimiz bir saatdan çox çəkdi. Mənə bir mühüm problem olduğunu bildirdi. “Heydər Əliyevin həyatı təhlükədədir” – dedi. O yalnız Heydər Əliyevi düşünürdü. “Nə etmək lazımdır?” – deyə ondan soruşanda təxirəsalınmaz tədbirləri qeyd etdi.

İkinci dəfə idi ki, o, Heydər Əliyevlə bağlı mənə müraciət edirdi. M.S.Qorbaçov Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi vəzifəsinə seçiləndən sonra, Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılaraq istefaya göndərilmişdi. Rus xalqının Heydər Əliyevə böyük rəğbəti olsa da, Qorbaçov ona həsəd aparırdı. Heydər Əliyevi nüfuzdan salmaq üçün ona qarşı mərkəzi qəzetlərdə, o cümlədən, respublikamızdakı rəsmi qəzetlərdə məqalələr dərc etdirirdilər. 1988-ci ildə Heydər Əliyevin uzaq bir qohumu mənə yaxınlaşıb dedi ki, “sən rus dilini yaxşı bilirsən. Moskvaya – Kremlə Heydər Əliyevə qarşı aparılan çirkin iftiralara son qoyulması ilə bağlı bir teleqram göndərə bilərsən?” Qəti cavab verdim ki, nəinki öz adımdan, ətrafımdakı dostlarımın da pasportlarını alıb, onların da adından Heydər Əliyevə qarşı aparılan çirkin iftiralara etiraz teleqramları göndərəcəyəm. Bu kampaniya təkcə Heydər Əliyevə qarşı yönəlməmişdi. Onun yaxınları da təqib olunur, işdən çıxarılırdı. Oğlu İlham Əliyev də işindən uzaqlaşdırılmışdı. Moskvada biznes fəaliyyətilə məşğul olurdu.

**(ardı var)**

***Urfullah QURBANOV,***
***Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 249** **Bakı şəhəri, 29 iyul 2023-cü il**

***"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 sentyabr tarixli 386 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"-də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 may tarixli 2135 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 sentyabr tarixli 386 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1914; 2023, № 1, maddə 145) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Birinci abzasda "9" rəqəmi "10 (on)" sözləri ilə əvəz edilsin.

**2.** "Kollegiyanın üzvləri:" bölməsindən "Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 250** **Bakı şəhəri, 31 iyul 2023-cü il**

***Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki.qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsi barədə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin.

**2.** Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsindən irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

**3.** Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin cari ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyətinin maliyyələşdirilməsi Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsində müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Naxçıvan Tibb Kolleci üzrə nəzərdə tutulmuş vəsaitlər çərçivəsində davam etdirilsin, 2024-cü ildən isə Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 3-cü hissəsində qeyd olunan maliyyələşmə məsələlərini növbəti illərin Azərbaycan Respublikasının icmal və dövlət büdcəsinin tərtibi prosesində nəzərə alsın.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745, № 10, maddə 969, № 12, maddələr 1241, 1245; 2012, № 3, maddə 257, № 4, maddə 399, № 6, maddələr 633, 634, № 12, maddə 1346; 2013, № 6, maddə 775, № 9, maddə 1130; 2014, № 1, maddə 72, № 2, maddə 214, № 6, maddə 751, № 7, maddə 907, № 9, maddə 1120; 2015, № 3, maddə 336, № 6, maddə 807, № 8, maddə 966, № 10, maddələr 1226, 1229, № 12, maddə 1571; 2016, № 1, maddə 176, № 2 (II kitab), maddə 373, № 3, maddə 622, № 5, maddə 957, № 6, maddə 1209, № 10, maddə 1723, № 11, maddə 1919; 2017, № 2, maddələr 285, 302, 319, № 6, maddələr 1223, 1226; 2018, № 11, maddələr 2429, 2456, № 12 (II kitab), maddələr 2739, 2759; 2019, № 11, maddə 1853; 2020, № 3, maddə 368, № 7, maddə 980, № 10, maddə 1301; 2021, № 3, maddə 268, № 6 (IV kitab), maddə 689, № 9, maddə 1062; 2022, № 3, maddə 253, № 7, maddə 812) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "Orta ixtisas təhsili müəssisələri" bölməsinə aşağıdakı məzmunda 48-ci və 49-cu hissələr əlavə edilsin:

"48. Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci

49. Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kolleci".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 251** **Bakı şəhəri, 31 iyul 2023-cü il**

***"Ödənişli arxiv xidmətlərinin siyahısının və onların göstərilməsinə görə xidmət haqlarının məbləği"nin təsdiq edilməsi haqqında***

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Ödənişli arxiv xidmətlərinin siyahısı və onların göstərilməsinə görə xidmət haqlarının məbləği" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 252** **Bakı şəhəri, 31 iyul 2023-cü il**

***"Dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadəsi barədə***

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunun-da dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 253** **Bakı şəhəri, 1 avqust 2023-cü il**

***"Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 21 noyabr tarixli 402 nömrəli Qərarı; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 130; 2010, № 3, maddə 264; 2020, № 4, maddə 480, № 11, maddə 1401; 2021, № 3, maddə 275; 2022, № 8, maddə 1013, № 9, maddə 1098) ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində vətəndaşların qida normaları"nda cədvəldən sonrakı mətndə üçüncü abzas dördüncü abzas hesab olunsun və həmin mətnə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli Qərarına uyğun olaraq Fərdi Reabilitasiya Proqramı ilə müəyyən edilən və kənar şəxslərin daimi köməyə və qayğısına ehtiyacı olan əlilliyi olan şəxsləri reabilitasiya müəssisələrində müşayiət edən şəxslər (1 nəfərdən çox olmamaqla) üçün qida normalarının "Ümumi tipli əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələri (böyüklər)" üçün müəyyən edilmiş normalara uyğun tətbiq edilməsi dövlət büdcəsi hesabına təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 258** **Bakı şəhəri, 31 iyul 2023-cü il**

***"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi barədə hesabatın forması"nın təsdiq edilməsi haqqında***

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2215 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi barədə hesabatın forması" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 260** **Bakı şəhəri, 2 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 aprel tarixli 137 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fövqəladə hallarda istifadə olunması nəzərdə tutulan dövlət ehtiyatlarının nomenklaturası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 aprel tarixli 137 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fövqəladə hallarda istifadə olunması nəzərdə tutulan dövlət ehtiyatlarının nomenklaturası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur, məxfi).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ceyhun Bayramovun xarici diplomatlarla görüşləri

**Dünən xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.**



Görüş zamanı Azərbaycanla Ermənistan arasında sülh prosesi, danışıqların perspektivləri və bölgədə cari vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistanın öz öhdəliklərinə zidd olaraq, Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrini tam olaraq çıxarmamasının, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddiaları davam etdirməsinin, kommunikasiyaların açılmasına maneçilik törətməsinin bölgədə sülh və sabitliyə xidmət etmədiyini diqqətə çatdırıb.

Bununla yanaşı, guya Azərbaycanın erməni sakinləri blokadada saxladığı, Laçın sərhəd buraxılış məntəqəsinin "qeyri-legitim" olduğu barədə iddiaların əsassız olduğu vurğulanaraq, Ermənistanın Laçın yolunda və sərhəd buraxılış məntəqəsinə qarşı təxribatları nəzərə alınaraq, Azərbaycanın erməni sakinlərə yardım üçün Ağdam-Xankəndi yolundan istifadə təklifinin qüvvədə qaldığı bir daha xatırlanıb. Həmçinin Azərbaycan tərəfinin erməni sakinlərin reinteqrasiyası səylərinə Ermənistanın müdaxiləsinin qəbuledilməz olduğu bildirilib.

Tərəflər, eyni zamanda, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***

**Avqustun 3-də xarici işlər naziri Ceyhun Bayramov İordaniya Haşimilər Krallığının Azərbaycandakı səfiri Sami Abdulla Goşehini ölkəmizdəki diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul edib.**



Nazir Ceyhun Bayramov fəaliyyəti müddətində Azərbaycan və İordaniya arasında münasibətlərin inkişafında göstərdiyi səylərə görə səfir Sami Abdulla Goşehiyə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səfir Sami Abdulla Goşehi Azərbaycanda səfir qismində diplomatik fəaliyyətdə olduğu müddət ərzində ölkəmiz tərəfindən irəli sürülən qlobal təşəbbüslərin təqdirəlayiq olduğunu bildirib. İordaniya ilə Azərbaycan arasında müxtəlif sahələr üzrə daha sıx əməkdaşlıq üçün perspektivlərin olduğu, bu xüsusda iki ölkə arasında təmasların davam etdirilməsinin vacibliyi qeyd olunub.

***"Xalq qəzeti"***

# Paşinyan yenidən yanlış məcrada

**Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 3-də hökumətin iclasında çıxışı zamanı növbəti dəfə "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin fəaliyyəti, eləcə də ərazi bütövlüyü və delimitasiya məsələsində beynəlxalq ictimaiyyəti yanlış məcraya yönləndimək cəhdləri Ermənistan tərəfinin iki ölkə arasında normallaşma prosesinə müsbət töhfə vermək əvəzinə, vəziyyəti gərginləşdirmək niyyətinin göstəricisidir.**

Bu sözlər Xarici İşlər Nazirliyinin yaydığı məlumatda yer alıb.

Bildirilib ki, Ermənistan tərəfinin iyunun 15-də Azərbaycan tərəfindən tikilmiş Həkəri körpüsündə, Azərbaycanın suveren ərazisində Azərbaycan bayrağını ucaldan sərhədçilərimizə atəş açmasının baş nazir N.Paşinyanın Azərbaycan tərəfindən təxribat kimi təqdim etməsi bir daha Ermənistanın həyata keçirdiyi təxribatlara bəraət qazandırdığını nümayiş etdirir.

Qeyd edilib ki, Azərbaycanın Laçın yolunu bağladığı iddiasının heç bir əsasının olmadığı məlumdur. Azərbaycan Ermənistanın "humanitar yük" adı altında əvvəllər hərbi texnika və bir sıra digər qanunsuz daşınmalara cəlb olunmuş nəqliyyat vasitələri ilə Azərbaycana ölkəmizin icazəsi olmadan yüklərin daşınmasının qəbuledilməzliyini dəfələrlə diqqətə çatdırıb. "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin fəaliyyəti ölkəmiz tərəfindən tənzimlənir.

Vurğulanıb ki, insanlıq əleyhinə cinayət törətmiş şəxs olan Vaqif Xaçaturyanın həbsi ilə bağlı ictimaiyyəti yanlış yönləndirən Ermənistan tərəfinə bir daha xatırlatmaq istərdik ki, beynəlxalq humanitar hüquqda müharibə cinayətkarlarına qarşı müvafiq tədbirlər görülməsinə mane olan heç bir məhdudiyyət yoxdur. Bu şəxsin həbsi Azərbaycan qanunvericiliyi və beynəlxalq hüquq çərçivəsində həyata keçirilib.

Diqqətə çatdırılıb ki, Ermənistan tərəfi həqiqətən də bölgədə sülh və sabitlikdə maraqlıdırsa, o cümlədən Azərbaycanın ərazi bütövlüyü və suverenliyini yalnız sözdə deyil, əməldə də dəstəkləyirsə, bu kimi təhrikçi addımlardan çəkinməli, Azərbaycan tərəfindən erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün təklif etdiyi Ağdam–Xankəndi yolundan və digər alternativ yollardan istifadəni dəstəkləməlidir. Ermənistan tərəfi, həmçinin Azərbaycanın erməni sakinlərin reinteqrasiyası üzrə səylərinə maneçilik törətməməlidir.

***"Xalq qəzeti"***



# Ölkənin valyuta vəsaitləri davamlı olaraq artır

## Dövlət Neft Fondunun aktivləri 54 milyard dolları ötüb

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz son 20 ildə sürətli tərəqqi yolu keçib. Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ixrac potensialının artırılması, xarici sərmayələrin cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr reallaşdırılıb.**

Bütün bu tədbirlərin uğurlu nəticəsi Maliyyə Nazirliyinin "2023-cü ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna gözləntilər sənədi"ndə vurğulanan göstəricilərdə də öz ifadəsini tapıb. Sənəddə bildirilir ki, cari il iyunun 30-na Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) aktivləri ilin əvvəlinə (49 milyard 33,6 milyon ABŞ dolları) nisbətən 12 faiz artaraq 54 milyard 915,1 milyon ABŞ dollarına çatıb.

ARDNF-in məlumatına əsasən, cari ilin yanvar-iyun ayları ərzində Fondun büdcə gəlirləri 11 milyard 701,4 milyon manat, büdcə xərcləri isə 2 milyard 680,8 milyon manat təşkil edib.

İlin ilk 6 ayı ərzində ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 8 milyard 624,3 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 7 milyard 854,6 milyon manat, bonus ödənişləri 765,3 milyon manat, tranzit gəlirləri 0,8 milyon manat, akrhesabı ödənişlər 3,6 milyon manat olub. Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlir 3 milyard 77,1 milyon manat təşkil edib. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-in büdcədənkənar gəlirləri 977, 6 milyon manata çatıb.

Hesabat dövründə Fondun 2023-cü il büdcəsinin icrası çərçivəsində 2 milyard 661 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 5,2 milyon manat, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşməsinə isə 3,6 milyon manat yönəldilib. Bu ilin yanvar-iyun ayları ərzində Fondun idarə edilməsi ilə bağlı xərcləri isə 11 milyon manat təşkil edib.

Cari ilin ilk yarım ilində aktivlərin artımı ARDNF-in büdcə gəlirlərinin büdcə xərclərini üstələməsi, o cümlədən vəsaitlərin idarəsindən əldə edilən gəlirlər hesabına olub. Müvafiq dövr ərzində ən yüksək gəlirlilik səhm alt portfelində müşahidə edilib. İlin əvvəlindən iqtisadi canlanma müşahidə olunsa da, sərt monetar siyasətin davam etməsi iqtisadiyyatda yavaşlama riskini artırıb. Eyni zamanda, inflyasiyanın aparıcı mərkəzi bankların hədəf dərəcələrindən hələ də yuxarı olması gələcəkdə faiz dərəcələrinin artmasını istisna etmir. Aktivlərin həcminin artmasına həm də qızılın qiymətinin qalxması və investisiya portfelinin tərkibində yer alan əsas valyutaların məzənnələrinin ABŞ dollarına qarşı güclənməsi ilə büdcədənkənar gəlirlər töhfə verib.

Maliyyə Nazirliyinin "2023-cü ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna gözləntilər sənədi"ndə 2023-cü ilin faktiki daxilolmaları nəzərə alınmaqla xam neftin bir barelinin qiymətinin 60 ABŞ dolları ssenarisində 2024-cü il 1 yanvar tarixinə ARDNF-in aktivlərinin 51,7 milyard ABŞ dolları olacağı proqnozlaşdırılır.

Xam neftin qiymətinin hər 10 ABŞ dolları dəyişməsi 2024-cü il 1 yanvar tarixinə Fondun aktivlərinin xam neftin bir barelinin qiymətinin 60 ABŞ dolları ssenarisi ilə müqayisədə təqribən 0,7 milyard ABŞ dolları artması və ya azalmasına səbəb olur. Belə ki, gələn il yanvarın 1-nə aktivlər xam neftin bir barelinin qiymətinin 60 ABŞ dolları ssenarisinə nəzərən 40 ABŞ dolları ssenarisində 1,4 milyard ABŞ dolları az olmaqla 50,3 milyard ABŞ dolları, 80 ABŞ dolları ssenarisində isə 1,4 milyard ABŞ dolları çox olmaqla 53,1 milyard ABŞ dolları gözlənilir.

Yeri gəlmişkən, xatırladaq ki, bu gün beynəlxalq reytinq agentliklərinin hesabatlarında da Azərbaycanda makroiqtisadi dayanıqlılığın əsas qarantı kimi ölkəmizin valyuta rezervləri göstərilir ki, bu da Beynəlxalq Valyuta Fondunun metodoloji təlimatına görə, Neft Fondu və Mərkəzi Bankda yığılan ehtiyatlardır. Makroiqtisadi şoklar çərçivəsində toplanan və idarəolunan ehtiyatlar isə enerji qiymətlərinin enməsi fonunda məzənnə və fiskal siyasətin dayanıqlılığının, həmçinin sabitliyinin qorunması üçün yeganə zəmindir. Bundan əlavə, neft-qaz gəlirləri hesabına formalaşan ehtiyatların dövlət borcunu üstələməsi və ödənməli borcların bağlanması, habelə büdcə defisitini kompensasiya etmə kimi rahatlıq, əminlik və inam formalaşdırması makroiqtisadi dayanıqlılıq üçün əlavə zəmanət rolunu oynayır.

Beləliklə, yuxarıda qeyd edilənlərə əsaslanıb deyə bilərik ki, Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıdışından sonra ğlkəmizdə dövlətçiliyin möhkəmləndirilməsi və bazar iqtisadiyyatının formalaşdırılması istiqamətində bir sıra önəmli islahatlar həyata keçirib. Ulu öndər qısa zaman ərzində uzunmüddətli dövr üzrə sosial-iqtisadi inkişaf strategiyasının müəllifi olaraq tarixi uğurlara imza atıb. Məhz dahi şəxsiyyətin həyata keçirdiyi sosial-iqtisadi islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitlik bərpa olunub, inflyasiya üçrəqəmli səviyyədən təkrəqəmli səviyyəyə düşüb, büdcə kəsiri dəfələrlə azalıb, manatın məzənnəsi sabitləşib və bank sistemi sağlamlaşdırılıb.

Ümummilli liderin əzmkarlığı və fədakarlığı ilə yaradılan iqtisadi potensial əsasında onun layiqli davamçısı Prezident İlham Əliyev qızıl inkişaf dövrünə nail olub. Dövlətimizin başçısının qarşıya qoyduğu dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri artıq günümüzün reallığına çevrilib.

2003-cü ildən başlayaraq son 20 ildə həyata keçirilən strategiya sayəsində milli iqtisadiyyatın real xərci 4 dəfə, ixrac 15,6 dəfə artıb. İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub. Neft gəlirləri uğurla sosial-iqtisadi inkişafa transformasiya edilib, iqtisadiyyatın fiziki və texnoloji infrastrukturu tamamilə müasirləşdirilib.

*Vaqif BAYRAMOV, "Xalq qəzeti"*

### Ekspert rəyi

**İlham ŞABAN, Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



SOCAR-ın açıqlamasına görə, 2023-cü ilin I yarısında Azərbaycan neftinin bir barelinin orta ixrac qiyməti 82,84 dollar təşkil edib, yəni bu gün dünya bazarında yaşananlar cari ili 80 dollardan yuxarı göstəricilərlə başa vurmaq ehtimalını xeyli artırır.

Hazırda isə dünya bazarında "Azeri Light" markalı neftin bir bareli 88,76 dollara satılır. Xatırladaq ki, bu sort neftin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb. Azərbaycanda neft əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi haqqında müqavilə çərçivəsində hasil edilir. Müqavilədə Azərbaycan Dövlət Neft Şirkətinin payı 25 faizdir.

Bəs bu bahalaşma bizə nə verir? Birincisi, azalan neft həcmləri fonunda gəlirlərimiz hiss ediləcək səviyyədə qalır. İkincisi, Maliyyə Nazirliyinin proqnozuna görə, neftin orta ixrac qiymətinin hər barel üçün 10 dollar artımı icmal büdcənin 1,3-1,4 milyard manat artımına gətirir. Üçüncüsü, ölkənin valyuta ehtiyatlarının artımına 1 iyul 2023 tarixinə Neft Fondunun aktivləri 54 milyard 915,1 milyon, Mərkəzi Bankın valyuta ehtiyatları isə 31 iyul 2023-cü il tarixinə 9 milyard 244 milyon təşkil edir və nəticə etibarı ilə makroiqtisadi göstəricilərin sabitliyi gerçəkləşir. Nəhayət, əlavə gəlirlər hesabına işğaldan azad edilmiş ərazilərin bərpasını sürətləndirmək imkanı yaranır.

Burada onu da qeyd edim ki, artan neft-qaz gəlirləri Azərbaycana Rusiyanın, Qərbin və İranın sakitcə müşahidə etdikləri 30 illik işğala son qoymaq üçün imkanlar açdı.



# İqtisadi artımla bağlı proqnozlar yenilənib

***Maliyyə Nazirliyi bu il respublikada ümumi daxili məhsulun (ÜDM) artımı ilə bağlı proqnozu yeniləyib. Bu barədə nazirliyin açıqladığı "2023-cü ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna gözləntilər sənədi"ndə bildirilir.***

Sənəddə deyilir ki, cari ilin büdcə layihəsi hazırlanan zaman İqtisadiyyat Nazirliyinin təqdim etdiyi proqnozlara əsasən, ÜDM 106 milyard manat, qeyri–neft–qaz ÜDM-i isə 73,3 milyard manat, real artım templəri isə müvafiq olaraq 2,7 faiz və 4,5 faiz götürülüb. Lakin 2023-cü ilin ötən dövrünün makroiqtisadi nəticələri ilə yanaşı, fiskal icra göstəriciləri və əmtəə bazarlarının konyukturası cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsini şərtləndirib.

# Hacıqabulun elektrik şəbəkəsi yenidən qurulur



***Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən "Azərişıq" ASC bölgələrdə elektrik şəbəkələrinin yenidən qurulması, əhalinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması yönündə işlərini davam etdirir.***

Hacıqabul rayonunda aparılan işlər çərçivəsində Abdulabad kəndinin elektrik şəbəkəsi tamamilə yenidən qurulur. Yenidənqurma işləri çərçivəsində kənddə 20 ədəd müasir tipli KTM-nin quraşdırılması nəzərdə tutulub. Hazırda 10 kilovoltluq 16 kiometr hava və 0.4 kilovoltluq 63 kilometr sip kabel xətləri çəkilir.

Bununla yanaşı, rayonun Rəncbər və Qubalıbaloğlan kəndlərində də elektrik enerjisi təchizatının yenidən qurulması istiqamətində işlər görülür. Kəndlərdə 35 ədəd müasir tipli KTM quraşdırılır, 10 kilovoltluq 36 kilometr hava və 0.4 kilovoltluq 107 kilometr sip kabel xətləri çəkilir, yeni dəmir dayaqlar basdırılır. İşlər yekunlaşdıqdan sonra, ümumilikdə, 2500-ə yaxın abonent dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunacaq.

Qeyd edək ki, hazırda "Azərişıq" ASC ölkənin regionları üzrə 100-dən artıq kənddə yenidənqurma işləri həyata keçirir.

*"Xalq qəzeti"*

# Ağdam Sənaye Parkı rezidentlərinin sayı 19 oldu



***Bugünlərdə daha bir istehsal müəssisəsinə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Bu, "AS İstehsal" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Bununla da, Ağdam Sənaye Parkının rezidentlərinin sayı 19-a çatıb.***

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün "Tvitter" hesabında bildirib. Qeyd edilib ki: "Şirkət parkın ərazisində investisiya dəyəri 5,4 milyon manat olacaq inşaat materialları istehsalı kompleksi yaradacaq və 95 nəfəri işlə təmin edəcək".

# Qayıdış layihələrinə bu il 5,2 milyard manat xərclənəcək



***Maliyyə Nazirliyinin "2023-cü ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna gözləntilər sənədi"nə əsasən, yaradılmış 4,4 milyard manat məbləğində maliyyə resursunun 2 milyard 260 milyon manatı işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işlərinin aparılmasına yönəldilib.***

Cari ildə Böyük Qayıdış Proqramı üçün ayrılan dövlət büdcəsi vəsaitinin həcmi isə 5 milyard 260 milyon manata çatdırılacaq.

*"Xalq qəzeti"*

# "Gələcəyin yanacağı" – hidrogen

## Ölkəmizin alternativ enerji potensialı dünyada yüksək dəyərləndirilir

**Avropa İttifaqı 2050-ci ilədək karbon emissiyalarını sıfıra endirməyi hədəfləyib. Bu məqsədlə ənənəvi enerji mənbələrini ekoloji cəhətdən daha təmiz olanlarla əvəz etmək üçün mühüm tədbirlər həyata keçirilir. Ekoloji cəhətdən ən təmiz enerji növlərindən biri də yaşıl hidrogendir. Hidrogen özü yüngül qaz olduğu üçün yanma zamanı ondan üç dəfə çox istilik almaq mümkündür. Təsadüfi deyil ki, bu sahədə potensialın yüksək olmasına və ekoloji təmizliyinə görə hidrogeni "gələcəyin yanacağı" adlandırırlar. Yeri gəlmişkən, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin məlumatına görə, əsrimizin ortalarına qədər enerji istehsalının 12 faizi məhz hidrogenin payına düşəcək.**




Hidrogen planetimizdə ən bol elementlərdən biri olmaqla yanaşı, təmiz yanacaq növü kimi getdikcə daha çox maraq kəsb edir. Hazırda Avropada "yaşıl keçid" platformasının əsas istiqamətlərindən sayılan hidrogenin istehsalı və ixracına nail olunması sahəsində intensiv iş aparılır. Yeri gəlmişkən, 2016-cı il aprelin 22-də Birləşmiş Millətlər Təşkilatının Mənzil Qərargahında imzalanmış BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasında alternativ enerji mənbərindən, o cümlədən hidrogendən geniş istifadəyə nail olmaqla emissiyaların sıfıra endirilməsi nəzərdə tutulur. Xatırladaq ki, sözügedən sazişə imza atan 171 ölkədən biri də Azərbaycan Respublikası olub.

Qeyd edək ki, alternativ və bərpaolunan enerji sahəsində yükək potensiala malik olan Azərbaycan Avropanın prioritet elan etdiyi "yaşıl enerji" platformasına qoşulan ilk ölkələrdəndir. Bu da təsadüfi deyil. Çünki ölkəmiz uzun illərdir ki, Avropa İttifaqı ilə enerji sahəsində fəal əməkdaşlıq edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın Avropa Komissiyası ilə bir çox sahələri əhatə edən enerji dialoqu var, bura təkcə qaz deyil, həm də bərpaolunan enerji və yaşıl hidrogen daxildir.

Bu baxımdan gələcək uğurlu əməkdaşlıq üçün Azərbaycan, ilk növbədə, ekoloji təmiz enerji, o cümlədən yaşıl hidrogen istehsalına nail olmalıdır. Bunun üçün isə ölkəmizin bərpaolunan enerji potensialı kifayət qədərdir. Yaşıl hidrogenə gəldikdə isə, Azərbaycan özünün zəngin qaz ehtiyatları hesabına hidrogen enerjisi istehsalına nail olmaq baxımından yaxşı imkanlara malikdir. Ölkəmizin "yaşıl enerji" potensialı artıq dünyanın bir sıra nüfuzlu elmi-tədqiqat və beyin mərkəzləri tərəfindən də yüksək qiymətləndirilir.

Bu günlərdə Amerika Birləşmiş Ştatlarının nüfuzlu beyin mərkəzlərindən sayılan Atlantik Şuranın Qlobal Enerji Mərkəzinin ştatdankənar baş elmi işçisi Çarlz Ellinas deyib ki, Azərbaycan Avropanın yaşıl hidrogen tədarükçüsü olmaq üçün çox gözəl imkana malikdir. Onun sözlərinə görə, ölkəmizin Avropaya ixrac etmək məqsədilə ekoloji təmiz hidrogen istehsalını inkişaf etdirmək üçün zəngin potensialı və lazımi infrastrukturu var.

Avropanın 2030-cu ilədək iqlim sahəsində çox iddialı hədəflərə çatmağın və 2050-ci ilədək tullantıların səviyyəsini sıfıra endirməyin tərəfdarı olduğunu vurğulayan Çarlz Ellinas bildirib ki, qazıntı yanacağının istehlakını əvəzləmək üçün "yaşıl enerji" tədarüklərinin artırılması tələb olunur. Atlantik Şuranın Qlobal Enerji Mərkəzinin eksperti bu baxımdan ölkəmizin imkanlarının beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini vurğulayıb: "Beynəlxalq Enerji Agentliyi Azərbaycanı həm daxili istifadə, həm də ixrac üçün bərpa olunan enerji mənbələrinin mühüm potensialına malik ölkə olaraq müəyyən edib. Ölkədə Avropaya ixrac etmək məqsədilə yaşıl hidrogen istehsalını inkişaf etdirmək üçün resurs və lazımi infrastruktur mövcuddur. Avropanın yaşıl hidrogen üzrə hədəflərinə çatmaq üçün məhdud daxili potensialını nəzərə alsaq, ona idxal lazım olacaq ki, bu da Azərbaycanın qarşısında çox gözəl imkanlar açır".

Qeyd edək ki, nüfuzlu beyin, düşüncə mərkəzi sayılan Atlantik Şura 1961-ci ildə NATO-nun nəzdində yaradılıb. Qərargahı Vaşinqtonda yerləşən şuranın təsis edilən zamanı əsas məqsədi NATO-ya üzv ölkələr arasında ticarət əlaqələrinin genişləndirilməsindən ibarət olub. Atlantik Şura siyasi, işgüzar və intellektual liderlərin forumu kimi yüksək nüfuza malikdir. Bir çox qlobal siyasət və iqtisadiyyat yönümlü proqramları və layihələri inkişaf etdirən şuranın 10 regional mərkəzi mövcuddur.

Yeri gəlmişkən, hazırda bütün dünyada hidrogenin istehsalı və istifadəsi ilə yanaşı, onun ixracı məsələsi də xüsusi aktuallıq kəsb edir. Mütəxəssislər bu yanacağın boru kəmərləri ilə nəqlini ən optimal variant hesab edirlər. Hazırda bunun üçün məqbul sayılan iki variant üzərində iş gedir. Birinci variant hidrogenin nəqli üçün ayrıca boru kəmərlərinin çəkilməsi ilə bağlıdır. Digər variant isə mövcud magistral qaz kəmərlərinin hidrogenin daşınması üçün modernləşdirilməsini və yenidən qurulmasını nəzərdə tutur.

Ekspertlər Azərbaycanın gələcəkdə istehsal edəcəyi hidrogeni dünya bazarlarına ixracı üçün Cənub Qaz Dəhlizinin imkanlarından istifadəni ən məqbul variantlardan biri hesab edirlər. Onların fikrincə, hidrogen qarışığının elə təbii qazla birlikdə ixracı mümkün olacaq. Bununla yanaşı, hazırda hidrogen ixracı üçün ayrıca boru kəmərinin çəkilməsi imkanları da nəzərdən keçirilir.

Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən aparılan tədqiqatlar Azərbaycanda ekoloji cəhəfdən təmiz hidrogen istehsalının məqsədəuyğun olduğunu təsdiq edib. Bununla yanaşı, adıçəkilən bankın dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkəti Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlilini yekunlaşdırıb. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb.

Bütövlükdə, Azərbaycan böyük qaz yataqları, zəngin ehtiyatları hesabına hidrogenə keçid baxımından yaxşı imkanlara malikdir. Hidrogenin istehsalı üçün isə ölkəmizdə yeni emal müəssisəsi tikilməlidir. Həmin müəssisənin günəş panellərindən və külək qurğularından alınan enerji hesabına fəaliyyət göstərəcəyi nəzərdə tutulur. Azərbaycan Respublikası Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, artıq ölkəmizdə hidrogen istehsalı üzrə pilot layihələrin hazırlanmasına başlanılıb.

*Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"*

# Su qıtlığından çıxış yolu ehtiyatları qorumaq və qənaətdir

## Son 20 ildə ölkənin su təminatı 40 faizdən 70 faizə yüksəlib

**Azərbaycanda içməli suya olan tələbatın ödənilməsi və su mənbələrinin axtarılması məsələsi hər zaman diqqətdə saxlanılıb. Bu istiqamətdə reallaşdırılan layihələr ölkəmiz dövlət müstəqilliyinə qovuşandan sonra daha da intensiv xarakter alıb. Bu, statistik göstəricilərdə də öz aydın ifadəsini tapıb. Məsələn, 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idisə, hazırda bu rəqəm 70 faizi ötüb. Yaxud, həmin dövrdə Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faiz olduğu halda, hazırda həmin göstərici 90 faizə yaxınlaşıb.**



Belə bir şəraitin yaranmasını, şübhəsiz ki, respublikamızda həyata keçirilən nəhəng su layihələri şərtləndirib. Məsələn, Oğuz–Qəbələ–Bakı su kəmərinin çəkilməsi, 270 milyon kubmetr su tutan, təqribən, 30 min hektar suvarılmayan torpaqların suvarılmasına imkan verən Taxtakörpü su anbarının tikintisi, Ceyranbatan su anbarının yenidən qurulması, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarlarının inşa edilməsi bu sahədə şəraitin yaxşılaşmasına, vəziyyətin müsbət məcraya yönəlməsinə gətirib çıxarıb.

Prezident İlham Əliyevin sözlərinə görə, Azərbaycanda həyata keçirilən nəhəng su layihələri vəziyyəti tamamilə müsbət istiqamətə dəyişib: "Mən onların arasında Oğuz–Qəbələ–Bakı su kəmərini xüsusilə qeyd etmək istərdim. Bu kəmərin çox böyük əhəmiyyəti var. İlk növbədə, böyük həcmdə təmiz içməli su Bakı şəhərinə çatdırılır. Nəzərə alsaq ki, bizim su resurslarımızın böyük hissəsi xarici ölkələrdə formalaşır, Oğuz–Qəbələ–Bakı su kəməri sırf yerli mənbə üzərində inşa edilmiş böyük layihədir. Bu layihənin inşası demək olar ki, bizim ilk neft gəlirlərimiz əldə olunandan sonra başlamışdır. O vaxt mən demişdim ki, biz "qara qızıl"ı insan kapitalına çevirməliyik və Oğuz–Qəbələ–Bakı su kəməri bunun əyani sübutudur… İndi mütəxəssislər yaxşı bilirlər ki, əgər bu gün Oğuz–Qəbələ–Bakı su kəməri olmasaydı, Bakı şəhərinin su problemləri çox kəskinləşə bilərdi".

Yuxarıda qeyd edildiyi kimi, Bakının su təchizatında Taxtakörpü su anbarı da önəmli rol oynayır. Dövlətimizin başçısının vurğuladığı kimi, bu su anbarının tikintisi tarixi layihədir. Çünki onun su tutumu kifayət qədər böyükdür –270 milyon kubmetr təşkil edir. Eyni zamanda, Taxtakörpü su anbarından Ceyranbatan su anbarına qədər yeni beton kanal fəaliyyət göstərir. Taxtakörpü su anbarının xüsusi əhəmiyyəti həm də ondadır ki, Samur çayının suları orada yığılır, təbii yollarla təmizlənir və beləliklə, su yeni bir rezervuardan Ceyranbatan anbarına gəlir.

Bu məqamda onu da qeyd edək ki, Prezident İlham Əliyev "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq ölkədə su ehtiyatlarının artırılması, əhalinin içməli su təminatının yaxşılaşdırılması, əkinəyararlı torpaqlarda müasir təsərrüfatlar yaradılmasının təşviqi və əhalinin məşğulluğunun dəstəklənməsi məqsədilə Oğuz və Şəki rayonları ərazisində Əlicançay su anbarının tikilməsi haqqında keçən ayın 28-də müvafiq sərəncam imzalayıb.

Lakin həyata keçirilən bu layihələrə baxmayaraq, hər il yay aylarında hökumət əhalini içməli sudan istifadəyə məsuliyyətlə yanaşmağa dəvət edir. Bu, içməli su qıtlığının mövcudluğunu, eyni zamanda, bu məsələdə israfçılığın, qeyri-qanuni halların aradan qaldırılmasının zəruriliyini göstərir. Belə şərait paytaxtda və ətraf qəsəbələrdə daha çox nəzərə çarpır. Bakıda içməli suyun verilişində qənaət rejiminin tətbiqi də məhz bununla bağlıdır. Amma heç kimə sirr deyil ki, ölkəmizin digər ərazilərində də belə yanaşma özünü qabarıq büruzə verir. Səbəb isə suya tələbatın getdikcə artması ilə bərabər, şirin suyun texniki məqsədlə gen-bol işlədilməsi, avtoyuma məntəqələrində, yaşıllaşdırmada, kənd təsərrüfatı məhsullarının becərilməsində daha çox istifadə olunması ilə bağlıdır. Təbii ki, bu cür israfçılıq içməli su ehtiyatlarının tükənməsinə, əhalinin isə əziyyət çəkməsinə səbəb olur.

Hesablamalara görə, Bakı və Abşerona kənar mənbələrdən saniyədə 26 kubmetr su verilir və bu, düzgün paylanma və səmərəli istifadə ilə əhalinin tələbatını ödəmək üçün kifayət qədər böyük göstəricidir. Amma su paytaxtda düzgün paylanmır, bununla da böyük itkilərə yol verilir. Əvvəla ona görə ki, su borularının çox hissəsi ötən əsrin 50-ci illərindən qalmadır. Yeni binalar tikildikcə bu xətlərə qoşulur. Bundan başqa , verilən suyun təzyiqi də artır. Nəticədə köhnə borular bütün bunlara tab gətirə bilmir, ciddi su itkilərinə səbəb olan sıçrayışlar baş verir. Ona görə də Bakıda və Abşeronda villalara qeyri-qanuni qoşulan bütün su xətləri kəsilməlidir. Avtoyuma məntəqələrində texniki sudan istifadəyə şərait yaradılmalıdır.

Ümumiyyətlə, mütəxəssislər paytaxtda içməli suyun texniki məqsədlər üçün işlədilməsinin aradan qaldırılmasını Bakının hündür yerlərində qurulacaq müəyyən qurğular vasitəsilə çirkab suların təmizlənərək bağ və parkların suvarılmasına, avtoyuma məntəqələrinə, küçə və sosial ərazilərin təmizlənməsinə yönəldilməsində görürlər.

Bəli, sirr deyil ki, texniki suyun olmaması içməli suya tələbatı artırır. Ona görə də harada imkan varsa orada içməli su texniki su ilə əvəz olunmalıdır. Artıq Bakıda bəzi ərazilərdə park və yaşıllıqların suvarılmasında texniki sudan istifadə edilir. Məsələn, Xocahəsən gölünün ətrafında salınan yaşıllıq bu göldən götürülərək təmizlənən su ilə suvarılır.

Yeri gəlmişkən, Azərbaycan dünyada su stresi yaşayan ölkələrdəndir. Adambaşına düşən su ehtiyatlarına görə, ölkəmiz 90-cı yerdə qərarlaşır. Təbii ki, belə şəraitdə təkcə paytaxtda deyil, respublikamızın digər ərazilərində də su çatışmazlığı ciddi narahatlıq doğurur. Azərbaycanın su ehtiyatı 32 milyard kubmetr təşkil edir. Bu resursun 70 faizi əsasən, Kür və Araz çaylarının hesabına, 30 faizi isə ölkə daxilində formalaşır. Kür, Araz və Azərbaycanın daxili çayları öz mənbəyini dağlara yağan yağışlardan, əriyən qar, buzlaq və yeraltı sulardan alır. Kür aprel ayında maksimum, sentyabrda minimum səviyyəyə yüksəlir. Araz çayında isə suyun səviyyəsi mayda maksimum, avqustda isə minimum həddə çatır.

Azərbaycanda su böhranı yaşandığı indiki şəraitdə etiraf edək ki, mövcud resurslarından vurğulandığı kimi, səmərəli istifadə olunmur. Belə halda, ilk növbədə, su itkisinə qarşı ciddi tədbirlər görülməlidir. Bu zaman həm də unutmayaq ki, Çünki Statistika Komitəsinin Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələr üzrə təbii mənbələrdən götürülən su, onun istehlakı və itkisi ilə bağlı təqdim etdiyi statistik məlumatda respublikamız su itkisinə görə, 28 faizlə birinci yerdədir. Su itkilərinə səbəb isə əsasən, yuxarıda sadalanan problemlərlə yanaşı, köhnəlmiş irriqasiya sistemləridir. Daha dəqiq ifadə etdək, çətinlik əsasən, istismar müddətini başa vuran suvarma kanallarının əksəriyyətinin yararsız hala düşməsi ilə bağlıdır.

Mütəxəssislər ölkənin mövcud su resurslarından səmərəli istifadə edilməsi məqsədilə yağış sularının yığılmasını da təklif edirlər. Onlar yağışlı vaxtlarda və çaylarda sululuğun yarandığı günlərdə onun bir hissəsini xüsusi anbarlara, məsələn, sovet dövründən qalmış təsərrüfatdaxili su anbarlarını qaydaya salıb ora yığaraq yay aylarında suvarmaya yönəltməyin mümkünlüyünü xatırladırlar. Təbii ki, belə halda fermerlər, kəndlilər həmin göllərə yığılmış sudan gen–bol yararlana bilərlər.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

**Hadisə**

## Yuxarı Qarabağ su kanalında bənd bərpa edilib

**Yuxarı Qarabağ su kanalının Bərdə rayonunun Qaraqoyunlu kəndindən keçən hissəsində bəndin bir hissəsinin uçması nəticəsində ətraf ərazilər subasmaya məruz qalıb. Fövqəladə Hallar Nazirliyinin Qarabağ və Gəncə Regional mərkəzləri, Dövlət Yanğından Mühafizə Xidməti, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin qüvvələri zəruri təhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə dərhal əraziyə cəlb olunub.**



Fövqəladə Hallar Nazirliyinin Qarabağ Regional Mərkəzinin rəisi Mirəli Feyziyev bildirib ki, Qaraqoyunlu kəndində 30-a yaxın evə ziyan dəyib. O deyib: " Yuxarı Qarabağ su kanalının Bərdə rayonunun Qaraqoyunlu kəndindən keçən hissəsində bəndin bir hissəsinin uçması nəticəsində yaranan güclü su axını kənd sakinlərinin təsərrüfatlarına ziyan vurub. Hadisə yerinə ağır texnikalar cəlb edilib. Görülən tədbirlər nəticəsində suyun qarşısı alınıb. Qaraqoyunlu kəndində 160 təsərrüfat var. Haradasa 30-a yaxın ev subasmaya məruz qalmışdı. Çox şükürlər olsun ki, insanlar zərər çəkməyib. Subasmaya məruz qalan ərazidə xilasetmə işləri davam edir.

Hadisə baş verəndən dərhal sonra, suyun səviyyəsinin artacağı ehtimalı olduğu üçün əhaliyə öncədən xəbərdarlıq edilərək onların subasma ərazisindən çıxması təmin edilib. Ərazidə qalan iki avtomobil isə su altından çıxarılıb. Evlərin zirzəmisindən və həyətyanı sahələrdən suların çəkilməsi üçün əraziyə xüsusi su çəkən aqreqatlar gətirilib. Sabah kənddə suyun vurduğu ziyanın araşdırılması aparılacaq".

Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndəsi Dilqəm Şərifov isə bildirib ki, agentlik tərəfindən kanaldan suyun axmasının qarşısının alınması ilə bağlı tədbirlər görülüb. İlk növbədə, suyun səviyyəsinin aşağı salınması üçün Mingəçevir su anbarından kanalın suyu azaldılıb. Əraziyə ağır texnikalar cəlb edilib, uçan bəndin bərpasına başlanılıb. Görülən tədbirlər nəticəsində bəndin uçan hissəsi bərpa edilib və subasmanın qarşısı alınıb.

Bəndin uçan hissəsi bərpa edildikdən sonra Yuxarı Qarabağ kanalında suyun əvvəlki səviyyədə axması ilə bağlı göstəriş verilib. Yuxarı Qarabağ Kanalı İstismar İdarəsinin rəisi Şakir İmanov bildirib: "Yuxarı Qarabağ kanalında sızma baş verib. Sızmanın qarşısı qısa müddətdə aradan qaldırılıb. Kanalın bəndində bərpa işləri başa çatıb. Biz kanalın suyunun əvvəlki səviyyəyə qaldırılması ilə bağlı göstəriş vermişik. Maksimum bir sutka ərzində su əvvəlki səviyyəsində axacaq".

***P.ƏFƏNDİ, "Xalq qəzeti"***

**Biganəlik, yoxsa düşmənçilik**

# Qəbələdə Alban qəbiristanlığı niyə dağıdılıb?

## Tarixi keçmişimizin mötəbər izini məhv etmək cinayətdir

**Qafqaz Albaniyasında oda, Günəşə etiqad və məhəbbət o qədər güclü olub ki, xristianlığı qəbul etdikdən sonra da onların özlərinə məxsus bir çox bədii ornament və elementləri xaç rəmzlərində öz əksini tapıb. Bu xaçlar meşəlik ərazidəki alban qəbiristanlığındakı mərhumun xatirəsini yad etmək üçün ucaldılan qəbir abidələrində də diqqəti çəkir. Tanınmış ingilis alimi A. Van bu barədə yazır: "Qafqaz albanlarının qədimdən riayət etdikləri və hələ o zamanlar mərhumun xatirəsini yad etmək kimi adətə görə, adsız qəbir daşları – xaç daşları vardı".**



### "Tapdığım muncuqların nə qədər dəyərli olduğunu bilmirdim"

Bəs, Alban qəbir daşlarını qoruya bildikmi? Onlar XXI əsrin əvvəlinədək ciddi dağıntılara məruz qalmamışdı. Metal və qızıl axtaran dedektor alətlər Qəbələyə ayaq açdıqdan sonra isə vəziyyət tamamilə dəyişdi. Bu barədə meşəlik ərazidə alban qəbiristanlığının axtarışında mənə dəstək olan Tarix İnstitutunun doktorantı Rəşad Seyidov deyir:

– Bizim Əmirvan kəndi yaxınlığında kifayət qədər araşdırılmalı alban qəbirləri, yarğanlıq ərazidə isə mağara var. Alban qəbirləri bir ərazidə deyil, meşənin müxtəlif yerlərində topa şəklindədirlər. Həmin qəbiristanlıqların hüdudları daxilində qəbirlərin quruluşu onu deməyə əsas verir ki, burada müxtəlif təbəqələrin nümayəndələri dəfn olunub.

Bu qəbiristanlıqlardan biri də bizim torpaq sahəmiz yaxınlığında yerləşir və mən orada çox olmuşam. Hər bir qəbir daşını yaxşı xatırlayıram. Onların arasında xüsusi seçilən, üstündə ox - kaman, Alban xaçı, küp, insan şəkilləri və yazılar olanlar vardı.

Ən iri qəbir daşlarından biri də yolun kənarında idi. Amma bir gün torpaq sahəmizə gedəndə onu əvvəlki yerində görmədim, bir kənara atılmış, yeri isə qazılmışdı. Bunları qızıl axtaranlar etmişdi. Ətrafı diqqətlə nəzərdən keçirdikdə bir neçə muncuq, tunc qolbağı və küp parçaları tapdım. Qiymətli əşyaları aparmışdılar. O vaxt məktəbdə oxuyurdum, tapdığım muncuq, qolbağı və küp parçasının nə qədər dəyərli olduğunu bilmirdim. Hər bir tapıntının torpağa basdırılan vaxt, o ərazidə mövcud olan ictimai, siyasi həyatın mənzərəsini əks etdirdiyindən xəbərsiz idim. Mənim üçün adi bəzək əşyalarından başqa bir şey deyildilər. Uzun müddət evdə saxladım, çox təəssüf ki, bu gün onlar məndə yoxdur, itiblər.

Söhbətə davam edən Rəşad Seyidov maraqlı bir məlumat da verdi. Onun sözlərinə görə, o vaxtlar təsərrüfat küpləri barədə də danışırdılar. Kənd sakinlərinin dediyinə görə, saxsı küplərin bəzisində şərab komponentlərinin izi qalıbmış. Bu onu göstərir ki, Qafqaz Albaniyası qədim şərabçılıq mərkəzlərindən biri olub.

Haşiyə: Alimlərin bildirdiyinə görə, 2400 il bundan əvvəl qəbələlilər indi olduğu kimi taxılçılıq, heyvandarlıq, bağçılıq, üzümçülük və şərabçılıqla məşğul olublar. Şəraba dərman kimi, insanlararası münasibətləri həlimləşdirən amil kimi, düşüncəyə təsir göstərən maddə və çox qiymətli mal kimi baxıblar. Şərabın dindarlıq, əczaçılıq, cəmiyyət üçün əhəmiyyəti böyük olub.



### Biganəliyimiz...

Söhbət edə-edə Alban qəbiristanlığına doğru getdik. Kol-kos basmış ərazidən keçərək meşəliyə daxil olmaq mümkün olmadı. Kolluğun ətrafından fırlanaraq zoğal ağacının yanındakı açıq sahədən qəbiristanlığa daxil olduq.

Ərazidə isə sındırılmış, topa şəkilində yığılmış qəbir daşları, çuxurlar, çalalar və mal - qara vardı. Sanki, inəklərin otlaq sahəsidir. Bunlar xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin diqqətdən kənarda qaldığını göstərirdi. Bu həm də müvafiq orqanların məsuliyyətsizliyi və bizim tarixi irsimizə biganəliyimizin nəticəsi idi. Halbuki ərazi mühafizə olunmalı, qorunmalı idi. Əgər qoruya bilmiriksə və "Biz müsəlmanıq, qəbir daşlarında xaç var, bizə aid deyil" təfəkkürü ilə yaşayırıqsa, onda bir çox tarixi abidələrimizə başqaları sahib çıxacaq, özünküləşdirəcək, "mənimdir" deyəcəklər. Ermənilər kimi.

Unutmayaq ki, onlar ilkin mərhələdə Azərbaycan torpaqlarında məskunlaşıb, sonrakı mərhələdə bu torpaqları özününkü elan etmək üçün tarixi abidələrimizə göz dikib, imkan daxilində onu öyrənib və daha sonrakı mərhələdə isə mənimsəyiblər. Nəhayət, onları özünün maddi - mənəvi irs nümunələri elan edib, tirajlayıb və yayıblar. Ermənilər beynəlxalq ictimaiyyətin rəyini çirkin niyyətlərinə istiqamətləndirməyə çalışıblar.

**Bu barədə yazıçı Fəxri Uğurlu yazır:**

– Bəli, Albaniya əhalisinin çoxu sonradan müsəlmanlaşdı, ancaq bu, özündən əvvəlki dini-mədəni irsə biganə yanaşmağa bəraət qazandırmır.

Necə deyərlər, yeməyənin payını yeyərlər – bir də onda ayıldıq ki, Azərbaycan ərazisindəki xristian mədəniyyəti qalıqları bütün dünyaya erməni-qriqorian irsi kimi təqdim olunur.

Əlavə edim ki, son dövrlərdə alban dini - mədəni irsinə sahib çıxmaq iddiasında olan gürcülər də fəallaşıb.



### ... və şayiələr

**Meşəlik ərazidəki alban qəbiristanlığının dağıdılmasında şayiələrin də rolu az olmayıb. Bu barədə Rəşad Seyidov deyir:**

– Məktəbdə oxuyurdum. Qədim qəbirlərdə qızılın olması barədə şayiələr böyük sürətlə yayıldı, naməlum adamlar qızıl axtarmaq adı ilə kortəbii qazıntı işləri apardılar. Bu qəbir abidələrin böyük əksəriyyəti onlar tərəfindən dağıdıldı. Yüz illərin, min illərin informasiyasını özündə saxlayan abidələr məhv edildi. Bu cinayətdir!

Bəli, müsahibimiz haqlıdır. Bu cinayətdə onlarla birlikdə hərəkət edən, qəbir abidələrinin yeri barədə məlumat verən, yəni onlarla ortaq olan yerli sakinlər də cavabdehlik daşıyırlar. Əslində hamısı bir yerdə işləyib. Qiymətli bir şey tapan kimi öz aralarında bölüşüblər, dəllallara yüksək qiymətə satıblar. İstisna deyil ki, bir hissəsi ölkədən çıxarılaraq ermənilərə satılıb.

**Rəşad Seyidovun sözlərinə görə, bu rayonun ərazisində birinci hadisə deyil. Əvvəllər də Qəbələ rayonunun müxtəlif ərazilərində qızıl axtaranlar bəd niyyətlərini həyata keçirmişdilər:**

– Yiyəsizlik, laqeyd münasibət səbəbindən qədim qəbiristanlıqlar, dini xatirə abidələri, digər dəfn yerləri, o cümlədən, kurqanlar və torpaq qəbirlər kompleksləri, küp qəbirlər, qədim təsərrüfat yerlərinin qalıqları dağıdılmış, qiymətli nə varsa oğurlanmışdı. Bir tarixçi kimi bu, məni çox narahat edir. Elə bil ki, kimlərinsə əli ilə bu tarixi keçmişimizi qəsdən yox etməyə çalışırlar".

### Axtarış uğursuz oldu

Başımız söhbətə qarışdığından az qala qəbir daşlarından birinin altında qazılmış çuxura düşəcəkdim. Bir an özümü toparladım, diqqətlə ornament və müxtəlif elementlərlə zəngin dördbucaq formasında olan qəbir daşını nəzərdən keçirdim. Daşın altında 1,5 – 2 metr dərinlikdə çuxur qazılmışdı. Onun çökməməsi üçün isə altına uzununa dirəklər, ağac tirlər qoyulmuşdu. "Çuxurda qızıl hərislərindən ola bilsin ki, nəsə qalıb" düşüncəsi ilə onun içərisinə düşüb "axtarışımı" davam etdirsəm də, küp qırıntılarında başqa heç nə tapmadım. Kimliyi bilinməyən şəxslər tarixi məzarı bərbad hala salmışdılar.

Bir sözlə tayfa başçısına və ya tayfa iyerarxiyasında yüksək mövqe tutan şəxslərə aid olduğu ehtimal olunan qəbirdəki sümüklər çıxarılıb ətrafa atılmış, küplər sındırılmış, qiymətli əşyaları oğurlanmışdı.

3–4 metr aralıda torpaq təpəsi daha dərin çuxurdan xəbər verirdi. Yanılmamışdım, qazılmış çuxur 3 metrdən dərin idi və traktorla qazılmışdı. Bu da ərazidəki qəbirlərin dərinliyinin ən azı 1,2 metrdən 3,1 metrə qədər olduğundan xəbər verirdi. Dağıntı yalnız bu iki qəbirlə bağlı deyildi. Ətrafdakı dağıdılmış qəbir daşlarının böyük əksəriyyəti tamamilə məhv edilmişdi - qazılmış qəbirlər, sındırılmış baş və sinə daşları... Xoş olmayan acınacaqlı mənzərə vardı.

Bu dağıntılar arasında yarı torpağa batmış və üzərində xaç olan daş marağıma səbəb oldu. Onun ətrafını təmizləmək üçün xeyli zəhmət çəkməli oldum. Xaç daşı daha çox Yenivəng xaç daşlarına oxşayırdı və qəbir daşının bir parçası idi. Qızıl hərisləri "qəbir daşının içərisində qızıl var" düşüncəsi ilə onu sındırmışdılar. Bu sizə qəribə gəlməsin, doğrudan da qəbir daşları sındırılaraq içərisində qızıl axtarılıb. Ətrafa səpələnmiş sındırılmış daşlar da bunun sübutudur. Ürəkağrıdıcı bir mənzərəni seyr etmək mənim üçün çox ağır idi.

Gördüklərim onu deməyə əsas verir ki, bu yerlərin ətraflı araşdırılması kifayət qədər faydalı nəticələr verə bilər. Gec də olsa, tədqiq edib tariximizin qədimiliyi barədə mühüm faktlar əldə edə, bir sıra sirləri işıq üzünə çıxara bilərik. Ciddi işlər görülməlidir. Unutmayaq ki, Qafqaz Albaniyasının tarixi yalnız bir neçə icmanın, ya etnik qrupun yox, bütövlükdə ölkəmizin, xalqımızın tarixidir.

Bununla yanaşı yerlərdəki abidələri təbliğ etməliyik, uşaqlara, gənclərə abidələrimizin mahiyyətini, tarixini, əhəmiyyətini anlatmalıyıq. İmkan verməməliyik ki, alban qəbiristanlığında qiymətli nə vardısa oğurlanıb aparsınlar. Tariximizə sahib çıxmalıyıq. Olan – qalanı heç olmasa qorumalıyıq.

(ardı var)

***Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"***

## “Xalq TV”-nin qonağı

**Hazırda ölkə gündəmində olan əsas məsələlərdən biri keçirilmiş axtarış tədbirləri nəticəsində iyulun 29-da Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan–Ermənistan dövlət sərhədinin Laçın nəzarət-buraxılış məntəqəsində Vaqif Xaçatryanın saxlanılmasıdır. V.Xaçatryan 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində qanunsuz erməni silahlı dəstəsinin tərkibində azərbaycanlılara qarşı soyqırımı cinayəti törətməkdə təqsirli bilinir. Onun barəsində Azərbaycanın prokurorluq orqanları tərəfindən başlanmış cinayət işi üzrə 2013-cü ildə beynəlxalq axtarış elan edilib və məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.**

# “Müstəntiqlər Xaçatryanı dindirirlər, ona əlavə ittihamlar irəli sürülə bilər”

**Azərbaycan Respublikası baş prokurorunun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi İlqar Səfərov V.Xaçatryanla bağlı aparılan istintaq-əməliyyat tədbirləri, o cümlədən Meşəli cinayətinin digər iştirakçılarının məsuliyyətə cəlb olunması, bununla əlaqədar Ermənistandan ölkəmizə yönələn ittihamlar və sair məsələlər barədə “Xalq qəzeti”-nin suallarını cavablandırıb. Müsahibəni təqdim edirik.**

***– İlqar müəllim, əvvəlcə 1991-ci il dekabrın 22-də Meşəlidə baş vermiş cinayət hadisəsi barədə məlumat verməyinizi istərdik. Bu cinayət nəticəsində neçə nəfər zərər çəkib? Sakinlərə və dövlət əmlakına nə qədər ziyan dəyib?***

– 1991-ci il dekabr ayının 22-də Meşəli kəndinə Azərbaycan SSR-in ərazisində yaşayan, ölkə vətəndaşları olan, millliyətcə ermənilərdən ibarət bir qrup silahlı şəxs, həmçinin Ermənistan Respublikasından Azərbaycana gəlmiş silahlı şəxslərin iştirakı ilə hücum təşkil edilib. Məqsəd kənddə yaşayan azərbaycanlıları bir milli qrup kimi bütövlükdə məhv etmək olub. Hücum nəticəsində milliyyətcə azərbaycanlı olan 25 nəfər qəsdən öldürülüb, 14 nəfər ağır bədən xəsarətləri alıb. Niyyət onları da öldürmək olub. 41 yaşayış evi, o cümlədən, dövlət binaları talan edilib və yandırılıb. İstintaq nəticəsində kəndə maddi baxımdan, ümumilikdə, 5,5 milyon manat həcmində ziyan vurulduğu qənaətinə gəlinib. Yəni, vurulmuş ziyanın ümumi mənzərəsi bundan ibarətdir. Eyni zamanda, soyqırımı cinayəti ilə yanaşı, kəndin 358 nəfər sakini öz yurdlarından didərgin salınıb, məcburi köçürülüb.

***– Meşəli hadisələri ilə bağlı cinayət işi nə vaxt başlanıb?***

– Beynəlxalq və yerli ictimaiyyəti ən çox maraqlandıran məsələ budur. Çünki bir çoxları sosial şəbəkələrdə bu cinayət işinin Ermənistana təzyiq, yaxud Azərbaycanın Qarabağ bölgəsində məskunlaşan etnik qrupa – ermənilərə təsir etmək üçün formalaşdığını deyirlər. Lakin istintaq sənədləri var və biz bu sənədlərin bir hissəsini ictimaiyyətə açıqladıq. Həmin sənədlərdə 1992-ci il yanvar ayında Azərbaycan Respublikası Prokurorluğunun vahid əməliyyat istintaq qrupuna Meşəli hadisəsi ilə bağlı müraciət daxil olduğu görünür. Yanvar ayının 11-də istintaq qrupu Meşəli kəndinə baxış keçirir. Baş vermiş bütün qətllər, talanlar, yanğınlar öz təsdiqini tapır. Onlar protokollaşdırılır, fotoşəkillər çəkilir və 11 yanvar 1992-ci ildə Şuşa şəhərində bu faktla bağlı cinayət işi başlanılır. Fakt üzrə istintaq uzun müddət davam edib. İstintaq qəsdən adamöldürmə, quldurluq, soyğunçuluq, iki və ya daha çox şəxsi qəsdən öldürmə maddələri ilə davam etdirilib.

***– Cinayət işi üzrə, ümumilikdə, neçə nəfər təqsirləndirilir? Neçə nəfər barəsində axtarış elan olunub?***

– Bu cinayətin iştirakçıları iki qrupdur. Bir qrup Meşəli kəndinə qonşu olan kəndlərdə yaşayan şəxslərdir. Meşəli sakinləri onları şəxsən tanıyırdılar, bəzilərinin münasibətləri var idi. Orada müxtəlif sosial qruplara məxsus şəxslər – müəllimlər, digər peşə sahibləri olub. Meşəli sakinlərinin tanıdığı şəxslərin şəxsiyyəti istintaq zamanı müəyyənləşdirilib. Bu cinayət işi üzrə 9 nəfər barəsində axtarış elan edilib. O cümlədən cinayətin digər iştirakçılarının müəyyən edilməsi ilə bağlı zəruri istintaq hərəkətləri aparılıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir.



***– Cinayət işi üzrə saxlanılan Vaqif Xaçatryanın soyqırımının törədilməsində iştirakı hansı şəkildə olub? O, təşkilatçılardan, yoxsa icraçılardandır?***

– Vaqif Xaçatryan həmin cinayətin icraçılarından olub. Hadisə yerinin müayinəsi zamanı, əsasən, avtomat silahların gilizləri tapılıb. Qrup üzvləri dinc yerli əhaliyə avtomat silahlardan, zirehli transportyorlardan və piyadaların döyüş maşınından intensiv atəş açıblar. Vaqif Xaçatryan həmin silahlı şəxslərdən biri olub. Onun əhaliyə qarşı birbaşa hücumda iştirak etməsi istintaqın gəldiyi qənaətlə tam sübuta yetirilib. Xaçatryanın icraçılardan biri olması ilə bağlı istintaq əsaslı sübutlar əldə edə bilib.

***– Bəs digər 8 nəfərlə bağlı istintaqa nələr məlumdur?***

– Digər 8 nəfərin də şəxsiyyəti, o cümlədən istintaq üçün zəruri olan məlumatlar bizə məlumdur. Onların da barəsində axtarış elan edilib. Eyni prosedur onlara da tətbiq olunur. Təbii ki, onların da məsuliyyətə cəlb edilməsi təmin ediləcək.

***– Vaqif Xaçatryanın saxlanılmasından sonra onunla bağlı istintaq-əməliyyat hərəkətləri icra olunubmu? İstintaqa yeni faktlar məlumdurmu?***

– Şübhəsiz. İlk növbədə, Vaqif Xaçatryan saxlanıldıqdan sonra onun tibb müəssisəsinə yerləşdirilməsi təmin olunub. Çünki həmin şəxs Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə müalicə adı altında Azərbaycan Respublikası hüdudlarını tərk etmək istəyirdi və sərhəd nəzarət-buraxılış məntəqəsində onun şəxsiyyəti müəyyən edilən zaman axtarışda olması halı aşkar olunub və dərhal hüquq-mühafizə orqanlarına təhvil verilib. Bundan sonra qeyd etdiyim kimi, o, dərhal tibb müəssisəsinə yerləşdirilib, sağlamlığı ilə bağlı həkim müayinəsindən keçirilib və tibbi müayinələr başa çatandan sonra Cinayət-Prosessual Məcəllənin tələblərinə uyğun olaraq istintaq orqanı – hazırda istintaqı aparan Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin müstəntiqləri iş üzrə prosessual hərəkətlərə başlayıblar. Şəxs tərcüməçi və vəkillə təmin edilib. Barəsində çıxarılan təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərar ona elan edilib və digər prosessual hərəkətlər, o cümlədən dindirilməsi aparılıb.

***– Xaçatryanın azərbaycanlılara qarşı digər cinayətlər də törətdiyi bildirilir. Bu baxımdan ona əlavə ittihamlar irəli sürülə bilərmi?***

– İttihamlar irəli sürülə bilər. Vaqif Xaçatryanla bağlı məlumatlar, onun fotosu, videosu mediada yayıldıqdan sonra Baş Prokurorluğun 961 nömrəli “qaynar xətt”inə bir neçə vətəndaş tərəfindən müraciətlər daxil oldu. Eləcə də, bəzi vətəndaşlar sosial media hesablarında məlumatlar paylaşdılar. Bildirdilər ki, Xaçatryan onlara da xəsarət yetirib və onu tanıyırlar. Bu şəxslər istintaq orqanına dəvət edilir, onların verdiyi informasiyalar rəsmiləşdirilir. Yəqin ki, siz də bu videoları görmüsünüz. Bir vətəndaşımızda Xaçatryanın ona verdiyi işgəncə nəticəsində bədənində yaranmış izlərin göründüyü video var. Onların tibbi müayinədən keçirilməsi təmin edilir. Əgər dedikləri fakt təsdiqini taparsa, yəni, Vaqif Xaçatryan tərəfindən bu cinayətlərin törədildiyi istintaqla sübuta yetiriləcəyi təqdirdə ona yeni ittihamlar elan ediləcək.

***– Yəni, həmin şəxslər də zərərçəkmiş kimi tanınacaqlar...***

– Birmənalı olaraq, 1992-ci ildən etibarən zərərçəkmiş şəxslərin tanınması və müəyyənləşdirilməsi davam etdirilir. İstintaqa müraciət etmiş şəxslər arasında fiziki xəsarət alanlar, ölmüş zərərçəkmiş şəxslər var ki, onların yaxın qohumları hüquqi varis qismində tanınıb. Eləcə də maddi ziyan dəymiş şəxslər müraciət ediblər. Bütün proses boyu qeydə alınmış müraciətlərin müəllifləri əgər hüquqi əsas mövcuddursa, zərərçəkmiş şəxs, eləcə də bəziləri mülki iddiaçı qismində tanınıblar.

***– Ermənistan tərəfi Vaqif Xaçatryanın saxlanılmasını adam oğurluğu kimi qələmə verməyə çalışır. Bu iddialarla bağlı nələri qeyd edə bilərsiniz?***

– Bilirsiniz, Vaqif Xaçatryan və o cümlədən ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni milliyyətindən olan şəxslərlə bağlı Azərbaycan dövlətinin mövqeyi budur ki, onlar Azərbaycan vətəndaşlarıdır. Təbii ki, istəməyən çıxıb getməkdə sərbəstdir, biz heç kimi zorla öz vətəndaşımız kimi saxlamırıq. Amma Vaqif Xaçatryan Azərbaycan Respublikasının vətəndaşıdır. Onun barəsində Azərbaycan Respublikası qanunları ilə cinayət təqibi aparılır.

Bu hadisəyə adam oğurluğu adı qoymaq düzgün deyil. Çünki Xaçatryan Azərbaycan sərhəd nəzarət-buraxılış məntəqəsinə beynəlxalq qurumun vasitəçiliyi ilə yaxınlaşıb. Şəxsiyyəti, daha sonra axtarışda olması müəyyən olunub. Ona axtarışda olmasının səbəbləri izah olunub və aşkar şəkildə dövlətin müəyyən etdiyi normalarla, Cinayət-Prosessual Məcəllənin tələblərinə əsasən saxlanılıb və hüquq-mühafizə orqanlarına təhvil verilib. Yəni, bu adam barəsində cinayət təqibinin aparıldığını, onun saxlanıldığı yeri hamı bilir. Onun hüquqları təmin edilir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri ilə görüşünə şərait yaradılır, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) onunla görüşür. Yəni, burada adam oğurluğunun hansı elementi var ki, onu bu şəkildə təqdim edirlər?!

Sadəcə, məsələni siyasiləşdirmək üsulu kimi, Ermənistan bundan istifadə etməyə çalışır. Ancaq Ermənistan bu məsələdə tərəf deyil. Söhbət Azərbaycan Respublikasının vətəndaşı barədə aparılan cinayət təqibindən gedir. Bu da milli qanunvericiliyin tələblərinə uyğun olaraq davam etdirilir. İş başa çatdırıldıqdan sonra barəsində toplanmış sübutlar kifayət qədər əsaslı olsa, ittiham aktı tərtib edilməklə məhkəməyə göndəriləcək.

***– Bir məsələyə də aydınlıq gətirməyinizi istərdik. Qanunvericilikdə cinayət məsuliyyətinə cəlbetmə üçün müddətlər nəzərdə tutulub. Həmin müddəanın Meşəli cinayəti kimi hadisələrə tətbiq olunması üçün hüquqi əsaslar varmı?***

– Cinayət-Prosessual Məcəlləsi cinayət məsuliyyətinə cəlbetmə müddətlərini tənzimləyir. Orada bu məsələyə də yer ayrılıb. Müddətkeçmə norması sülh və insanlıq əleyhinə, o cümlədən müharibə cinayətlərinə şamil edilmir. Üstündən neçə il keçməsindən asılı olmayaraq, bu cinayətləri törətdikləri müəyyən edilmiş şəxslər cinayət məsuliyyətinə cəlb ediləcəklər. Hətta bu barədə Azərbaycan Respublikasının Baş Prokurorluğu Xarici İşlər Nazirliyi ilə birgə 2020-ci ildə keçirilmiş geniş tədbirdə ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus nümayəndələrinə, mətbuat təmsilçilərinə geniş izahat verdi. Biz o vaxt elan etdik ki, soyqırımı, ekoloji cinayətlər, işgəncə verilməsi, əhaliyə maddi ziyan vurulması, Qarabağda erməni separatçılarının, müasir dövrdə erməni hərbçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlərlə bağlı cinayət işlərini istintaq edirik. Hamıya elan etdik ki, bu istiqamətlərdə təqsirləndirilən şəxsləri aşkar etmişik, axtarışa vermişik, müddət keçməsinə arxayın olmasınlar, bizim Cinayət-Prosessual Məcəllədə bu məsələ tənzimlənir. Müddət məsələsi onlara şamil olunmayacaq və o şəxslər məsuliyyətə cəlb ediləcək.

***– Xaçatryanın məsuliyyətə cəlb edilməsinin beynəlxalq normalara uyğunluğu ilə də bağlı fikirlərinizi öyrənmək istərdik...***

– Ermənilərin təxribat niyyəti ilə ən çox qaldırdığı məsələ Xaçatryanın, guya, beynəlxalq axtarışa verilməməsi məsələdir. Bu məsələ də sənədlərlə öz təsdiqini tapıb. Onun barəsində təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərar qəbul ediləndən sonra Nərimanov Rayon Məhkəməsi tərəfindən 2013-cü il noyabrın 14-də şəxsin həbs edilməsi və tutulması ilə bağlı qərar qəbul olunub. Bundan sonra İnterpolun Milli Mərkəzi Bürosuna müraciət edilib. Həmin sənədlər təqdim olunub. Şəxs beynəlxalq axtarışa verilib. Son dövrlərə qədər Xaçatryanın, eləcə də digər təqsirləndirilən şəxslərin axtarışı ilə bağlı İnterpolun Milli Mərkəzi Bürosu ilə Azərbaycanın hüquq-mühafizə orqanları arasında yazışmalar davam etdirilib.

***– Birinci Qarabağ müharibəsi zamanı Kərkicahan, Bağanis-Ayrım, Cəmilli, Malıbəyli, Quşçular, Qaradağlı, Xocalı, Ballıqaya, Başlıbel kimi yaşayış məntəqələrimizdə də müharibə cinayətləri törədilib. Bu cinayətləri törədənlərin saxlanılması istiqamətində hansı tədbirlər görülür?***







– Qeyd etdiyiniz soyqırımı cinayətlərinin hər biri ilə bağlı həm Baş Prokurorluğun İstintaq İdarəsində, həm də Hərbi Prokurorluqda sənədlər toplanılıb. Hər bir fakt üzrə cinayət işi başlanılıb. İlkin cinayət işləri 1988-ci ildə milli münaqişə zəminində törədilən cinayətlərlə bağlı açılıb. Bu soyqırımları ilə bağlı zəruri olan bütün hərəkətlər aparılıb. Axtarışda olan şəxslərdən hansı saxlanılacaqsa, həmin hadisələrlə bağlı sənədləri yenə ictimaiyyətlə paylaşacağıq.

***Müsahibəni apardı:***
***Səxavət HƏMİD,***
***“Xalq qəzeti”***

# “Qarabağ İtkin Ailələri” BMT-dən kömək istəyir

**“Qarabağ İtkin Ailələri” İctimai Birliyi Birləşmiş Millətlər Təşkilatına müraciət ünvanlayıb. Vətəndaş cəmiyyəti qurumudan qəzetimizə göndərilən həmin məktubun mətnində bildirilir:**

– Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində itkin düşmüş 3 min 890 nəfər azərbaycanlının ailə üzvlərini birləşdirən ictimai təşkilat kimi, itkin ailələri adından BMT-nin Baş katibi Antonio Quterreşə, BMT Baş Assambleyasının prezidenti Çaba Köröşiyə, BMT-nin İnsan Hüquqları Şurasının prezidenti Vatslav Balekə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türkə müraciət edirik.

Beynəlxalq humanitar hüququn və onun əsas mənbəyi olan 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarının tələblərinə əsasən, silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər barədə onların ailələrinin məlumat almaq haqqı birmənalı şəkildə tanınır və bu, insan kimi bizim hüququmuzdur. Lakin biz 30 ildən çoxdur ki, bu hüquqdan məhrumuq, Ermənistan itkin düşmüş azərbaycanlılar barədə məlumatları təqdim etməkdən imtina edir, bizi bitməyən əzaba, iztirablara məhkum edib.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyata alınan 4 minə yaxın azərbaycanlının 3 min 171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxslərdir. 71 nəfər yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri qocadır. İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfərin əsir-girov götürülməsi və ya işğal edilmiş ərazilərdə qalması şahid ifadələri ilə təsdiq edilib.

Müraciətdə itkin düşənlərin bir çoxunun işgəncə ilə qətlə yetirilməsi və meyitlərinin 30 il Ermənistanın nəzarəti altında olmuş ərazilərdə aşkar edilmiş kütləvi məzarlıqlarda gizlədilməsi onların erməni silahlıları tərəfindən məhv edilməsinin təkzibedilməz sübutu kimi nəzərə çatdırılır:

– Kütləvi məzarlıqlardan 1-i Kəlbəcər rayonunun Başlıbel kəndində, 3-ü Xocavənd rayonunun Edilli kəndində, 1-i Xocalı rayonunun Fərrux kəndində, 2-si Şuşa rayonunun Daşaltı kəndində, 1-i Şuşa şəhərində, 1-i Ağdam rayonunun Sarıcalı kəndində aşkar edilib. Daha bir neçə kütləvi məzarlığın izinə düşülüb, hazırda həmin istiqamətlərdə araşdırmalara başlanıb. İnsanların kütləvi halda qətl edilərək qeyri-insani qaydada basdırılması və izlərinin itirilməsi, bütün insani dəyərlərə hörmətsizlik, vəhşilikdir.

Müraciət bu sözlərlə bitir: “Sizdən xahiş edirik ki, Ermənistana çağırış edəsiniz ki, itkin düşmüş şəxslərin taleyi barədə məlumatları açıqlasın, kütləvi məzarlıqların yerlərini Azərbaycan tərəfinə təqdim etsin. Sizləri çağırırıq ki, BMT-nin itkin düşmüş şəxslər üzrə xüsusi məruzəçisi institutunun yaradılmasına öz töhfənizi əsirgəməyəsiniz”.

***“Xalq qəzeti”***

## Sosial mediaya xatırlatma

# Əsl azarkeşlər “Qarabağ”a inanırlar

## Bu komanda milli futbolumuza qələbə əzmi gətirib

**“Biz hamımız “Qarabağ”ın Çempionlar Liqasında “Rakov” səddini keçərək yoluna uğurla davam etməsini, hətta qrup mərhələsinə düşməsini arzulayırdıq. Alınmadı, məyus olduq”. Bu sözləri peşəkar idman mediasına açıqlamasında Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid söyləyib.**

Xatırladaq ki, “Qarabağ”ın ötən gün Bakıda Polşa “Rakov”u ilə heç-heçə edərək (1:1; ilk oyun – 2:3) Çempionlar Liqası ilə vidalaşmasından sonra sosial mediadakı müzakirələrdə kəskin ittihamlar, nalayiq ifadələr səslənib. AMŞ sədri sosial şəbəkələrdə “Qarabağ” klubunun rəhbərliyinə, baş məşqçi Qurban Qurbanova və futbolçulara qarşı səslənən fikirlərlə bağlı deyib:

– Məyusluq hamıda var. Amma həm bu dəfə, həm də əvvəlki matçlarda sosial mediada pis bir tendensiyanın daha da genişləndiyinin şahidi oluram. Əlbəttə, sosial media istifadəçilərinin bəzilərinin emosiyalarını başa düşürəm. Bəzilərinin sosial mediada məsuliyyət hisslərinin olmadığı anlaşılandır. Lakin hər halda bir ədalət prinsipi, vicdan, haqqı nahaqqa verməmək məsələsi də var.



Bu baxımdan sosial mediada “Qarabağ”, Qurban Qurbanov ilə bağlı bəzi fikirlər qəbuledilməzdir. Hətta bəzən görürsən ki, media rəhbərləri, daha məsuliyyətli olmalı adamlar da “Qarabağ”ın rəhbərliyi, Qurban Qurbanov, onun futbolçuları ilə bağlı həddən artıq emosional, bəzən də təhqir dolu ifadələr işlədirlər. Bu, insanlarda əlavə məyusluq yaradır. Arzulayardım ki, sosial şəbəkə istifadəçiləri soyuqqanlı olsunlar, ani hisslərini və hirslərini o dəqiqə statusa çevirib yazmasınlar, ədalətli olsunlar.

Rəşad Məcid Ağdam təmsilçisinin həm Azərbaycan futboluna, həm də ölkə siyasətinə böyük töhfələr verdiyini xatırladıb:

– “Qarabağ” komandası Azərbaycan futboluna çox böyük töhfələr verib. Bunu görməmək allahsızlıq, ədalətsizlikdir. “Qarabağ”adək biz stadiona gedib, məyus qayıdırdıq. Qələbənin şirinliyini bizə “Qarabağ” yaşadıb. Azərbaycan futbol azarkeşlərinin kütləvi şəkildə stadionlara cəlb olunması “Qarabağ”ın hesabına olub. Bundan başqa, torpaqlarımız işğal altında olarkən Ağdam komandasının Çempionlar Liqasının qrup mərhələsində Londonun, Madridin, Romanın komandaları ilə bir qrupda oynaması istər-istəməz insan beyninə “Ağdam haradır?”, “Ağdam hansı şəhərdir?” kimi Ağdamın işğal olunması barədə şüuraltı informasiyalar ötürürdü. Bunu başqa bir təbliğatla etmək çətin məsələ idi.

– Rəşad Məcid sonda “Qarabağ”ın yenidən böyük uğurlar qazanacağını və azarkeşləri sevindirəcəyini deyib:

– “Qarabağ” avqustun 10-da yenə oynayacaq. Yenə biz həyəcanla “Qarabağ”ın oyunlarına baxacağıq. İndi heyətdə müəyyən boşluq hiss olunur. Bunu hamıdan çox əlbəttə ki, Qurban Qurbanov görür. Qurban Qurbanov sosial şəbəkə istifadəçilərindən, ona ağıl verənlərdən qat-qat artıq bilir çatışmazlığı. İnanırıq ki, komandanın formalaşması, yeniləşməsi dövrü də rahat keçəcək və “Qarabağ” həmişə olduğu kimi, bizi sevindirəcək.

Qeyd edək ki, “Qarabağ” yoluna Avropa Liqasında davam edəcək. Komanda 3-cü təsnifat mərhələsində Finlandiya HİK-i ilə üz-üzə gələcək. Ağdam təmsilçisi ilk oyununu evdə keçirəcək.

***Hazırladı: T.RÜSTƏMLİ,***
***“Xalq qəzeti”***

# Ulu öndərin ömür yolu Tarix Muzeyində

**Yeni ekspozisiyada görkəmli siyasətçiyə, müasir tariximizə və 44 günlük Vətən müharibəsinə həsr olunan ayrıca bölmələr yaradılır.**



Muzeyin elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru, dosent Fərhad Cabbarov bildirdi ki, bundan əvvəl ekspozisiya Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövrü ilə yekunlaşırdı. Hazırda isə ən yeni tariximizi də əhatə edən bölmələrdə son işlər gedir.

Ekposzisiyanın bir bölməsi ulu öndərin liderlik fəaliyyətinin 1969-1982-ci illərə aid dövrünə həsr edilib. Bu bölmədə ümummilli liderin 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildiyi plenumun stenoqramı və qərarının surəti yer alır. Həmçinin, dahi şəxiyyətin hakimiyyətdə olduğu birinci dönəmdə sosial-iqtisadi həyatda baş verən mühüm hadisələrə aid foto, sənəd və başqa nümunələr sərgilənir. Həmin dövrdə mədəniyyətin inkişafını əks etdirən bölmədə isə teatr, kino, musiqi, rəssamlıq və s. sahələrlə bağlı eksponatlar əksini tapacaq.

Heydər Əliyevin 1993-2003-cü illərdə müstəqil Azərbaycanın Prezidenti olduğu dövrə isə bir salon ayrılıb. Burada ölkənin həmin dövrdə ictimai, siyasi, iqtisadi, mədəni həyatına işıq salan eksponatlar nümayiş etdirilir. 1993 və 1995-ci illərdə tədavülə buraxılmış Azərbaycan manatı, müstəqil Azərbaycanın ilk konistitusiyası, "Əsrin müqaviləsi"nin imzalanması ilə bağlı bir neçə eksponat da sərgilənir. "Əsrin müqaviləsi"ni icra edən rəhbər komitənin ilk iclası Tarix Muzeyinin binasında keçirilib və Heydər Əliyev şəxsən özü burada iştirak edib.

Fərhad Cabbarov daha sonra dedi ki, salonda quraşdırılmış xüsusi ekranda müasir tariximizin əsas hadisələrinin görüntüləri Azərbaycan və ingilis dillərində mətnlərlə əks olunacaq. Ulu öndərin daxili və xarici səfərlərində çəkilmiş fotoşəkillərdən ibarət stendlər də qurulacaq.

Başqa bir salon isə ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyevə və 44 günlük Vətən müharibəsindəki Böyük Zəfərə həsr edilib.

Tarix Muzeyində yeni bölmələrin yaradılması sentyabrda tamamlanacaq.

***M.RÜFƏT***

# Virtuozların Qəbələ performansı





**Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə ardıcıl olaraq 13-cü dəfə təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalı artıq tarixə qovuşdu.**

Gözəl ənənəyə çevrilən incəsənət bayramı bu dəfə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuşdu və yenə də öz möhtəşəmliyi ilə musiqi dünyasının diqqətini ölkəmizin dilbər guşəsinə cəlb edə bilib. İyulun 27-dən başlayaraq, 7 gün davam edən festivalda Azərbaycanla yanaşı, Böyük Britaniya, Estoniya, Litva, Polşa, Rusiya və Türkiyədən dünya şöhrətli musiqiçilər – ifaçı və dirijorlar, musiqi kollektivləri iştirak ediblər.

Festival günlərində musiqisevərlər və Qəbələnin qonaqları Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin, "Gənclərə dəstək" layihəsi iştirakçılarının, Bakı Kamera Orkestrinin, "Clarte" klarnet kvartetinin, Litva Kamera Orkestrinin, gənc muğam ifaçılarının konsertlərini izləmək imkanı əldə ediblər. Dahi rus bəstəkarı Sergey Raxmaninovun 150, görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun 90, tanınmış pianoçu Bella Davidoviçin 95, görkəmli alman bəstəkarı İohannes Bramsın 190 illik yubileyləri də xüsusi konsert proqramları ilə qeyd edilib və festivala əlavə rəng qatıb.

Ulu öndərin adını daşıyan Konqres Mərkəzində növbəti kamera konserti ilə bayramın son akkordları vurulub. Musiqi axşamında tamaşaçılar Xalq artistləri Ülviyyə Hacıbəyova (piano), Gülnaz İsmayılova (soprano), respublika və beynəlxalq müsabiqələr laureatları Səidə Tağızadə (piano), Ümidə Abasova (skripka) və Prezident təqaüdçüsü Vurğun Vəkilovun (piano) ifasında məşhur bəstəkarların əsərlərini dinləyiblər. Konsertdə Fərhad Bədəlbəylinin "Şuşa xatirələri", "Vokaliz", Niyazinin "Rast" simfonik muğamından fraqmentlər, Qara Qarayevin "Sonatina", Sevda Məmmədlinin "Laçın balladası", Sergey Raxmaninovun "Fuqa re minor", Emin Sabitoğlunun "Dədə Qorqud" kinofilminin musiqiləri əsasında popurri, Fikrət Əmirovun "Min bir gecə" baletindən fraqmentlər, Vasif Adıgözəlovun "Bakı" əsəri alqışlarla qarşılanıb.

Açıq havada keçirilən yekun konserti də hər kəsə unudulmaz təsir bağışlayıb. Xalq artisti Ənvər Sadıqov (qarmon), Əməkdar artist Emil Əfrasiyab (piano) və "Qaytağı" instrumental ansamblının iştirakı ilə tamaşaçılara möhtəşəm proqram təqdim edilib. Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından melodiyalar, rejissor Adil İsgəndərovun "Əhməd haradadır?" və Vladimir Kosmanın "Oyuncaq" kinofilmlərinin musiqisi əsasında popurrilər, Astor Pyatsollanın, Cahangir Cahangirovun, Tofiq Quliyevin, Ruhəngiz Qasımovanın mahnıları, xalq rəqsləri tamaşaçı alqışı qazanıb.

"Qaytağı" ansamblının üzvləri – Əməkdar artist Ələkbər Ələkbərov (tar), Şakir Davudov (skripka), Orxan Musayev (balaban, klarnet), Xasay Gülməmmədov (saz, ud), Bəhram Mahmudov (qoşa nağara, perkussiya), Elvin Bəşirov (zərb alətləri), Taleh Ağayev (piano), Elmir Əliyev (nağara), Səlim Məmmədov (bas gitara) və Hidayət Sadıqbəyli (piano) virtuoz ifaları ilə könülləri oxşayıblar. Litva Kamera Orkestrinin ifasında Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Aşıq Veysəl, Çağatay Akel, həmçinin fransız musiqiçiləri Moris Ravel və Marsel Qranjani kimi bəstəkar və xalq aşıqlarının əsərləri unudulmaz təsir bağışlayıb. Dalğa-dalğa yayılan musiqi sədaları dağlarda əks-səda verərək əsrarəngiz bir aura yaradıb.

Beləliklə, XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı şən notlarla başa çatıb. Tədbirlərdən minlərlə tamaşaçı zövq alıb, konsertlər izləyicilərdə ən xoş təəssüratlar yaradıb. Onlardan bir neçəsinin ürək sözlərini təqdim edirik.

**Nargilə Qafarova, Şəki Regional Mədəniyyət İdarəsinin rəisi:**

– Fəxr edirik ki, məhz bizim bölgə sözügedən mötəbər musiqi festivalı üçün ünvan seçilib. Sayca 13-cü olan bu bayramda Azərbaycan sənətçiləri ilə bərabər, dünyanın ünlü klassik musiqi xadimləri də layiqli performans göstəriblər. Festivalın sayəsində Azərbaycanımızın musiqi mədəniyyəti geniş təbliğ olunur, eyni zamanda qədim Qəbələnin adı bütün dünyanı dolaşır.

**Əhməd Qəndiyev, Qəbələ İncəsənət Məktəbinin direktoru:**

– Bildiyimiz kimi, klassik musiqiyə o əsərlər aiddir ki, artıq zamanın sınağından çıxıb, tarix olub. Kökü Qərbdən gələn bu incəsənət növü müasir cəmiyyətdə öz auditoriyasını qoruyub saxlayıb, sevilir və dinlənilir. Bizim məktəbin müəllim və şagirdləri də festival çərçivəsində keçirilən tədbirlərdə iştirak etməklə klassik musiqi zövqlərini daha da inkişaf etdirdilər. Buna görə festivalın təşkilatçılarına minnətdarıq.

**Malik Ağayev, Qəbələ Mədəniyyət Mərkəzinin direktoru:**

– Konsertlərdə klassiklərin əsərlərini, simfonik musiqini və muğam interpretasiyalarını dinlədikcə yadıma şair Məmməd İsmayılın misraları düşürdü:

**Dünən Bethoveni çaldılar sazda,**
**Hələ yaşamağa dəyər bir az da.**

Doğrudan da, yeni nəsil virtuozlar Qərb və Şərq musiqisini böyük məharətlə sintez edir, heyrət doğururlar. Qəbələ festivalında bir daha əmin olduq ki, çağdaş çağırışlara cavab verən Azərbaycan musiqisi bu kimi tədbirlərin hesabına artıq ölkə hüdudlarından çox-çox kənarlarda, beynəlxalq miqyasda da yayılaraq geniş şöhrət qazanır. Opera, kapriççio və romanslarımız bəstəkarlarımızın hüdudsuz fantaziyasından soraq verir. Sevinirəm ki, biz hər il Qəbələdə keçirilən Beynəlxalq Musiqi Festivalına evsahibliyi edirik.

Bəli, nüfuzu ildən-ilə artan Qəbələ Beynəlxalq Musiqi Festivalı Azərbaycanın mədəni həyatında çox mühüm əhəmiyyətə malikdir. Klassik musiqi vurğunu olan hər kəsin səbirsizliklə gözlədiyi və sevə-sevə izlədiyi bu festival həm də yeni istedadların aşkar edilməsinə, bu sahədə bilik və tədqiqatların mübadiləsinə xidmət edir.

*Əli NƏCƏFXANLI,*
*İlqar HƏSƏNOV,*
*"Xalq qəzeti"*

**Özbəkistan Mədəniyyəti Günləri**

# Nazirlərin görüşü



**Mədəniyyət naziri Adil Kərimli ilə Azərbaycanda Özbəkistanın mədəniyyət günlərində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının mədəniyyət naziri Ozodbek Nazarbekov arasında görüş keçirilib.**

Nazirlikdən bildirilib ki, görüşdə ölkələrimizin ortaq tarixə, mədəni köklərə, oxşar adət-ənənələrə malik olduğu qeyd edilib, mədəni münasibətlərin gündən-günə daha da dərinləşməsindən, bu istiqamətdə aparılan işlərdən ətraflı bəhs olunub.

Görüş zamanı qeyd edilib ki, daim dostluq və qardaşlıq şəraitində yaşayan Azərbaycanla Özbəkistan arasında ikitərəfli münasibətlərin, xüsusilə də mədəni əlaqələrin uğurla inkişaf etməsində dövlət başçılarımızın mehriban münasibəti xüsusi rol oynayır və bu münasibətlər nəticəsində mədəni əlaqələr daha geniş müstəvilərə daşınır.

***"Xalq qəzeti"***

# Nəsibə Abdullayeva: "Çox sağ olun ki, məni unutmamısınız"



**Bakıda keçirilən 4 günlük Özbəkistan Mədəniyyəti Günləri çərçivəsində qardaş ölkənin tanınmış incəsənət ustalarının iştirakı ilə geniş konsert proqramı təqdim olunub, tamaşalar, kitab sərgisi və digər tədbirlər təşkil edilib. Özbəkistanın Xalq artistləri Fərrux Zakirov, Nəsibə Abdullayeva, Qaşımjon İsmayılov, Züleyxa Boyxanova, Gülsənəm Mamazoitova, Canisbek Piyazov, Səməndər Alimov və başqaları Azərbaycan tamaşaçıları qarşısında çıxış ediblər.**

Qonaqların arasında gözəl səsi, şirin, yanıqlı ifaları ilə könülləri fəth eləmiş soydaşımız – Prezident İlham Əliyevin 30 avqust 2022-ci ildə imzaladığı sərəncamla iki ölkə arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə "Azərbaycanın Xalq artisti" adına layiq görülmüş Nəsibə Abdullayeva xüsusi rəğbətlə qarşılanıb. Səmərqənddə anadan olmuş müğənnini ilk dəfə "Qaragöz boy-boy" mahnısı ilə tanımışıq. Sonra o, yaradıcılıq repertuarında Azərbaycan mahnılarına xüsusi yer verib. "Səndən nigaranam","Bağışlaram səni", "Bəri gəl", "Sən gəlməz oldun" və sair mahnıları özünəməxsus şəkildə ifa edib. Zaman-zaman Daşkənddə, Cenevrədə, Londonda yaşasa da, Nəsibə xanımın ürəyi daim Azərbaycanla döyünüb.

Dünən Azərbaycan Milli İncəsənət Muzeyində Özbəkistan Mədəniyyəti Günləri çərçivəsində özbək incəsənət xadimlərinin mükafatlandırma mərasimi keçirilib. Bir qrup mədəniyyət xadimi Azərbaycanın "Dostluq" ordeninə layiq görülüb. Nəsibə Abdullayevaya isə həmin tədbirdə ötən il təltif olunduğu Xalq artisti fəxri adının döş nişanı və vəsiqəsi təqdim edilib. Xalqın sevimli müğənnisi orada ürək sözlərini ifadə edib:

– Mən buradan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, məni sevib rəğbətləndirən hər kəsə və bütün Azərbaycan xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun ki, uzun illər ərzində məni yaddan çıxarmamış, unutmamısınız. Yaşasın Azərbaycan–Özbəkistan qardaşlığı!

Ona bağışlanan gül dəstələrindən Azərbaycanın özəl ətrini alan Nəsibə xanım bu anlarda xoşbəxtcəsinə gülümsəyirdi.

Yadımıza onun 100 illik yubileyi qeyd olunan ümummilli lider Heydər Əliyevi böyük iftixarla yad etməsi düşdü: "İlk dəfə ulu öndər Heydər Əliyevlə Özbəkistanda keçirilən türkdilli dövlətlərin prezidentlərinin görüşü zamanı qarşılaşmışam. Qonaqların şərəfinə verilən konsertdə mən də çıxış edirdim. Həmin konsertdə özbək və Azərbaycan mahnılarını ifa etdim. Sonra məni prezidentlərin oturduğu otağa dəvət etdilər. Heydər Əliyev mənimlə doğma Azərbaycan dilində danışdı. Prezident İslam Kərimov zarafatla dedi: "Həəə... öz dilinizdə danışın, ancaq Nəsibə bizim qızımızdır". Heydər Əliyev isə cavabında dedi ki, o həm sizin, həm də bizim qızımızdır. Həm özbək, həm də Azərbaycan millətinin sevimli qızıdır. Həmin görüşdə o, mənim Bakıdakı qohumlarımla, ailə vəziyyətimlə maraqlandı, mahnılarımı sevdiyini söylədi. Onun üzündə xoş bir səmimilik, böyüklük hiss etdim. Elə bil ki, hər zaman yanımda görmüşdüm. O qədər mehriban və xoş rəftarla söhbət etdi ki, həmin gündən Heydər Əliyev mənim yaddaşıma dünyanın ən gözəl insanı kimi yazıldı. Ertəsi gün isə Azərbaycan səfirliyində növbəti görüşümüz baş tutdu. Bu böyük insan mənim xatirəmdə fırtına kimi, geniş ürək sahibi, çox dərin daxili mədəniyyətə malik insan, yüksək bir intelligent kimi qalıb. Allah ona rəhmət eləsin, ruhu şad, məkanı cənnət olsun".

Biz də fəxr edirik ki, Özbəkistan Mədəniyyəti Günlərində qardaş ölkənin təmsilçiləri arasında sevimli Xalq artistimiz, gözəl müğənni Nəsibə Abdullayeva da var.

***Ə.ƏLİYEV,***
***"Xalq qəzeti"***

# Klassik filmlərimiz kinoteatrlara qayıdır

**Milli kinomuzun 125, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının yaradılmasının isə 100 illiyi münasibətilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Kino Agentliyi və "Azərbaycanfilm" kinostudiyasının təşkilatçılığı ilə "CinemaPlus" kinoteatrlar şəbəkəsində avqustun 3-dən 10-dək "Klassik Azərbaycan filmlərinin retrospektiv baxışı"na start verilib.**

Mədəniyyət Nazirliyindən "Xalq qəzeti"nə verilən məlumata görə, həftə ərzində artıq klassikləşmiş "Arşın mal alan", "Bəxtiyar", "O olmasın, bu olsun", "Ögey ana", "Uzaq sahillərdə", "Əhməd haradadır? ", "Sehrli xalat", "Bir cənub şəhərində", "Bizim Cəbiş müəllim", "Şərikli çörək", "Axırıncı aşırım", "Gün keçdi", "Nəsimi", "Əzablı yollar", "Evlənmək istəyirəm", "Bəyin oğurlanması", "Cin mikrorayonda", "Atları yəhərləyin", "Süd dişinin ağrısı", "Yaramaz", "Ölsəm... bağışla" filmləri nümayiş etdiriləcək. Milli filmlərimizi izləmək üçün kinoteatrlara giriş ödənişsizdir.

Klassik filmlərimiz ölkəmizdə fəaliyyət göstərən televiziya kanallarında da avqustun 9-dək "Azərbaycan kinosu həftəsi" adı altında nümayiş olunacaq.

Qeyd edək ki, 1898-ci il avqustun 2-də fotoqraf Aleksandr Mişonun lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərin müstəqil nümayişi təşkil olunub. Azərbaycan kinosu günü də həmin tarixə əsasən təsis edilib.




***R.MƏHƏRRƏMOV***

# Ukrayna: hər gün uşaqlar öldürülür

**On yeddi aydan çox davam edən Rusiya–Ukrayna savaşında tərəflərin bir-birlərinə qarşı ən çox istifadə etdiyi silah növü pilotsuz uçuş aparatları – PUA-lardır. Elə bir gün olmur ki, Rusiya Ukraynanın şəhər və kəndlərini dron atəşinə məruz qoymasın. Ukrayna tərəfi də ara-sıra cavab tədbirləri görür.**



Dünən, avqustun 3-də Rusiya ordusu Kiyev və Odessa şəhərlərinə yenidən İran istehsalı olan “Şahed” dronları ilə hücum edib. UNİAN agentliyi yazır ki, paytaxtda partlayış səsləri eşidilib, Dunaydakı limanlarda yanğınlar baş verib.

Kiyev şəhərinin hərbi müdafiə idarəsinin rəisi Sergey Popko Kiyevə tərəf uçan bütün kamikadze dronlarının vurulduğunu, şəhər əhalisi arasında həlak olan və ya xəsarət alanların olmadığını bildirib: “Dronlar eyni vaxtda paytaxta bir neçə istiqamətdən daxil olub. Buna baxmayaraq, 10-dan çox uçuş aparatı Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən vaxtında müəyyən edilərək məhv edilib”.

Kiyevin meri Vitali Kliçko təsdiq edib ki, vurulan pilotsuz raketlərin hissələri şəhərin üç rayonuna düşsə də, ciddi dağıntı olmayıb. Bir vaxtlar dünya şöhrətli boksçu olmuş hazırkı mer onu da bildirib ki, dronlardan qeyri-yaşayış binasına ziyan dəyib, başqa bir yerdə isə ağac yanıb. Ukraynanın Fövqəladə Hallar üzrə Dövlət Xidməti yetkilisinin sözlərinə görə isə, pilotsuz təyyarənin qalıqlarının Kiyev vilayətinin Buçanski rayonundakı fərdi yaşayış evinə düşməsi nəticəsində yanğın baş verib. Bütün hallarda insan tələfatı olmayıb.

Öz növbəsində, Kiyev vilayət hərbi administrasiyasının rəhbəri Ruslan Kravçenko qeyd edib ki, qəsəbələrdən birinin üzərində vurulan pilotsuz uçuş aparatının qalıqları mağazanın damına ziyan vursa da, itki olmayıb. Odessa vilayət administrasiyasının rəhbəri Oleq Kiper isə xəbər verib ki, dünən gecə vaxtı Rusiyanın dron hücumundan sonra Dunaydakı Ukrayna limanlarında yanğınlar başlayıb, elevator zədələnib.

Rusiya–Ukrayna müharibəsi səngimir. Amma, təkcə döyüş meydanında deyil, informasiya sahəsində də “müharibə” şiddətlənir. Hər iki tərəfdən “feyk xəbərlər”in sayı durmadan artır. Məqsəd rəqib tərəfində ruh düşkünlüyü yaratmaqdır. Ukrayna bəzən təkcə rəqibindən başqa, öz müttəfiqlərindən də “zərbələr” alır. Məsələn, bu günlərdə Polşa prezidentinin xarici siyasət üzrə müşaviri Marcin Pşidaç rəsmi Kiyevin Rusiya ilə müharibədə Varşavanın dəstəyinə daha çox dəyər verməli olduğunu söyləyib. Bu fikir Ukrayna rəsmiləri tərəfindən birmənalı qarşılanmayıb. Polşanın Kiyevdəki səfiri Ukrayna XİN-ə dəvət olunub. Prezidentin müşaviri həmin qalmaqallı çıxışında həmçinin bildirib ki, onun ölkəsi gələn aydan Ukraynanın kənd təsərrüfatı mallarının idxalına müəyyən məhdudiyyətlər qoya bilər. Onun sözlərinə görə, Polşa hökuməti, ilk növbədə öz fermerlərinin maraqlarını qorumalıdır.

Bu arada Ukrayna Prezidenti Volodimir Zelenski ölkə səfirlərinə müraciət edərək onlara Rusiyaya qarşı sanksiyaların gücləndirilməsi üzərində işləməyi tapşırıb. Dövlət başçısı bu barədə çıxışında deyibdir: “Fərqli tərəfdaşlarımızın sanksiya siyasəti mahiyyəti fərqlidir. Kimsə bu istiqamətdə liderdir, kimsə hələ də tərəddüd edir, bir az geri qalır. Təəssüf ki, Rusiyaya sanksiyalardan yan keçməyə, əslində isə torpağımızda terroru davam etdirməyə kömək edən ölkələr var”.

V.Zelenski sonra qeyd edib ki, azad dünya ölkələrində müdafiə sənayesi üçün kritik komponentlər və ikili təyinatlı məhsullar istehsal edən iri şirkətlər var. Bütün bu mallar sanksiyalara baxmayaraq, müxtəlif yollarla Rusiyaya çatdırılır. Prezident hazırkı məqamda buna qarşı diplomatik mübarizənin gücləndirilməsinin olduqca vacib olduğunu vurğulayıb.

Bu yazının əvvəlində qeyd etdik ki, rəqiblər bir-birlərinə qarşı, əsasən, dronlardan istifadə edirlər. Lakin unutmaq olmaz ki, ta qədim dövrlərdən bugünə qədər hər bir savaşın əsas qəhrəmanı, əlbəttə, əsgər və zabitlərdir. Bu gün Ukrayna əsgəri motivasiyalıdır, o, öz doğma torpaqlarının müdafiə və azad olunması naminə canından keçir.

Sirr deyil ki, Avropanın bir çox ölkələrindən olan könüllülər Ukraynanın tərəfində vuruşur. Dünən qlobal KİV-də yayılan məlumata görə, Çexiya Prezidenti Petr Pavel ölkəsinin daha 14 vətəndaşının Ukrayna müharibəsində iştirak etməsinə icazə verib. Bu barədə dövlət başçısının mətbuat xidmətindən bildirilib.

Qeyd olunub ki, çex könüllülər Ukrayna Silahlı Qüvvələrinə Rusiyanın hücumunu dəf etməkdə yardım göstərəcəklər. Hazırda 146 çex savaşda iştirak edir. Nəzərə çatdırmaq istərdik ki, hazırda Ukrayna Ordusunun sıralaraında Baltikyanı ölkələrdən, eləcə də qonşu Polşa, Rumıniya, Bolqarıstan və digər dövlətlərdən olan könüllülər də az deyil.

Dünən axşam saatlarında qəzetimiz çapa hazırlanarkən bəlli oldu ki, Ukrayna ordusu cəbhənin Donetsk və Zaporejye istiqamətlərində geniş əks-hücum əməliyyatları həyata keçirməyə cəhd edib. Hərbi əməliyyatın nə qədər uğurlu olduğu barədə dəqiq məlumatlar yoxdur. Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Oleksiy Danilov bildirib ki, əks-hücum əməliyyatları ilə bağlı konkret qrafik yoxdur: “Kiyevdən başqa, kimsə əks-hücum əməliyyatlarımızı müəyyənləşdirə bilməz. Hansısa müddətdən danışanlar hərbi əməliyyatların nə olduğunu başa düşmürlər. Əməliyyat şəraiti çətin və mürəkkəbdir. Buna təsir edən bir sıra amillər var”.

O.Danilovun sözlərinə görə, Ukrayna öz silahları ilə Rusiya ərazisinə zərbələr endirmək hüququna malikdir: “Qarşı tərəf, demək olar ki, hər gün bizim uşaqlarımızı öldürür. Biz buna necə dözə bilərik?”. Fakt budur ki, Ukraynada bütün cəbhə boyu ağır, üzücü döyüşlər davam edir. Tərəflər hər gün xeyli sayda canlı itki verirlər. Müharibənin nə vaxt bitəcəyi isə məlum deyil.

***Məsaim ABDULLAYEV, “Xalq qəzeti”***

# NATO Belarus – Polşa münaqişəsinə qarışmır



**ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller növbəti brifinqdə bildirib ki, Şimali Atlantika Alyansı Polşanın Belarusa qarşı ittihamları ilə bağlı kollektiv müdafiə prinsipindən istifadə variantını nəzərdən keçirmir. " NATO ölkələrinin 5-ci maddəyə istinad etməsi prosesi var. Biz hazırda belə bir vəziyyətdə deyilik".**

5-ci maddə isə Şimali Atlantika Alyansının bir və ya bir neçə üzv ölkəsinə silahlı hücum halında kollektiv cavab tədbirləri nəzərdə tutur.

Xatırladaq ki, avqustun 1-də Polşa Xarici İşlər Nazirliyi iki Belarus helikopterinin ölkənin hava məkanını pozduğunu bəyan edib. Polşa hərbçiləri hesab edirlər ki, Belarus hakimiyyəti NATO-nun şərq cinahına və birbaşa Polşaya qarşı qəsdən təxribata başlayıb.

Polşa ilə Belarus arasında münasibətlərin pisləşməsi isə Rusiyanın maraqlarına xidmət edir. Rusiya Prezidenti Vladimir Putin hər zaman bildirir ki, guya Polşanın Ukraynaya qarşı ərazi iddiası var. Əgər Polşa ordusu köək məqsədilə Ukraynaya girsə onun qərb vilayətində möhkəmlənəcək,orada qalacaq. Gələcəkdə isə həmin əraziləri ilhaq edəcək. Amma Polşanın elə bir iddiası yoxdur. Tezliklə bu gərginlik aradan qaldırılacaq. Avropa İttifaqı və ABŞ iki ölkə arasında gərginliyin artmasına icazə verməz.

***P.ƏFƏNDİ, “Xalq qəzeti”***

# Qlobal istiləşmə Avropada buzlaşma ilə əvəzlənəcək?



***Kopenhagen Universitetinin mütəxəssisləri qlobal istiləşmə ilə əlaqədar Avropada tezliklə buz dövrünün gələcəyini göstərən iqlimin kompüter modelini yaradıblar. İşin nəticələri “Nature Communications” jurnalında dərc olunub.***

Alimlərin fikrincə, Qrenlandiya buzlaqlarının kəskin şəkildə əriməsi okeana güclü şirin su axını verir ki, bu da Qolfstrim cərəyanını (axınını) “yuya” bilər.

Xatırladaq ki, Qolfstrim cərəyanı Cənubi Amerikanın cənub sahillərində formalaşır. Atlantik Okeanı ilə hərəkət edərək Avropanın şimalına qədər çatır və bütün Avropanı istisi ilə qızdırmaqla yanaşı, ölkələri qütb küləklərinin sazaq və soyuqlarından qoruyur. Məhz onun sayəsində indi Avropanın mülayim iqlimi var. Lakin bu vəziyyətin uzun zaman davam edəcəyi şübhə doğurur. Çünki Atlantik okeanının Avropanı və Şimali Amerikanın şərq sahilini əhatə edən isti axın sistemi son 1000 ildə rekord həddə zəifləyib. Əgər bu tendensiya davam etsə, sahilyanı ölkələrin sakinlərini yay və qış fəsillərində daha ekstremal temperatur şəraiti gözləyə bilər. Almaniya, İrlandiya və Böyük Britaniyadan olan alimlərin fikirlərinə görə, bu prosesin əsas səbəbi insan fəaliyyəti nəticəsində yaranmış iqlim dəyişiklikləridir.

İtaliyadakı Fraskati İnstitutunun əməkdaşı, nəzəriyyəçi fizik Canluici Zanqari bu barədə deyib: "Qolfstrim xeyli zəifləyib və bunun əksini deyənlər ya yalan danışır, ya da sadəlövhcəsinə səhv edirlər. Yaxın gələcəkdə Avropanın şimalında buzlaşma proseslərinin başlanması qaçılmazdır".

Kosmik peyklərdən alınan son məlumatlar da göstərir ki, Qolfstrim cərəyanındakı suyun temperaturu 76 və 47-ci meridianlar arasında əvvəlki illə müqayisədə 10 dərəcə aşağı düşüb. Beləliklə, Avropada havalarının düzəni alt-üst olur. XXI əsrin ortalarında cərəyanlar sistemi pozulacaq. Bu da təxminən 60-70 ildən sonra planetin Şimal yarımkürəsində güclü soyumaya səbəb olacaq.

Bununla belə, alimlər qeyd ediblər ki, alternativ ssenari var və ona əsasən temperatur yüksəlməyə davam edəcək. Avropa da istisna deyil.

***Ə.PÜNHAN, “Xalq qəzeti”***


# “Azərsu” Açıq Səhmdar Cəmiyyəti

## “Pirşağı –Bilgəh” şərq kanalizasiya kollektorunun tikintisi işlərinin satın alınması üçün

# AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (əlaqələndirici şəxs: Abışev Murad Çingiz oğlundan, telefon: + 99 412 431 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğlundan, telefon: + 99 412 431 47 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az) ala bilərlər.

İşlərin qısa təsviri:

Dəmir-beton kanalizasiya kollektorunun tikintisi, nasos stansiyasının tikintisi və digər əlaqədar işlər.

Tenderdə iştirak haqqı: 500,00 (beş yüz) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - “Azərsu” Açıq Səhmdar Cəmiyyəti
VÖEN - 9900001751
Bank - “Kapitalbank” ASC-nin 1 saylı Nəsimi filialı
Kod - 200112
VÖEN - 9900003611
Yerli valyutada hesab nömrəsi
AZ65AIIB33070019441100216111
Xarici valyutada hesab nömrəsi
AZ55AIIB33170018401100216111
M/h: AZ37NABZ01350100000000001944
SWIFT AIIBAZ2X

Tender iştirakçıları tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (Ədliyyə Nazirliyindən alınmış müvafiq arayış);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;
- Azərbaycan Respublikasının dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;
- malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);
- mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son beş il (1 yanvar 2018-ci il 31 dekabr 2022-ci il) ərzində ümumi məbləği 10 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnoloqiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat və təsdiqedici sənədlər, son beş il (1 yanvar 2018-ci il 31 dekabr 2022-ci il) ərzində ən azı 8 milyon manatdan dövriyyə tələb olunur) və TMV-nin 1.6-cı bəndində tələb olunan digər sənədlər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər ən azı bir müəssisə tərəfindən təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 avqust 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 4 sentyabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətində 5 sentyabr 2023-cü il saat 16:00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***



# “Azərsu” Açıq Səhmdar Cəmiyyəti

## Ceyranbatan – Maştağa - Nardaran magistral su kəmərinin bir hissəsinin və bir ədəd su anbarının tikintisi işlərinin satın alınması üçün

# AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (əlaqələndirici şəxs: Abışev Murad Çingiz oğlundan, telefon: + 99 412 431 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğlundan, telefon: + 99 412 431 47 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az) ala bilərlər.

İşlərin qısa təsviri: magistral su kəmərinin bir hissəsinin və bir ədəd su anbarının tikintisi və digər əlaqədar işlər.

Tenderdə iştirak haqqı: 500,00 (beş yüz) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - “Azərsu” Açıq Səhmdar Cəmiyyəti
VÖEN - 9900001751
Bank - “Kapitalbank” ASC-nin 1 saylı Nəsimi filialı
Kod - 200112
VÖEN - 9900003611
Yerli valyutada hesab nömrəsi
AZ65AIIB33070019441100216111
Xarici valyutada hesab nömrəsi
AZ55AIIB33170018401100216111
M/h: AZ37NABZ01350100000000001944
SWIFT AIIBAZ2X

Tender iştirakçıları tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (Ədliyyə Nazirliyindən alınmış müvafiq arayış);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;
- Azərbaycan Respublikasının dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;
- malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);
- mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son beş il (1 yanvar 2018-ci il 31 dekabr 2022-ci il) ərzində ümumi məbləği 15 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnoloqiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat və təsdiqedici sənədlər, son beş il (1 yanvar 2018-ci il 31 dekabr 2022-ci il) ərzində ən azı 10 milyon manatdan dövriyyə tələb olunur) və TMV-nin 1.6-cı bəndində tələb olunan digər sənədlər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər ən azı bir müəssisə tərəfindən təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 avqust 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 4 sentyabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətində 5 sentyabr 2023-cü il saat 16:00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 163 (30279) 4 avqust 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Güləşçilərimiz dünya ikincisi olublar

***Türkiyənin İstanbul şəhərində keçirilən U-17 dünya çempionatında 5 medal qazanan yunan-Roma güləşi üzrə Azərbaycan millisi 108 xal toplayaraq komanda hesabında dünya ikincisi olub.***




2 qızıl, 1 gümüş və 2 bürünc medala sahiblənən yığmamız bununla, medalların əyarına görə, son 4 ilin ən yaxşı nəticəsini qazanıb. Böyük məşqçi Taleh İsrafilov, məşqçilər Nazim Əhmədovla Rasim Ağayevin rəhbərliyi altında dünya çempionatında mübarizə aparan güləşçilərimizdən Turan Daşdəmirov (45 kq) və Roman Kərimov (60 kq) qalib adını qazanıblar. Yusif Əhmədli (65 kq) gümüş, Elnar Ziyadovla (48 kq) və Mikayıl İsmayılov (92 kq) isə bürünc medala sahib olublar.

## Paraüzgüçümüz dünya çempionatının finalında



***Azərbaycan paraüzgüçüsü Vəli İsrafilov İngiltərənin Mançester şəhərində keçirilən dünya çempionatında finala yüksəlib.***

İdmançımız 100 metr məsafəyə brass üsulu ilə üzmə yarışında 1:12.34 nəticə göstərib. Bundan əvvəl 3 qat paralimpiya çempionu Raman Salei 1 gümüş, 2 bürünc medal qazanıb.

## "Qarabağ"ın heç-heçəsi də Azərbaycana xal gətirdi

***UEFA reytinqində Azərbaycan növbəti xallarını qazanıb.***




Ölkə çempionu "Qarabağ"ın UEFA Çempionlar Liqasının II təsnifat mərhələsində Polşa təmsilçisi "Rakuv"la evdə 1:1 hesablı heç-heçə qeydə alındığı oyun sayəsində ölkə reytinqinə 0,125 xal əlavə olunub.

Bununla da milli futbolumuzun son 5 mövsümdəki ümumi xallarının sayı 15,250-yə çatıb. Bu nəticə ilə Azərbaycan reytinqdə 29-cu pilləni tutur. İngiltərə 88,928 xalla reytinq cədvəlinin lideridir.

## "Neftçi" və "Sabah" növbəti mərhələyə yüksəlib



***Dünən Bakıda UEFA Konfrans Liqasının II təsnifat mərhələsinin cavab oyununda "Neftçi" Sloveniyanın "Jelezniçar" komandasını qəbul edib.***

Oyunun birinci hissəsində meydan sahibləri hesabda önə çıxıblar – 1:0. 20-ci dəqiqədə Sayef topu rəqib qapısından keçirib. 68-ci dəqiqədə isə Eddi İsrafilov baş zərbəsi ilə fərqi artırıb – 2:0.

UEFA Konfrans Liqasında mübarizə aparan "Sabah" klubu da növbəti mərhələyə yüksəlib. Bakı klubu öz meydanında Latviyanın "RFŞ" komandasını 2:1 hesabı ilə məğlubiyyətə uğradaraq üçüncü təsnifat mərhələsinə vəsiqə qazanıb.

Ölkəmizin UEFA Konfrans Liqasında digər təmsilçisi "Qəbələ" isə dünənki cavab görüşündə də "Omoniya"ya uduzub. Kipr təmsilçisi bu dəfə böyük hesabla qalib gəlib – 4:1. Beləliklə "Qəbələ" Konfrans Liqasında mübarizəni dayandırıb.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

Texnologiya yenilikləri

## Süni intellekt xərçəngə diaqnoz qoyur



**İsveçli alimlərin hazırladığı süni intellekt süd vəzisi xərçənginin diaqnozunda rentgenoloqlara əvəzsiz xidmət göstərəcək. Belə ki, İsveçin Lund Universitetində aparılan araşdırmada süd vəzi xərçənginə diaqnoz qoymaq üçün mamoqramları skan edən süni intellekt hazırlanıb.**

Qeyd edək ki, süni intellektin səhv nisbətini yoxlamaq üçün radioloqlar tərəfindən 40-80 yaşarası 80 minə yaxın qadının müayinəsi araşdırılıb. Nəticədə, tədqiqatçıların uğurlu nəticələr əldə etdikləri təsdiqlənib.

Yeri gəlmişkən, Böyük Britaniyanın Milli Səhiyyə Xidməti (NHS) yuxarıda adı çəkilən süni intellektin süd vəzisi xərçənginin müalicə və müayinə proqramlarına inteqrasiyasını planlaşdırdığını açıqlayıb.

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

## Qədim balina 190 ton olub

**Peru arxeoloqları nəhəng balina – "Perucetus colossus"un sümüklərini aşkar ediblər. Dünyaca məşhur olan "Nature" jurnalında dərc olunan araşdırmaya görə, Peru sahillərində yaşamış bu nəhəng mavi balina suda yaşayan digər canlılardan fərqli olaraq daha ağır çəkiyə malik olub.**



Bədən kütləsinin 180 ton olduğu təxmin edilən balinanın hər bir fəqərəsinin çəkisi 220 funtdan (100 kiloqram) çoxdur, qabırğalarının uzunluğu isə, təxminən, 5 fut (1,4 metr) ölçüsündədir.

Qeyd edək ki, Ginnesin Rekordlar Kitabında qeydə alınan ən böyük mavi balinanın çəkisi 190 ton olub.

***F. SALMANOVA, "Xalq qəzeti"***

Maraq dünyamız

## NASA itmiş "Voyager–2"ni tapıb

***NASA komandası "Voyager-2"nin daşıyıcı tezliyi (yüksək tezlikli siqnal) ilə bağlı siqnal alıb.***



Ekspertlərin fikrincə, bu, cihazın normal fəaliyyətini davam etdirməsi deməkdir. Əvvəllər onunla əlaqə kəsilmiş – səhv əmrlər səbəbindən zondun antenaları Yerə yönəlik əlaqəni itirmişdi. Buna baxmayaraq idarəetmə mərkəzi ümidli idi. Oktyabrın ortalarında zondun sistemləri yenidən işə salınacaq. Bununla da rabitənin bərpa olunacağı gözlənilir.

"Voyager -2", Günəş sisteminin uzaq planetlərini araşdırmaq üçün NASA tərəfindən 20 avqust 1977-ci ildə "Voyager" proqramının bir hissəsi olaraq buraxılıb. Günəşdən ən uzun məsafəyə (demək olar ki, 20 milyard kilometr) uzaqlaşmış aparatlardan biridir. Onun enerji ehtiyatlarının daha bir neçə ilə kifayət edəcəyi bildirilir. Bu aparat Yupiter, Saturn, Uranı ziyarət etmiş tək kosmik aparatdır.

## 1 tonluq qızıl sikkə



***2011-ci ilin payızında nominal dəyəri bir milyon Avstraliya dolları olan yeni sikkənin təqdimatı keçirilib.***

İri monet 99,99 faiz saf qızıldan hazırlanıb. Diametri 80, qalınlığı 12 santimetr, çəkisi isə 1 tondur. Beləliklə, o hazırda dünyanın ən bahalı sikkəsi sayılır. Qızıl pula "1 Tonne Gold Kangaroo Coin" adı verilib. Sikkənin real dəyəri isə buraxılış zamanı 57,34 milyon ABŞ dolları qiymətləndirilib.

Bu sikkəni yaratmaq üçün, təxminən, 18 ay sərf edilib. Dizaynını isə Böyük Britaniya kraliçasının rəsmi zərgəri Stüart Devlin hazırlayıb. Üz tərəfini Kraliça II Yelizavetanın profili bəzəyir, arxa tərəfində isə günəş fonunda qızılı kenquru təsviri var.

## Uzaq planetlərdə "almaz yağışı"

***Neptun, Uran və Saturnun atmosferində təzyiq həddindən artıq yüksəkdir. Karbon atomları kristallaşaraq almaza çevrilə bilir.***



Bəs elm bunu haradan bilir? Tədqiqatçılar laboratoriyada bu planetlərə uyğun şərait yaradıblar. Onlar maraqlı nəticələr əldə ediblər. Və bunun Neptun və Uranda da baş verdiyini sübut ediblər. Bundan əlavə, elm adamları Saturnun bəzi hissələrinə ildə min tona qədər almazın düşə biləcəyini ehtimal edirlər.

***P.ƏFƏNDİ, "Xalq qəzeti"***

## 73 yaşlı səyyah dünyanı dolaşacaq

**73 yaşlı qazaxıstanlı səyyah Sarsenbay Kotıraşov Yer kürəsini gəzərək dünya rekorduna imza atmaq niyyətindədir.**



O, avqustun 2-də Atırau şəhərindən dünya üzrə gəzinti turuna başlayıb. Səfərə başlamazdan əvvəl Atırau Gənclər Mərkəzində görüş keçirən səyyah bildirib ki, o, anadan olduğu Ulytau bölgəsini bütün dünyaya tanıtdırmaq üçün səyahətə çıxır.

İki il çəkən səfərin birinci mərhələsində Kotıraşov Qazaxıstan, Rusiya, Gürcüstan və Türkiyəyə gedəcək. Səyyah 3 min kilometrlik məsafəni 100 günə qət etmək niyyətindədir. İkinci mərhələdə Fransa və ABŞ-a səfər etməyi planlaşdıran Kotıraşov 9 min kilometrdən çox məsafəni 180 günə gedəcək. Üçüncü mərhələdə isə onun Çin, Monqolustan, Rusiya və Qazaxıstana olan 4 min kilometrlik səfərinin 130 gün davam edəcəyi gözlənilir.

Səyyah qeyd edib ki, yaşı 70 və ya daha çox olan şəxslərin dünya üzrə gəzintiyə çıxması ilə bağlı hələlik rekord nəticə yoxdur.

***F. HÜQUQQIZI, "Xalq qəzeti"***

Sağlamlıq

## 1 ağartının 7 faydası

***Kəsmik selen və sinklə zəngindir, bu minerallar isə qalxanabənzər vəzi, böyrəklərin, oynaqların və mədə-bağırsaq traktının sağlamlığı üçün vacibdir. Qiymətli zülal mənbəyi olduğundan məşqdən əvvəl yeyiləndə, əzələlər daha sürətli bərpa olunur və ağırlıq hissi olmur. Kəsmiyin 7 faydasını təqdim edirik:***



**Yaddaşı artırır.** Kəsmiyin 1 payında (təxminən 150 q) B12 vitaminin 0,9 mikroqramı var, gündəlik doza isə 2,4 mikroqramdır. Bu vitamin sinir sistemini möhkəmlədir, həzm fermentlərini və əsas qida maddələrini hüceyrələrə daşıyır.

**Enerji verir.** B2 vitamini bədəndə bəzi fermentlərin işləməsi, hüceyrələrdə sağlam metabolizm və enerji mübadiləsi üçün çox vacibdir. Onun çatışmazlığı yorğunluq, depressiya və qaraciyər problemlərinə səbəb ola bilər.

**Əzələni böyüdür.** İdmanla məşğul olanlara məşqdən əvvəl az miqdarda kəsmik yemək məsləhət görülür. Bu, əzələ kütləsinin böyüməsinə təsir edir.

**Qalxanabənzər vəzi qoruyur.** Qalxanabənzər vəzin normal işləməsi üçün onun təkcə yoda deyil, selenə da ehtiyacı var. Antioksidant xüsusiyyətləri ilə selenium viruslarla, sistemli iltihablarla, otoimmun proseslərlə və hətta xərçəngə səbəb olan hüceyrə mutasiyaları ilə mübarizə aparmağa kömək edir.

**Sümükləri gücləndirir.** Kəsmikdən danışanda ən çox kalsium yada düşür. Bir fincan kəsmikdə, təxminən, 227 mq kalsium var ki, bu da gündəlik ehtiyacın 20 faizini təşkil edir. O, skeletlə yanaşı, hormonal sistemə də faydalı təsir göstərir.

**Arıqlamağa kömək edir.** Məhsul insanı uzun müddət tox saxladığından az yeyilir, yağ deposunda yığılmır, buna görə də pəhriz saxlayanlar da yeyə bilərlər.

**Bağırsaqlara fəal təsir edir.** Kəsmikdə olan bakteriyalar bağırsaq hərəkətliliyini normallaşdırır. Amma mədə-bağırsaq xəstəlikləri olanlara kəsmiyi yalnız işlənmiş formada yemək daha yaxşıdır.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən avqustun 4-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Gecə 20-25°, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunundan 758 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 60-65 , gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 28-33°, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## Qocalma zəifləyibmi?

**Köhnə filmlərdəki aktyorlara, yaxud, keçən əsrdəki həmyaşıdımız olan insanların şəkillərinə baxanda onlar bizə daha yaşlı görünürlər. "IFL Science" portalı yazır ki, alimlərin tədqiqatlarına əsasən, bu məsələnin səbəbləri ilə bağlı uzun bir siyahı tərtib etmək olar.**



Bildirilir ki, son illərdə yaşlanma prosesi insanların ümumi rifahından, dünyaya baxış səviyyəsindən, özlərinə daha çox diqqət yetirmələrindən, müasir tibbin inkişafından və digər amillərin təsirindən zəifləyib. Təbii ki, bütün ailələrin gəlir və xərcləri bərabər deyil və buna görə də yaşlanma sürəti də insanlarda müxtəlifdir.

Amerikalı tədqiqatçılar 1988 – 2010-cu illər arasında yaşayanların bioloji qocalma prosesini izləyiblər. İnsanların qan təzyiqi və ağciyər göstəriciləri nəzarətə götürülüb. Bu kiçik – 22 illik yaş fərqi arasında müxtəlif nəticələr əldə edilib. Alimlər bildirirlər ki, 20 illik bioloji yaş fərqini izləmək onu göstərib ki, qocalma prosesi qadınlarda və kişilərdə hissolunan qədər azalıb. O da müəyyən olunub ki, bu fərq kişilərdə özünü daha qabarıq göstərib. Bu da, yəqin, kişilərin daha çox sərbəst yaşamağa üstünlük verməlri ilə əlaqədardır.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4882
SİFARİŞ 1941
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00